AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

**2018, 1 (20)**

**ISBN: 90000000060074**

**BAKI-2018**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 1 (20), 2018

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutnda nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2011-ci ildən tarix, tarixin tədrisi metodikası, 2015-ci ildən psixologiya və pedaqogika elmi istiqamətləri üzrə də "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

## REDAKSİYA HEYƏTİ

**Cəfər Cəfərov** (baş redaktor), **Asəf Zamanov, Bəxtiyar Əliyev, Urxan Ələkbərov, Yaqub Mahmudov, Vəli Əliyev, İzzət Rüstəmov, Abbas Seyidov (**baş redaktorun müavini**), İradə Hüseynova, Oqtay Sultanov, Anar İsgəndərov, Ramiz Əliyev, Fərrux Rüstəmov, Rüfət Hüseynzadə, Sevinc Quliyeva** (məsul katib)

**UOT 94 (479.24)**

# 1915-1918-Cİ İLLƏRDƏ TÜRK-MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI SOYQIRIMLARI

***Anar İsgəndərli***
*Bakı Dövlət Universiteti*

**Açar sözlər:** *türk, müsəlman, erməni, Rusiya, Azərbaycan, Osmanlı, soyqırımı*

Məqalədə 1915-1918-ci illərdə daşnak-bolşevik qüvvələri tərəfindən türk-müsəlman əhalisinə qarşı aparılan soyqırımı ön plana çəkilir. Daşnakların birləşmiş hərbi qüvvələri tərəfindən Azərbaycann müxtəlif bölgələrində - o cümlədən Bakı, Şamaxı, Quba, Göyçay, Zəngəzur, İrəvan, Xoy, Maku, Urmiya və digər yerlərdə törədilən soyqırımları "Fövqəladə Təhqiqat Komissiyası"nın sənədləri əsasında təhlil edilir.

## GENOCIDE AGAINST THE TURKIC-MUSLIM POPULATION IN 1915-1918

***Anar Iskandarli***

**Keywords:** *turks, muslims, armenian, Russia, Azerbaijan, Ottomans, genocide*

Alliance of dashnak-bolshevik's real genocides aganist people of turkish-muslim beetwen 1915-1918 are inwestigated in this article. So, realization of genocide of dashnak-bolshevik's in the separate regions of Azerbaijan, even in Baku, Shamakhi, Guba, Goychay, Zangazur, Iravan, Khoy, Maku and Urmia are involved to the public according to the documents of the Commission of Emergency Investigation.

## ГЕНОЦИДЫ ПРОТИВ ТЮРКСКО-МУСУЛЬМАНСКОГО НАСЕЛЕНИЯ В 1915-1918-ГО ГОДА

***Анар Искендерли***

**Ключевые слова:** *турки, мусульмане, армяне, Россия, Азербайджан, Оттоманы, геноцид*

В статье изучается геноцид, проведенный дашнакско-большевидскими объединениями против тюркско-мусульманского населения в 1915-1918 годах. Геноцид дашнакских формирований в одельных регионах Азербайджана, в том числе и в Баку, Шемахе, Губе, Геокчае, Зенгезуре, Иреване, Хойе, Маку и Урмии были исследованы на основе документов Чрезвычайной Комиссии Расследований.

Bir əsrə yaxındır ki, erməni ideoloqları və onların havadarları dünyanı inandırmaq istəyirlər ki, 1915-ci ildə Osmanlı ərazisində "zavallı" erməni xalqına qarşı dövlət səviyyəsində qırğın törədilib. SSRİ dağılana qədər bu təbliğat bilavasitə Türkiyə Respublikasına qarşı yönəldiyi üçün, dolayı yolla bu məsələdə bütün türk-müsəlman dünyası günahlandırılırdı. Çar Rusiyasının Osmanlı dövlətinə nifrəti SSRİ dövlətinin siyasətində və təbliğatında davam etdirildi. Beləliklə, XX əsrin 60-cı illərində bu yalançı təbliğat ayaq tutaraq yeriməyə başladı.

Əslində soyqırıma məruz qalan kimlər olmuşdur?

Birinci Dünya müharibəsi ərəfəsində Osmanlı dövlətinin 3-cü ordusuna rəhbərlik edən Ənvər paşa Ərzurumda erməni liderləri ilə görüşündə yəqin etdi ki, ermənilər müharibə başlanacaq təqdirdə Osmanlı dövlətini müdafiə etməyəcəklər. Çünki, çar Rusiyası gələcəkdə müharibənin nəticəsindən asılı olaraq osmanlı ərazisində erməni muxtar dövlətinin yaradılmasına təminat verməklə, Osmanlı dövlətinin tərkibində olan erməniləri Türkiyəyə qarşı müharibəyə cəlb edə bilmişdi. Birinci dünya müharibəsi ərəfəsində II Nikolayın Qafqaza gəlişi və ermənilərə osmanlılara qarşı əməkdaşlıq təklif etməsi məsələni daha da ciddiləşdirdi. Çar Tiflisdəki nitqini: "Qoy, rus bayrağı altında üzən gəmilər Bosfor və Dardanel boğazlarında sərbəst hərəkət etsin. Qoy, erməni xalqı Rusiyanın köməyi ilə Osmanlı ərazisində öz müstəqil dövlətini qura bilsin"! kəlmələri ilə bitirdi. Beləliklə, II Nikolayın bu qərəzli və təhrikedici çıxışı ermənilərin Rusiya tərəfindən Türkiyəyə qarşı müharibədə iştirak etməsini təmin etdi. Türk torpaqlarının işğalına və əhalisinin məhv edilməsinə hazırlaşan erməni ideoloqları erməni kilsəsindən xeyir-dua aldılar.

Məlum olduğu kimi, 1914-cü il noyabrın 1-də rus ordusu Qafqaz istiqamətində Osmanlı sərhədlərini keçdi. Qars, Ərdəhan və Batum uğrunda döyüşlərdə hər iki tərəf böyük itki verdi. Lakin Sarıqamış yaxınlığındakı döyüşdə bir tərəfdən sərt qış, o biri tərəfdən rus ordusunun daha güclü hazırlığı türklərdən 90 min əsgər və zabitin əsir alınması ilə nəticələndi. Rus ordusunun Şərqi Anadoluya daxil olması ermənilərin türklərə qarşı qırğın törətməsi üçün şərait yaratdı. Rus ordusunun tərkibində xidmət edən ermənilərlə yerli ermənilər birləşərək heç bir günahı olmayan yüz minlərlə dinc əhalini qətlə yetirir və onları öz dədə-baba yurdlarından didərgin salırdılar. Erməni

ideoloqlarının uzun illər boyu təbliğ etdikləri "Böyük Ermənistan" planının reallaşması üçün şərait yaranmışdı. Ermənilərin yerli əhaliyə qarşı bu münasibəti Osmanlı dövlətini müəyyən müdafiə tədbirləri görməyə məcbur etdi. Belə ki, 1915-ci ilin mayın ortalarında Van, Bitlis və Ərzurumdan erməni əhalisi döyüş meydanından uzaqlaşdırıldı. Bununla da türklərin rus və ingilislərə qarşı döyüşlərində ermənilərin neytrallığı təmin edildi. Eyni zamanda, Osmanlı dövlətinin hərbi rəhbərliyi türklərə və digər müsəlmanlara ermənilərə qarşı hər hansı zorakılıq törətməyi qadağan edən göstəriş verdi. 1919-cu il yanvarın 30-da Londonda çıxan "Tayms" qəzeti yazırdı: "Köçürülən erməni əhalisinin gələcəkdə öz evlərinə qayıtması və əmlakına sahib durması üçün Osmanlı hökuməti tərəfindən xüsusi komissiya yaradıldı. Komissiyanın işi erməni əhalisinin siyahıya alınmasından ibarət idi. Komissiyanın sənədlərində dönə-dönə qeyd olunur ki, müharibə başa çatandan sonra erməni əhalisi öz evlərinə qaytarılacaqdır".

Antantanın təbliğat maşını və erməni millətçiləri sübut etmək istəyirlər ki, birinci dünya müharibəsi illərində Osmanlı ərazisində bir milyondan artıq erməni öldürülmüşdür. Bunun üçün fakt kimi müharibəyə qədər Osmanlı ərazisində ermənilərin 2.5 milyon nəfər olduğu göstərilirdi. Halbuki, Osmanlı dövlətinin rəsmi məlumatına görə müharibəyə qədər bu ərazidə 1.300 min erməni yaşayırdı. Göstərilən əhalinin yalnız yarısı döyüş əməliyyatları gedən ərazidə yaşayırdı. Müharibə dövründə yarım milyon erməni Türkiyədən Qafqaza və başqa yerlərə köçmüş, 150-200 min erməni Qərbi Avropa və ABŞ-a mühacirət etmiş və ehtimal etmək olar ki, ölən əhalinin sayı 200 min nəfər olmuşdur. Təbii ki, bu rəqəmin içində təkcə köçürmə nəticəsində ölənlər yox, aclıqdan, soyuqdan ölənlər və itkin düşənlər də vardır. "Tayms" qəzeti yazır: "Bu bir danılmaz həqiqətdir ki, müharibə illərində osmanlı ərazisində **iki milyon türkün** həyatına son qoyulmuşdur".

Erməni ideoloqları dünyanı inandırmaq istəyir ki, guya 1915-ci il aprelin 24-də daxili işlər naziri Tələt paşa erməni əhalisinin dövlət səviyyəsində qırılması haqda yazılı göstəriş vermişdir. Bu günə qədər erməni ideoloqları həmin sənədin əslini fakt kimi heç kimə göstərə bilmirlər. Ona görə ki, belə sənəd ümumiyyətlə yoxdur.

1919-cu il Paris sülh konfransı dövründə Osmanlı rəhbərlərinin gizli yazışmaları diqqətlə yoxlanıldıqdan sonra ermənilərin kütləvi surətdə öldürülməsi haqqında heç bir sənəd və əmr tapılmadı. Əksinə, Avropadan gələn məmurlar belə faktla rastlaşdılar ki, köçürülən erməni əhalisinin təhlükəsizliyini təmin etmək üçün Osmanlı dövləti tərəfindən onlarla əmr və göstəriş verilmişdir.

Osmanlı ərazisində müsəlman əhalisinə qarşı ilk soyqırımı 1915-ci il martın 14-də Van şəhərində erməni dəstələri tərəfindən törədildi. İki gün ərzində şəhərin müsəlman əhalisi qılıncdan keçirilərək onlara olmazın əzablar

verildi. Osmanlı ərazisini işğal edən rus ordusunun himayəsi altında "Erməni Van dövləti" yaradıldı. Van soyqırımından sonra erməni və rus birləşmələrinin Bitlis vilayətinə hücumları başladı. Mosula qədər böyük bir ərazi erməni daşnak qüvvələrinin işğalı altına düşdü. 1915-ci il iyulun ortalarına qədər Van ərazisinə 250 min erməni köçürüldü. Halbuki, bu ərazidə 50 mindən artıq erməni yaşamamışdı.

1915-ci il iyulun ortalarından etibarən ermənilərin bu ərazilərdə törətdiyi cinayətlərin sayı-hesabı yox idi. İyulun ortalarından sonra Osmanlı ordusunun əks hücumu nəticəsində geri çəkilən rus-erməni ordusu ilə birlikdə erməni əhalisi də bu əraziləri tərk etməyə başladı. 200 minlik erməni əhalisi rus ordusunun müşayiəti ilə Cənubi Qafqaz istiqamətinə üz tutdu. Düzdür, bir çox yerlərdə bu əhali kürdlərin hücumlarına məruz qaldı. Çünki kürdlər də erməni soyqırımına məruz qalanlardan idilər.

Birinci dünya müharibəsi illərində erməni-osmanlı münasibətlərinə dair həm obyektiv baxımdan, həm də sənədlərin əksəriyyəti qeyri-müsəlman müəlliflərinə məxsus olduğuna görə ABŞ konqresi kitabxanasında saxlanılan "Bristolun sənədləri" diqqəti cəlb edir. Bu külliyyatda qeyd olunur ki, "dəqiq statistik mənbələrdən məlumdur ki, 1912-1922-ci illər ərzində 600 minə yaxın erməni həlak olmuşdur. 1,5-2 milyon ermənin ölümü ilə bağlı fikirlər fərziyyədən başqa bir şey deyildir. Müharibə gedən ərazidə insanların ölümü və itkin düşməsi adi bir haldır". Bristolun sənədlərində göstərilir ki, qeyd olunan dövrdə isə 2,5 milyon türkün həyatına son qoyulmuşdur. Türklərin ölümü və öldürülməsi ermənilərin ölümündən daha faciəli olmuşdur.

Yuxarıdakı faktlardan belə nəticəyə gəlmək olar ki, I Dünya müharibəsi illərində Osmanlı ərazisində soyqrıma məruz qalan ermənilər yox, yerli türk əhalisi olmuşdur.

1917-ci ilin fevralında Rusiyada 300 ildən çox hakimiyyətdə olan Romanovlar sülaləsi devrildi. Rusiyada Müvəqqəti hökumət yaradıldı. Müvəqqəti hökumətin Zaqafqaziya idarəçiliyi üzrə Xüsusi Zaqafqaziya Komitəsi fəaliyyətə başladı. Müvəqqəti hökumət elan edirdi ki, I Dünya müharibəsi başa çatdıqdan sonra Rusiya ərazisində yaşayan xalqların müqəddəratı məsələsinə baxılacaqdır. Lakin 1917-ci ilin oktyabrında V.İ.Lenin başda olmaqla bolşeviklər tərəfindən hakimiyyətin zorakı yolla ələ keçirilməsi Rusiyanın himayəsi altında yaşamağa məhkum edilən məzlum xalqlarının arzularını puça çıxartdı. 1917-ci ilin noyabrında Tiflisdə Zaqafqaziya Komissarlığı yaradıldı. Burada Azərbaycan, erməni və gürcü nümayəndələri təmsil olunurdular. Bakıda Şaumyan başda olmaqla bolşeviklər bölgədəki daşnak qüvvələrini birləşdirərək yerli əhaliyə qarşı qırğına hazırlaşırdılar. Xüsusilə, Rusiyada bolşeviklər hakimiyyətə gələndən sonra Bakıda bolşeviklərin fəallığı artdı.

Martın 29-da şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən tərksilah edilməsi milli qırğına

başlamaq üçün bəhanə oldu. Belə ki, 1918-ci il martın 17-də silahla ehtiyatsız davranışdan həlak olmuş H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsini Bakıya gətirən müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik bir dəstəsi bolşevikləri təşvişə saldı. Mərhumu dəfn edən müsəlman dəstəsi "Evelina" gəmisi ilə Lənkərana geri qayıtmalı idi. Paraxodun körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər müsəlman dəstəsinin tərksilah olunmasını tələb etdi. Müsəlman dəstəsinin rədd cavabına tüfənglərdən və pulemyotlardan atılan atəşlə cavab verildi. Gəmidəki silahlar bolşeviklər tərəfindən müsadirə olundu.

Ertəsi gün şəhərin cənub hissəsində erməni əsgərləri göründülər. Onlar bütün küçə boyu səngərlər qazmağa, torpaq və daşlardan bəndlər ucaltmağa başladılar. Həmin gün müsəlman xeyriyyə cəmiyyətinin binasında keçirilən yığıncağa gələn Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyants Erməni Milli Şurası və "Daşnaksütyun" partiyası adından bəyan etdi ki, əgər müsəlmanlar bolşeviklərə qarşı çıxış etsələr, ermənilər də onlara qoşulacaq və bolşeviklərin Bakıdan qovulmasına kömək edəcəklər. Martın 18-də (təzə stillə 31 mart - A.İ.) səhər tezdən şəhərin müsəlmanlar yaşayan hissəsinə hücumlar başladı. Ermənilərin yalançı vədlərinə inanmış müsəlmanlar əvvəlcə şəhərdə nə baş verdiyini müəyyən edə bilmirdilər. Hücum ərəfəsində bütün ermənilər şəhərin müsəlmanlar yaşayan hissəsindən ermənilər yaşayan hissəsinə keçdilər. Müsəlmanlar yaşayan hissədə xristian əhalidən ruslar və gürcülər qalmışdı.

Bakıda soyqırımı planı hələ 1917-ci ildən "Daşnaksütyun" partiyası və Erməni Milli Komitəsi tərəfindən hazırlanırdı. Onlar dəfələrlə müsəlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə cəhd göstərmişdilər. Ermənilərin məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini cismən məhv etmək idi. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi planlı surətdə mütəşəkkil erməni hərbi hissələri tərəfindən şəhərin hər yerində qabaqcadan müəyyənləşdirilmiş sistem üzrə həyata keçirilirdi.

Təhqiqat Komissiyası tərəfindən şahid kimi dindirilmiş Bakı şəhərinin sakini A.N.Kvasnikin ifadəsində deyilir: "Müsəlman əhalisinin əvvəlcə Bakı şəhərində, sonra isə onun ətraflarında cismən məhv edilməsi, onların əmlakının və bütün var-dövlətlərinin qarət olunması və siyasi üstünlüyün ermənilərin əlinə keçməsi ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı qəsd idi."" [1]. Azğınlaşmış və vəhşiləşmiş erməni quldurlar dinc azərbaycanlı əhalini qırıb-çatmaq üçün ən amansız üsullara əl atırdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Y.Kluge bu komissiyanın sədrinə yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərlər çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər… ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər" [2].

Təhqiqat Komissiyasının sənədlərinə əsasən məlum olur ki, 1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 11 min nəfərədək türk-müsəlman öldürülmüşdür. Onların çoxunun meyitləri tapılmamışdır. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər [3]. Sənədlərdən məlum olur ki, Bakının şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olunmuşdur. Xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə-yeksan edilmişdir. Uzaqvuran toplarla Təzəpir məscidi zədələnmişdir. Daşnaklar Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırmışdılar [4].

Təhqiqat Komissiyasının materiallarında bu vəhşiliklər barəsində deyilir: "1918-ci il martın 18-də bir erməni zabiti, yanındakı üç erməni əsgəri ilə "Kaspi" qəzeti redaksiyasının və "İsmailiyyə" müsəlman xeyriyyə cəmiyyətinin binaları arasındakı dalana gəldi və "İsmailiyyə" binasına daxil oldu. Bir azdan binanın pəncərəsində tüstü və alov göründü. Nəinki Bakı müsəlmanlarının iftixarı sayılan, həm də bütün şəhərin yaraşığı olan bu əzəmətli bina yanğından məhv oldu. Yanğını söndürməyə adam yox idi, çünki müsəlmanlar küçəyə çıxa bilmirdilər, onları pulemyotlarla və top-tüfənglə atəşə tuturdular". Həmin zabit "Daşnaksütyun" partiyasının görkəmli xadimi Tatevos Əmirov idi. Bu, həmin Tatevosdur ki, uzun illər ərzində tariximiz, mətbuatımız onu "yenilməz inqilabçı", "xalqlar dostluğu uğrunda mətin mübariz" kimi təbliğ etmişdi.

Talançılar "Kaspi" qəzeti redaksiyasının və "Dağıstan" mehmanxanasının binalarını, "İsgəndəriyyə"ni, "İsmailiyyə"ni də yandırmışlar. "Kaspi" qəzeti redaksiyasında Azərbaycan dilində kitablar nəşr edilirdi. Bina yandırılan vaxtadək burada Quranın yenicə çap edilmiş 5 min nüsxəsi saxlanılırdı. Onların hamısı yanıb külə dönmüşdü [5].

Mart talanlarında yaxşı təşkil olunmuş hərbi hissələrlə yanaşı erməni ziyalıları, gəncləri də iştirak edirdilər. Təhqiqat Komissiyasının materiallarında göstərilirdi ki, "erməni əhalisinin bütün siniflərini təmsil edən nümayəndələr bu "müharibə"də iştirak etməyi özlərinə borc bilirdilər. Burada neftxudalar, mühəndislər, həkimlər, kontor işçiləri var idi, bir sözlə, erməni əhalisinin bütün təbəqələri öz "vətəndaş borcu"nu yerinə yetirirdi" [6].

"Nikolay Buniatov" paraxodu komandirinin köməkçisi Kazım Axundov yazır: Martın 25-dən Nikolayev küçəsindəki meyitlərin yığışdırılmasına başladıq. Onların arasında süngülərlə didik-didik edilmiş və qılıncla tikə-tikə doğranmış 3 müsəlman gimnaziyaçısının, 11 gimnaziyaçı qızın, 1 rus qadınının, 3-5 yaşlarında 3 müsəlman oğlan uşağının, 8 rus kişinin, 19 İran təbəəli müsəlman qadınının və müxtəlif peşə sahibləri olan 67 azərbaycanlının meyitləri var idi. Bundan başqa, "Vulkan" cəmiyyətinin köhnə yanalma körpüsünə müsəlman kişilərin, qadın və uşaqların 6748 meyiti gətirilmişdi. Axundov öz

tanışı texnik Vladimir Sokolovu "Kərpicxana" deyilən yerə aparmışdı. Burada, o, 3 fotoşəkil çəkmişdi. Birinci şəkildə başında güllə yarası, bədənində beş süngü yarası olan və sağ körpücük sümüyünə qılınc zərbəsi endirilmiş qadın meyiti təsvir olunmuşdur. Onun sağ döşü üstündə hələ sağ olan körpə uzanmışdı. Anasının döşünü əmən bu körpənin ayağında süngü yarası vardı.

İkinci şəkildə iri mismarla divara vurulmuş 2 yaşlı uşaq təsvir edilmişdi. Mismarın başından aydın görünür ki, onu divara daşla vurmuşlar. Daş elə oradaca idi.

Üçüncü şəkildə 13-14 yaşlı qızın meyitidir. Biçarənin bədənindən görünür ki, onu bir dəstə kişi (əgər bu alçaqlara "kişi" demək mümkündürsə) zorlamışdır.

Axundovla Sokolov 4-cü evə daxil olduqda onlar dəhşətli bir mənzərə görmüşdülər: geniş bir otağın döşəməsi üstündə 22-23 yaşlı bir qadının, iki qarının, 9 yaşlı qızın, 8 yaşlı oğlanın və südəmər körpənin meyitləri var idi. Körpənin əl-ayağını itlər gəmirib yemişdi. Təsvir olunan mənzərə Sokolova elə ağır təsir göstərmişdi ki, o daha fotoşəkil çəkə bilməmişdi.

Qədim Azərbaycan şəhəri Şamaxı dəhşətli talan və vəhşiliklərə məruz qalmışdı. Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat materialları toplanmışdı. Burada bədnam S.Lalayevin başçılıq etdiyi əsgərlər və T.Əmirovun dəstəsi azğınlaşaraq müsəlmanları soyub-talayır və qırırdılar. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuşdu. 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq – Cümə məscidi yandırılmışdı. Bu məscid müsəlmanlara həm bir qibləgah, həm də qədim abidə kimi əziz idi. Erməni quldurlar minlərlə dinc adamı qətlə yetirmişdi [7].

Şamaxıda böyük hörmət sahibi olan axund Cəfərquluya olmazın işgəncələr verilmişdi. Ermənilər ona axund olduğu məsciddə dəhşətli əzab-əziyyət verərək, bu allah bəndəsinin saqqalının tüklərini bir-bir yolmuş, dişlərini, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişdilər. Ermənilər axunda pənah gətirmiş saysız-hesabsız qadın və uşağı da öldürmüşdülər. Hacı axundun tamamilə yandırılmış evinin həyətində sonralar Təhqiqat Komissiyasının üzvləri tərəfindən çoxlu miqdarda insan sümükləri aşkar edilmişdi. Qafqaz-İslam ordusu 1918-ci ilin iyulunda Şamaxını ermənilərdən azad edərkən meyitlərin iri sümüklərini yığıb basdırmışdılar. Komissiya üzvləri 1918-ci ilin oktyabr və noyabrında bu barədə hazırladığı məruzədə qeyd edirdilər ki, həyətdə hələ də çürümüş meyitlərin qalıqları qalmaqdadır [8]. Şamaxı qəzasının müsəlmanlar yaşayan təxminən 80 kəndinin taleyi də bu cür olmuşdur. Daşnakların törətdiyi vəhşiliklərin həddi-hüdudu yox idi.

1919-cu il martın 30-da "Azərbaycan" qəzetində Fövqəladə Təhqiqat Komissiyasının "Çağırış"ı dərc edilmişdi. Komissiyanın sədri Ə.Xasməmmədovun imzaladığı bu sənəddə deyilirdi: "Şamaxının yalnız xarabalıqları

qalmışdır. Şəhərin müsəlman hissəsindəki bu xarabalıqlarda məscidlərin ən qədimi 800 ildən çox tarixi olan Cümə məscidinin ancaq yanıb qaralmış minarələri görünür, şəhərin on beş minlik müsəlman əhalisindən sağ qalanlar isə bütün Zaqafqaziyaya dağılmış, əllərində qoltuq ağacı və bellərində torba qapı-qapı düşüb dilənirlər ki, acından ölməsinlər. Adlarını "bolşevik" qoyan qaçaq-quldur dəstələrinin əlindən qaçıb can qurtaran əhalinin qalan hissəsi türk qoşunları Azərbaycana gəldikdən sonra öz el-obalarına qayıtmışdır. Onlar qayıdıb gəldikdə əsrlərdən bəri yaşadıqları ocaqlarını yandırılmış və yerlə-yeksan edilmiş halda görmüşlər".

Fövqəladə Təhqiqat Komissiyasının Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə apardığı təhqiqatlarının-şahid ifadələri, zərərçəkənlərin dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı və əmlaklarının dəyəri haqqında məlumatları, ölən və yaralananların siyahısı və s. - əsasında 53 kənd üzrə tərtib olunmuş yekun aktlarında ayrı-ayrı kəndlər üzrə öldürülənlərin sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdir. Bu aktlarda olan rəqəmlərə əsasən Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 azərbaycanlını qətlə yetirmişlər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur. Bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339.5 milyon manat, Şamaxı şəhərinin azərbaycanlı əhalisinə vurulmuş ziyan orta hesabla bir milyard manatdan çox olmuşdur [9].

"Çağırış" bu sözlərlə qurtarırdı: "Şamaxı qəzasının zərər çəkmiş əhalisinə yardım göstərmək hər bir vətəndaşın, xüsusən müsəlmanın vətəndaş vəzifəsi və mənəvi borcudur. Vətəndaş müsəlmanlar, Şirvanı xilas edin!"

Fövqəladə Təhqiqat Komissiyasının üzvləri - Gəncə quberniyasının Nuxa və Ərəş qəzalarında yoxlama keçirmiş N.Mixaylovun və N.Klassovskinin məruzəsində dəqiqləşdirilmişdir ki, təkcə bu qəzaların erməni dəstələri deyil, həm də başlıca olaraq, gəlmə hərbi hissələr və İrəvan quberniyasının erməniləri müsəlman əhalisini ucdantutma qırmaq, kəndləri dağıtmaq və dövlət hakimiyyət orqanlarını və müsəlman ərazilərini tutmaq üçün bütöv bir plan hazırlamışdılar [10].

Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. Xaçmazda yaşayan ermənilər bu barədə xəbərdar edilmiş, onlara xeyli əlavə silah və sursat göndərilmişdi. Quba qəzasında qırğınlar əvvəlcədən düşünülmüş və buna geniş hazırlıq işləri görülmüşdü. Çünki qırğına başlamaq üçün bəhanə milli münaqişə ola bilərdi. Erməni daşnak qüvvələri dünyanın hər yerinə ermənilərin guya müsəlmanlar tərəfindən sıxışdırıldığı barədə teleqramlar göndərirdilər. Qubada yaşayan M.Kasparov, H. Hayrapetov, A.Mukanyans və A.Boqdanov tərəfindən göndərilmiş teleqramda iddia olunurdu ki, Qubada müsəlmanlar milli ədavət, milli qırğın törədir, erməni və rus kəndlərini dağıdır, kilsələrə od vurub yandırırlar.

Bakıdan böyük bir silahlı dəstə ilə Qubaya gələn Amazasp və onun əlaltıları küçədə qarşılarına çıxan bütün adamları ucdantutma güllləyə tutur, yerə yıxılmış yaralıların bədənlərini tüfənglərin süngüləri ilə deşik-deşik edir, gözlərini ovurdular. Yaxınlıqdakı meşəyə qaça bilməyənlər evlərinə girib qapıları bağlamışdılar. Onları evlərindən zorla çıxarır, yerindəcə güllələyir və yaxud qabaqlarına qatıb meydana aparırdılar. Bir neçə saatın ərzində yüzlərlə insan qətlə yetirildi.

Amazasp Quba camaatını meydana yığıb bildirdi: "Mən minlərlə türkün başını kəsən Ərzurum ermənisiyəm. 200-dən çox türk kəndini yandırıb xaraba qoymuşam. Uzun müddət türklərlə vuruşmuşam, erməni xalqının mənafeyini müdafiə etmişəm. Buraya da ona görə gəlmişəm. Əgər müqavimət göstərsəniz, hamınızı bir nəfər kimi qıracağam". Şahidlərdən biri yazır: "Amazasp daşnak dəstəsinə bələdçilik edən qubalı erməni Harun Hayrapetovu yanına çağırdı və ona nəsə dedi. Harun cibindən bir siyahı çıxarıb oxumağa başladı. Həmin siyahıda Qubanın varlılarından 26 nəfərin adı var idi. Amazasp həmin adamların dalınca silahlı əsgərlərindən bir neçə nəfərini göndərdi. Silahlı əsgərlər həmin ailələrdən altı nəfərlə geri qayıdanda daşnak komandiri daha da qızışdı. Gətirilənlərin 4-ü qadın, 2-si yeniyetmə idi. *Amazaspın tapşırığı ilə yeniyetmələrin başlarını kəsdilər. Qadınları uşaqlarının qanını içməyə məcbur etdilər.* Onlar şivən qoparıb daşnakların üstünə atılanda qarınlarını süngülərlə deşdilər. Sonra qılıncla bədənlərini tən ortadan ikiyə böldülər. Meydanda ahnalə yüksələndə Amazasp əsgərləri cərgə ilə düzdürüb əliyalın, günahsız əhaliyə atəş açmağı onlara əmr etdi. Yüzlərlə adam qırıldı. İnanmaq olmurdu ki, insan-insana qarşı bu qədər vəhşilik törətsin". "Mən sizin qanınızı içəcəyəm"-deyən Amazasp siyahıda adları çəkilən adamların mülklərini odlayıb külə döndərmək üçün əmr verdi. Bütün bu hərəkətləri ilə o, son dərəcə qəddar və qaniçən olduğunu sübuta yetirirdi.

Amazasp Bakıdan mənfur Şaumyan rejimindən belə bir tapşırıq almışdı: Quba qəzasında bütün müsəlmanları qırıb məhv etmək, onların yaşayış məntəqələrini dağıtmaq, sonra isə bu qırğını sünni və şiə məzhəbləri arasında toqquşma kimi qələmə vermək.

Təhqiqat materiallarından məlum olur ki, 1918-ci il mayın 1-də Qubaya girən daşnak-bolşevik birləşmələrinin sayı 5 mindən artıq olmuşdur. Ona görə də onlar silahsız dinc əhaliyə azğınlıqla divan tuta bilmişdilər. Həmin azğınlığın miqyasını təsəvvür etmək üçün iki gün ərzində yalnız Quba şəhərində 4 minədək müsəlmanın öldürüldüyünü xatırlamaq kifayətdir. Bu rəqəm Quba şəhər əhalisinin beşdə biri demək idi.

Qırğının canlı şahidlərindən olan Şahbalı oğlu xatırlayır: "Ermənilər o qədər adam qırmışdılar ki, Qubanın küçələri al-qana boyanmışdı. Əllərinə keçən 2 mindən çox adamı meydana yığıb ucdantutma güllələmək istəyəndə bir nəfər onların başçısına yaxınlaşdı. Deyilənə görə komissar idi. Bir qədər söhbət

etdikdən sonra əsgərlərə təzədən əmr verildi ki, silahları aşağı salsınlar. Qadınlar və uşaqlar ağlayırdılar. Yekəpər bir erməni beş nəfərlə camaata yaxınlaşıb, cavan, gözəgəlimli qadınları seçməyə başladı. Əllidən çox qadını hara isə apardılar. Onlardan birinin qardaşı etirazını bildirəndə yerindəcə güllələdilər. Onun meyidini yerə sərib bıçaqla gözlərini çıxardılar. Əli qana batmış erməni ovcunda tutduğu gözləri camaatın üstünə tulladı. Kütlədən uğultu qopdu. Daşnaklar ermənicə söyə-söyə qabaqdakıları qundaqla döyməyə başladılar. Sonra irəli çıxmış bir yaşlı kişinin qarnını süngü ilə deşdilər. Bu, göz ilə baxılası müsibət deyildi". Başqa bir şahid yazır: Ermənilər dindarları Qubanın mərkəzinə gətirdilər. Bu, döyülən insanlar qəzanın ən hörmətli ağsaqqalları sayılırdılar. Amazasp hamının tanıdığı Quba ermənisi Harunu çağırdı. Harun azərbaycanca dedi ki, sünnilər və şiələr hərəsi bir tərəfə çəkilib üz-üzə dursunlar. Elə o cür də durdular. Aralarında 20-30 metr olardı. Sonra iki tüfəng gətirib dedilər ki, onsuz da sizin hamınızı qıracağıq. Kim sağ qalmaq istəyirsə, dediyimizə əməl etsin. Sünnilər və şiələr növbə ilə bir-birilərinə güllə atsın. Sağ qalanlarla işimiz olmayacaq. Birinci iki nəfəri irəli çıxarıb tüfəngləri onlara verdilər. Biri ləzgi Məhəmməd, o birisi isə şiələrin ağsaqqalı Məşədi Mirsadıq idi. Onların heç biri erməni silahını əlinə almaq istəmirdi. Qundaqla başlarını yarıb onları tüfəng götürməyə məcbur etdilər. İkisi də tüfənglərini qaldırıb bir-birlərini nişan aldı. Hamı məəttəl qalmışdı. Nisbətən cavan olan Məhəmməd heç kimin gözləmədiyi halda geri döndü və bir daşnakı yerə sərdi. Qarışıqlıqdan istifadə edən Məşədi Mirsadıq da bir ermənini öldürdü. Qaçmaq istəyən yüzlərlə adamı pulemyotlarla qırdılar. Ölənlərin çoxu qadınlar və uşaqlar idi. Əvvəlcə Məhəmmədin qollarını kəsdilər, sonra ayaqlarını. Başını kəsib süngüyə keçirdilər və hamı görsün deyə yuxarı qaldırdılar. Məşədi Mirsadığın gözlərini çıxarıb, qollarını sındırdılar və boynunu qırdılar. Həmin gün daşnaklar məscidi dağıdıb, həm sünnilərdən, həm də şiələrdən 20-dən çox din xadimini qətlə yetirdilər". A.Novatski məsələni dəqiqləşdirmək üçün qeyd edir ki, müsəlmanların dini heysiyyətınə toxunaraq, məscidlərə od vurub yandıran daşnaklar təkcə Quba, Qusar və Xaçmaz ərazisində 26 məscidi yandırmışdılar.

Müsəlmanların müqəddəs dini ocaqlarını yerlə yeksan edən daşnaklar dinə, Şərq tarixinə və ədəbiyyatına aid minlərlə qiymətli kitabı də məhv etmişdilər. Qubanın mərkəzində Əbdürrəhim əfəndinin mədrəsəsini yandıran ermənilər buradakı 1300-ə yaxın kitabı tonqala atmışdılar. Hadisələrin canlı şahidlərindən olan nüfuzlu din xadimi İbrahim Aydəmirov xatırlayır ki, "Digah məscidində təxminən 600-700 il əvvələ aid alban və ərəb əlifbası ilə yazılmış kitablar var idi. Ermənilər həmin kitabları məhv etməklə yanaşı, kənd məscidinin təxminən bir kilometrliyində yerləşən müqəddəs pirin daşını da partlatmışdılar. Bu, üstündə alban yazıları olan nəhəng bir daş idi".

Qubada törətdiyi qırğınlardan quduzlaşan Amazasp əliyalın dinc əhaliyə meydan oxuyaraq deyirdi: "Mən erməni xalqının və onun mənafeyinin müdafiəçisiyəm. Mən cəza dəstəsi ilə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülmüş ermənilərə görə sizdən qisas alım. Mən bura qayda-qanun yaratmaq, sovet hakimiyyətini qurmaq üçün deyil, öldürülmüş ermənilərin qisasını almağa göndərilmişəm. Mənə əmr edilmişdir ki, Xəzər dənizindən Şahdağına kimi bu ərazidə yaşayan bütün müsəlmanları məhv edim…" O, daha irəli gedərək deyirdi: "Hazırda mənim Digah və Alpan kəndlərində döyüşlərim gedir. Sonra Üçkün və Kilid kəndlərinə keçərək, Şahdağa çatacağam". Doğrudur, müsəlman qanına susayan Amazaspın arzusu ürəyində qaldı. Üç gün davam edən döyüşlər müsəlmanların qələbəsi ilə başa çatdı. Hər iki tərəf böyük itki verdi. Döyüş yeri tarixə "Qanlı dərə" kimi daxil oldu.

Amazaspın vəhşilikləri nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında üst-üstə 16 mindən çox insan məhv edilmişdir. Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən, qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox azəri türkü və tat əhalisi öldürülmüşdü. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyildir.

Lənkəranda olan "Dikaya diviziya"nı tərksilah etmək üçün dəniz vasitəsilə bolşevik dəstələri göndərilmişdi. Bunların hamısı Erməni Milli Şurasının göstərişi ilə edilirdi. Bolşevik əsgərləri yolda qabaqlarına çıxan müsəlman kəndlərini dağıdıb talayırdılar.Astara bolşevik əsgərləri tərəfindən topa tutularaq darmadağın edildi, əhalinin əksəriyyəti yaşayış yerlərini tərk etməyə məcbur oldu. Xəzər dənizi sahilində Qızılağac ilə Lənkəran arasındakı müsəlman kəndləri "Aleksandr Candar" paroxodu tərəfindən top atəşinə tutuldu. Yanvarda başlanan bu qırğınlar martda daha da şiddət etdi"

Osmanlı qoşunlarının Bakını azad etməsindən bir az əvvəl Lənkərana iki min nəfərlik erməni dəstəsi gələrək yerli əhaliyə divan tutmağa başladı. Onlar müsəlman yeməkxanalarına girib oradakıları təhqir edir, pul verməkdən imtina edir, onları Osmanlı türklərindən qorumaq üçün səngər qazmağa məcbur edirdilər. İş o yerə çatmışdı ki, erməni əsgərləri məhərrəmlik mərasimi verilən məscidlərə girib müsəlmanlara öz təziyələrini keçirtməyə mane olurdular. Müsəlman əhalisi dini ayinlərini icra etmək üçün məscidlərə yığışdıqları zaman ermənilər ora soxularaq müsəlmanları qarət edir, məscidi isə yandırmaq istəyirdilər. Ermənilər bu bölgədə yüzlərlə ev dağıtdılar və minlərlə günahsız insanın həyatına son qoydular. 1918-ci ilin yanvarından 1919-cu ilin avqustunda "Molokan qiyamı" yatırılana qədər bu bölgədə erməni və rus birləşmələri tərəfindən 2 min insanın həyatına son qoyulmuşdu.

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan çəkən Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Daşnak qüvvələrinin təcavüzü nəticəsində bu qəzanın Şuşa ilə əlaqələri tamamilə, Cəbrayıl qəzası ilə

qismən kəsilmişdi. Qəzanın müsəlman əhalisinin vəziyyəti bir də ona görə ağırlaşmışdı ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı bu qəzada general Andranikin erməni əsgərlərindən ibarət yaxşı təşkil olunmuş nizami qoşunları da var idi. Andranik Erməni hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxularaq müsəlman əhalisindən tələb edirdi ki, ya Ermənistan hökumətinə tabe olsunlar ya da qəzanın ərazisini tərk etsinlər. Guya bu ərazi Ermənistan Respublikasına daxildir. Qəzanın çox zəif silahlanmış müsəlman əhalisi Andranikin bu tələblərini rədd etdiyinə görə ermənilər həmin əhaliyə qarşı görünməmiş vəhşiliklər törətdilər.

Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silindiyi qeyd olunur. Dağıdılmış bütün kəndlərin adları bu sənədlərdə sadalanır.

Dağıdılan bu 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdır. Nəticədə təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10068 nəfər azərbaycanlı öldürülüb və ya şikəsi edilmişdir. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşiliklər haqqında tam məlumat vermir. Belə ki, daha çox müsəlman erməni vəhşiliklərini qurbanı olmuşdur. Ancaq o zamankı dəhşətli qarışıqlıq şəraitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır.

Qəzanın Vaqudu kəndində 400-dən yuxarı azərbaycanlı əhali məsciddə sığınacaq tapır və güman edirlər ki, ermənilər müqəddəs yer sayılan məscidə toxunmazlar. Ancaq məscidi mühasirə edən erməni vandalları əvvəlcə məscidə əl bombaları atır, sonra isə ona od vuraraq adamlarla birlikdə yandırırlar. Şəki kəndinin küçələrində iki yerə şaqqalanmış uşaq meyitləri atılıb qalmışdı. İrmişli kəndini talan edərkən ermənilər südəmər uşaqları süngülərə taxaraq göyə qaldırır, öldürülən meyitləri tikə-tikə doğrayırdılar. Aqudi kəndində ermənilər müsəlmanlardan xristianlığı qəbul etməyi tələb edir, bundan imtina edən qadınlara qarşı ən amansız cəza tədbirlərini həyata keçirirdilər.

Çullu kəndində ermənilər yorğan – döşəkdə xəstə yatan 9 nəfər müsəlmanı qılıncla doğramışlar. Bağıbəyli kəndində ermənilər 7 nəfər azərbaycanlını bir evə yığıb evlə birlikdə diri-diri yandırmışlar. Müsəlman meyitlərin əli, ayağı, başı kəsilmiş və o qədər eybəcər hala salınmışdılar ki, həmin əzaların hansı meyitə məxsus olduğunu bilmək olmurdu. Zəngəzur qəzasında 1918-ci il yayın axırları və payızında baş verən bu hadisələr bilavasitə cəllad Andranikin rəhbərliyi altında keçirilmişdir.

Zəngəzur qəzasının 100-dən çox müsəlman kəndi dağıdılmış, on minlərlə iribuynuzlu və yüz minlərlə xırda buynuzlu mal–qara ermənilər tərəfindən sürülüb aparılmış, bağlar, taxıl zəmiləri və otlaq sahələri yandırılmış, dağıdılmış, bir sözlə qəzanın müsəlman əhalisinin iqtisadi vəziyyəti fəlakətli hala salınmışdı. Ermənilər tərəfindən qəzanın Azərbaycanın müxtəlif kəndələrinə qaçıb dağılmış əhalisinə 1 milyard manata yaxın maddi ziyan vurulmuşdur [11].

Erməni millətçilərinin azərbaycanlılara qarşı Zəngəzurdakı vəhşiliklləri 1920-ci ilin əvvələrindədaha amansız bir şəkil aldı. 1920-ci ilin yanvarından Zəngəzurda baş verən bütün hadisələrin bilrvasitə təşkilaçısı məhz Ararat Respublikasının özü idi. Burada da əsas məqsəd Zəngəzur qəzasını tamamilə müsəlmanlardan təmizələyərək Paris sülh konfransı dövlətlərinin əli ilə buranı Ermənistanın tərkibinə daxil etmək idi. Bu təmizləmə əməliyyatlarında erməni quldur dəstələri ilə yanaşı Ararat Respublikasının on mindən yuxarı nizami qoşun dəstələri iştirak edirdi.

Ermənilərin irimiqyaslı hücumları ilə əlaqədar 1920-ci il yanvarından Azərbaycan Respublikasının Parlamentinə, hökumətinə müxtəlif partiya fraksiyalarının rəhbərlərinə Zəngəzurdan çoxlu həyəcanlı xəbərlər daxil olurdu.

1920-ci il yanvarın 21-də Azərbaycan Respublikasının parlamentinin üzvü Cəlil Sultanov tərəfindən Azərbaycan parlamentinə göndərilimiş teleqramda deyilirdi: "Dörd gündür ki, erməni quldur dəstələri nizami ordu ilə birlikdə top və pulemyotların atəşi altında Zəngəzura hücumları davam edir… İtkilər olduqca çoxdur. Əhali vahimə içərisində qaçır və kömək umur… Qəzanın bədbəxt əhalisi adından yalvarıram, kağız üzərindəki etirazlardan fəal hərəkətə keçin. Azərbaycanın ən gözəl guşələrindən birini tamamilə məhv olmaqdan xilas edin. Zəngəzurun ardınca növbə Qarabağındır. Bütün bunların itirilməsi üçün siz Azərbaycan xalqı və Azərbaycan qarşısında cavab verəcəksiniz" [12].

Yanvarın 22-də isə Cəbrayıl məktəbinin nəzarətçisi H.Axundzadə Azərbaycan parlamentinə göndərdiyi teleqramda yazırdı: "Yanvarın 19-da səhərdən erməni silahlı qüvvələri Zəngəzurda Xocahandan Qaladərəsinə kimi ərazidə bütün cəbhə boyu toplardan və pulemyotlardan müsəlman kəndlərini atəşə tuturlar. Altı kənd tamam dağılmış, doqquz kənd isə od içərisində yanır. Ermənilər qadınlara və uşaqlara belə rəhm etmədən qəddarlıqla müsəlmanları qırır, kəndləri dağıdırlar. Müqavimət göstərməyə heç bir qüvvələri olmayan müsəlmanlar bütün əmlaklarını ermənilərə qoyaraq yalnız qaçmaqla canlarını qurtarırlar" [13].

Erməni millətçilərinin Zəngəzurdakı dəhşətli cənayətləri və onlara layiqli cavab verilməməsi–azərbaycanlı əhali arasında ümidsizlik doğururdu. 1920-ci il yanvar ayının 23-də Cəbrayıldan müəllim Hüseyn Axundzadənin vurduğu təkrar teleqramda deyilirdi: "Zəngəzur müsəlmanları tərəfindən başınız sağ olsun. Nə qədər zəngəzurlular ağladılarsa da, nalələri Zəngəzur dağları, dərələri və obalarından kənara çıxmadı. Qarı arvadların namusu təhqir olunmuş, məsum balaların başsız bədənləri qırmızı qanlarına bulaşmış çöllərədə qalıblar. Qızlar və gəlinlər ermənilərin əlinə keçmiş, onların namuslarına təcavüz edilmişdir. Zəngəzurda düşmənə müqavimət göstərən çox az kişi qalıb. Lakin onlar da tam ümidsiz vəziyyətdədirlər. Üzümüzü Azərbaycan dindarlarına çevirir, onları Zəngəzurdakı qardaşlarımızın, bacılarımızın, məsum balaların

məlumanə şəkildə şəhid olmalarına qarşı kömək, kömək deyə yalvarışlarına cavab verməyə çağırırıq" [14].

Cəlil Sultanov yanvarın 23-də hərbi əməliyyat yerindən Parlamentə göndərdiyi üçüncü teleqramında yazırdı: "Zəngəzur qəzası İrəvandan on top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən tamamilə məhv edilmişdir. Vuruşmada iştirak edən nizami erməni ordusunun sayı on minə çatır. Hökumətin köməyinə ümidini itirən əhali bütün Azərbaycan türk xalqına müraciət edir. Aldığımız məlumata görə sabah Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Məqsəd Qarabağ erməniləri ilə birləşməkdir. Nəticədə Naxçıvanla əlaqəni tamam kəsmək, beləliklə də həm Qarabağ və həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir. Artıq kağız üzərindəki etirazlara son qoymaq, iki yüz mindən yuxarı Zəngəzur müsəlman əhalisinin məhvinə gətirib çıxarmış xain ermənilərin iç üzünü açıb dünyaya çatdırmaq vaxtı gəlib çatmışdır. Xahiş edirəm təcili tədbir görün ki, heç olmasa Şuşa və Cəbrayıl qəzaları xilas edilsin. Hər dəqiqə qiymətlidir. Yubanmaq xalq və vətən qarşısında cinəyət və satqınlığa bərabərdir" [15].

1918-ci ilin avqustunda İgdir və Eçmiədzin qəzalarında azərbaycanlıların qırğını Dronun rəhbərliyi altında həyata keçirilirdi. Onun göstərişi ilə bu regionda azərbaycanlıların 60-dan çox kəndi dağıdılmış, yandırılmış, əhalisinə qarşı ən sərt tədbirlər götürülmüşdü.

Çəmbərəkənd (Krasnaselo) rayonunun Ağbulaq, Ardanış, Bəriyabad, Qaraqaya, Əmirxeyir, Yanıqtəpə, Gölkənd (Qaraqoyunlu), Toğluca, Çaykənd, Cıvıxlı, Cil, Şorca və başqa kəndlərə hücum etmiş Andranikin quldur dəstəsi əhalini qırmış, kəndi dağıtmış, xalqın var-dövlətin talan edib aparmış, əhalinin bir qisminə ağır işgəncələr vermiş, qaça bilməyənləri, qocaları, qadın və uşaqları vəhşicəsinə qılıncdan keçirmişdir. Eçmiədzin rayonunda 1918-ci ildə azərbaycanlılar sayca üstünlük təşkil etsələr də, bu rayonun əksər kəndləri ermənilərin vəhşiliyinə, işgəncələrinə məruz qalmışdılar. Rayonun Ayarlı kəndi 1918-ci ildə bütünlüklə soyqırıma məruz qalmışdır. Bu kənddə həmin vaxt 700-dən çox azərbaycanlı yaşayırdı. Onların əksəriyyəti işgəncələrlə qırılmış, salamat qalanlar isə didərgin düşmüş, dağlarda-daşlarda tələf olmuşlar.

İri azərbaycanlı kəndi olan Qarğabazarın 800 nəfərdən çox əhalisi erməni quldur dəstələri tərəfindən işgəncələrlə öldürülmüşdür. Bu kənd talan edilmiş, dağıdılmış, binaları yandırılmışdır.

Qəmərli kəndinin də başına eyni müsibətlər gətirilmişdir. Bu kənddə yaşayan 500 nəfərə yaxın azərbaycanlı əhali erməni silahlı dəstələri tərəfindən qırılmış, bir qismi isə doğma yurd-yuvasını tərk etməyə məcbur olmuşdur.

Eçmiədzin rayonunun Yuxarı Qarxun, Yuxarı Türkmənli, Kiçik Zeyvə, Kürəkənli, Məmmədabad, Molla Dursun, Hacı Qara, Hacılar, Haramlı və başqa kəndlərində yaşayan azərbaycanlıların böyük əksəriyyəti 1918-ci il

qırğınlarında soyqırımına məruz qalaraq doğma yurdlarından başlarını götürərək qaçmışlar.

1918-ci ilin martına qədər İrəvan qəzasının 199 azərbaycanlı kəndi, 1919-cu ilin sentyabr ayına qədər isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndi bütünlüklə yerlə –yeksan edilmişdir. 1919-cu ilin axırında isə Zəngibasarın biri neçə kəndi istisna olunmaqla, İrəvan qəzasının, o cümlədən Vedibasarın bütün kəndləri məhv edilmiş, əhalisi vəhşicəsinə öldürülmüş, sağ qalanlar canlarını xilas edərək başqa yerlərə qaçmışlar. Əhali İrana, Osmanlı dövlətinə və Azərbaycana pənah gətirmişlər.

Quqark rayonunun Vartanlı kəndində isə faciə belə başladı: Aprel ayının ortalarında iclas keçirmək adı altında azərbaycanlıları bir komaya yığırlar. Təxminən 1200-1500 adam bu komaya toplaşır. Keşiş Vahan iclası açır, bir neçə kəlmə ilə bu iki xalqın bir kənddə mehriban yaşaması haqqında fikir söyləyir. Bir qədər sonra silahlı ermənilər içəri daxıl olub keşişi bayıra çıxarır, komanın qapısını bağlayaraq damından içəriyə saman qarışıq neft töküb camaatı yandırmağa başlayırlar. Uşaq, qoca, qadın qışqırtısı ərşə dayanır, tüstüdən boğulanlar, özlərini itirənlər qapıya hücum çəkirlər. Əliyalın xalqın müqaviməti nəticəsiz qalır.

Yerevan şəhərinin şimal – şərqində yerləşən Kotayk rayonu ərazisində də 1918-ci ildə erməni quldur dəstələri azərbaycanlılara qarşı geniş soyqırımı həyata keçirtdilər. 1918-ci ilin məlum hadisələrinə qədər bu rayonda yaşayan əhali arasında azərbaycanlılar üstunluk təşkil edirdi. Lakin həmin dövrdə rayonun Avdallar, Artiz, Aşağı Qaxt, Başkənd, Bozkosa, Qayaxaraba, Qaraçala, Qaraçörək, Qızqala, Qurbağalı, Damagirməz, Dəlləkli, Əkərək, Zər, Yelqovan, Yellicə, Kamal, Kənxan, Kərpicli, Küzəcik, Göykilsə, Güllücə, Nurnus, Oxçu qalası, Təzəxarab, Çobangörükməz və s. kəndlərindən azərbaycanlı əhali böyük işgəncələrlə qovulmuşdur. Onların əksəriyyəti Andranikin və daşnak hökumətinin silahlı erməni dəstələri tərəfindən öldürülmüşdür. 1920-ci ilin aprelində "Azərbaycan" qəzeti yazırdı: "Artıq Göyçə mahalında müsəlman qalmayıb. Hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22 kənd apreldə dağıdılmışdır. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Aşağı Şorca, Soğanqulu-ağalı, Ağkilsə, Zod, Qulu, Ağalı, B.Qaraqoyunlu, K.Qaraqoyunlu, Zərzibil, Ədli, İnəkdağ, Qaraiman, Kəsəmən, Başkənd, Bala Məzrə, Şişqaya, Baş Hacı, Qəribqaya kəndlərinin 15 mindən artıq evi olan əhalisi bütün malı, dövləti başlı – başına buraxıb qaçmışdır. Bütün bu var-dövlət hazırda ermənilərə qalıb, qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlar qədərdir".

Andranikin quldur qoşununun və daşnakların 1918-1920-ci illərdə azərbaycanlılara qarşı apardıqları soyqırımı nəticəsində indiki Ermənistan ərazisində, yəni Qərbi Azərbaycan torpaqlarında yaşayan əhalinin çox böyük hissəsi, təxminən 565 min nəfəri vəhşicəsinə qırılmış, yaxud öz dədə–baba

torpaqlarından qovulmuş, didərgin salınmışdır. Erməni müəllifləri özləri bu faktı təsdiq edirlər. Tarixçi Z. Korkodyan "Sovet Ermənistanının əhalisi 1831-1931-ci illər" kitabında göstərir ki, 1920-ci ildə Ermənistanda Sovet hökuməti qurularkən bu ərazidə 10 min nəfərdən bir qədər çox türk azərbaycanlı qalmışdı. 1918-ci ildə "İrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində (İrəvan) və onun çevrəsində 88 kənd dağılmış, 1920 ev yandırılmış, 132 min azərbyacanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdir. 1920-ci il aprelin 27-də XI Qırmızı Ordunun Bakını, sonra isə Azərbaycanın bütün bölgələrini işğal etməsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin gördüyü tədbirləri başa çatdırmağa imkan vermədi. Ermənistan sovetləşən Zəngəzur qəzası daxil olmaqla həmin ərazilər Sovet Ermənistanına bağışlandı. Beləliklə, 1918-1920-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qətllər və kütləvi insan qırğını təsadüfi hadisə deyil, "Daşnaksütyun" partiyasının "Böyük Ermənistan" yaratmaq planını reallaşdırmaq yolunda atılan addım və soyqırımı siyasəti olmuşdur.

Xalqımıza qarşı 1918-ci ildə törədilən mart soyqırımı kimi faciəli bir tariximizin saxtalaşdırılması və ört-basdır edilməsini təkcə tarixi bir anın unudulması kimi qəbul etmək olmaz. Mart hadisələrinin saxtalaşdırılması xalqımıza qarşı tarixən düşmən münasibət bəsləyən erməni xislətinin gizlədilməsi oldu. Bu isə özlüyündə XX əsr tariximizdə yeni-yeni qanlı səhifələrin açılmasına gətirib çıxartdı ki, bunlardan aşağıdakılara diqqəti cəlb etmək yerinə düşər:

- 1920-ci ilin aprel işğalı ilə Azərbaycan Milli hökuməti devrildi, bolşevik bayrağı altında ermənilər Azərbaycanda faktiki olaraq ikinci dəfə hakimiyyəti ələ keçirdilər. Nəticədə respublikada nəinki ziyalılara, hətta milli baxışlı kommunistlərə də divan tutuldu, milli adət-ənənələrimiz ayaq altına atıldı, bütün bu işlərin icraçıları ermənilər oldu.
- bu gün müstəqil Azərbaycanın ən ağır probleminə və xalqın ən ağır dərdinə çevrilən Qarabağ məsələsinin əsası 20-ci illərdə qoyuldu.
- bolşevik cildinə girən daşnaklar Zəngəzur torpaqlarını zorla Azərbaycandan qoparmağa nail oldular.
- otuzuncu illərin repressiyalarında erməni xisləti üçün yaranmış fürsətdən məharətlə istifadə edildi.
- 1947-53-cü illərdə yüz minlərlə soydaşımız öz ata-baba torpaqlarından (Qərbi Azərbaycan) didərgin salındı.

- 1990-cı ilin yanvar faciəsi, 1992-ci ilin fevralında Xocalı soyqırımı, 1992-ci ildən başlayaraq Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, ümumiyyətlə, 20 faiz torpaq itkisi erməni məkrinin, ən əsası isə mart soyqırımının unudulmasının bilavasitə nəticəsidir.

- 1918-ci ilin martında erməni vəhşiliyindən canını qurtarıb Bakını tərk edən soydaşlarımızın qaçqın həyatı qan yaddaşımıza həkk olunsaydı, fikrimizcə, bu gün biz bir milyon insanı qaçqınlıq taleyini yaşamağa məcbur edən erməni məkri qarşısında aciz qalmazdıq.

Nəhayət, Ü.Hacıbəyovun 1919-cu ildə mart soyqırımının ildönümü ilə əlaqədar yazdığı "31 mart" adlı məqaləsindən bu gün üçün də aktuallığını saxlayan bir fikri xatırlamaq yerinə düşər: "Bu günkü vəzifəmiz o qara günləri yaddan çıxarmamaq və buna görə də həmişə və hər an hər şeyə hazır olmalıyıq. Borcumuz bu vətəni gələcəkdə hər cür təcavüzdən qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır".

## ƏDƏBİYYAT


1. ARDA, f.1061, siy.1, iş 95, vər.2.
2. ARDSPİHA, f.277, siy.2, iş 16, vər.20.
3. ARDSPİHA, f.277, siy.2, iş 16, vər.18.
4. ARDSPİHA, f.277, siy.2, iş 13-16, vər.25-26.
5. ARDSPİHA, f.277, siy.2, iş 16, vər.18.
6. ARDA, f.100, siy.2, iş 791, vər.791.
7. ARDA, f.1061, siy.1, iş 108, vər.8-10.
8. ARDSPİHA, f.277, siy.2, iş 16, vər.18.
9. ARDA, f.1061, siy.2, iş 85, 87,100.
10. ARDSPİHA, f.277, siy.2, iş 16, vər.46.
11. ARDA: f.894, siy. 4, iş 65.
12. ARDA: f. 895, siy. 1, iş 299, vər.20.
13. ARDA: f.895, siy. 1, iş 299, vər. 31-33.
14. ARDA: f. 895, siy. 1, iş 299, vər. 8-12.
15. ARDA: f. 895, siy. 1, iş 299, vər. 18, 22, 26.

**94(479.242)**

# 1914-1921-Cİ İLLƏRDƏ ŞƏRQİ ANADOLUDA VƏ NAXÇIVANDA ERMƏNİ MİLLƏTÇİLƏRİNİN TÖRƏDİYİ QƏTLİAMLAR

***Abbas Seyidov***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*abbas.seyidov@gmail.com*

**Açar sözlər:** *soyqırım, Naxçıvan, Şərqi Anadolu, ermıni faşizmi, Van*

1914-1921-ci illər arası Şərqi Anadolu və Naxçıvan ərazisində erməni millətçiləri planlı və məqsədyönlü şəkildə soyqırımı siyasəti həyata keçiriblər. Bu da günahsız türk-müsəlman əhalinin kütləvi məhvinə səbəb olub. 1804-1813 və 1826-1828-ci illər Rusiya-İran, 1806-1812 və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrində rusların qələbəsindən sonra Cənubi Qafqaza – Azərbaycan ərazilərinə İrandan 40 min, Türkiyədən 84 min erməni rəsmi şəkildə köçürülür. Şərqi Anadoluda (1914-1918-ci illər), Naxçıvan, Şərur və Dərələyəzdə (1917-1921-ci illər) on minlərlə günahsız türk-müsəlman əhali qətlə yetirilir. 1918-1920-ci illərdə Şərur və Sədərək bölgəsində 2.286 ev yerlə yeksan olunur, 7.178 nəfər evsiz qalır, 6.740 nəfər aclıqdan məhv olur, 169.250 qoyun, 47.367 baş qaramal ermənilər tərəfindən aparılır. Dərələyəz bölgəsində 54 kənd dağıdılır və bölgədə öldürülən insanların sayı 64.408 nəfərə çatır. Bunlar türk-müsəlman əhaliyə qarşı amansız soyqırımı idi.

# THE MASSACRES ARRANGED BY ARMENIAN NATIONALISTS IN EASTERN ANATOLIA AND NAKHCHIVAN IN 1914-1921

***Abbas Seyidov***

**Keywords:** *genocide, Nakhchivan, East Anatolia, Armenian fascism, Van*

On the territory of Eastern Anatolia and Nakhchivan between 1914 and 1921, Armenian nationalists carried out a planned and purposeful policy of genocide. This led to the mass destruction of the innocent Turkic-Muslim population. After the victory of Russian in the Russo-Persian wars of 1804-1813 and 1826-1828, as well as in Russo-Turkish wars of 1806-1812 and 1828-1829, 40 thousand Armenians from Iran and 84 thousand from Turkey were officially transferred to the South Caucasus – Azerbaijan. Dozens of thousands

of innocent Turkic-Muslims were killed in Eastern Anatolia (1914-1918) and Nakhchivan, Sharur-Daralayaz (1917-1921). In 1918-1920, 2286 houses were destroyed by Armenians, 7,178 people left without a home, 6,740 starved to death, 169,250 sheep and 47,367 cows were captured in Sharur and Sadarak. In Daralayaz, 54 villages were destroyed, 64 408 people were murdered in the region. It was a brutal genocide against the Turkic-Muslim population.

## РЕЗНЯ, УСТРОЕННАЯ АРМЯНСКИМИ НАЦИОНАЛИСТАМИ В ВОСТОЧНОЙ АНАТОЛИИ И НАХЧЫВАНЕ В 1914-1921 гг.

***Аббас Сеидов***

**Ключевые слова:** *геноцид, Нахчыван, Восточная Анатолия, армянский фашизм, Ван*

На территории Восточной Анатолии и Нахчывана между 1914 и 1921 годами армянские националисты проводили запланированную и целенаправленную политику геноцида. Это привело к массовому уничтожению невинного турецко-мусульманского населения. После победы русских в русско-иранских войнах 1804-1813 и 1826-1828, как и в русско-турецких войнах 1806-1812 и 1828-1829, на Южный Кавказ – территории Азербайджана были официально переселены армяне численностью 40 тыс. из Ирана и 84 тыс. из Турции. На территории Восточной Анатолии (1914-1918) и Нахчывана, Шаруp-Дерелеяз (1917-1921) погибли десятки тысяч невинных тюрок-мусульман. В 1918-1920 гг. в Шаруре и Садараке было разрушено 2286 домов, 7178 человек остались без жилища, 6740 человек умерли с голоду, 169.250 овец и 47.367 крупнорогатого скота похищено армянами. В Дерелеязе было уничтожено 54 деревни, 64.408 человек убито в регионе. Это было жестоким геноцидом против тюрко-мусульманского населения.

1914-1921-ci illər arası Şərqi Anadolu və Naxçıvan ərazisində erməni millətçilərinin planlı və məqsədyönlü şəkildə həyata keçirdikləri soyqırımı siyasətindən doğan qətliamın həddi-hüdudu olmayıb. Ermənilər böyük güclərə arxalanaraq, onlardan aldığı dəstək sayəsində dinc, günahsz türk-müsəlman əhalinin kütləvi məhvinə imza atmışlar. Bir qədər əvvəlki tarixlərə müraciət etdikdə şahidi oluruq ki, hələ XVIII əsrin sonu - XIX əsrin əvvəlindən başlayaraq çar Rusiyası Yaxın Şərq siyasətinin uğurlu alınması, Ön və Kiçik Asiyaya - xüsusən də Türkiyə və İrana öz təsirini göstərmək üçün “erməni

amili"ndən həmişə siyasi alət kimi istifadə edib. 1804-1813 və 1826-1828-ci illər Rusiya-İran, 1806-1812 və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrində rusların qələbə çalması, Gülüstan və Türkmənçay sülh müqavilələrindən sonra Cənubi Qafqaza – Azərbaycan ərazilərinə İrandan 40 min, Türkiyədən 84 min ermənin rəsmi şəkildə köçürülməsi (qeyri-rəsmi gələnlərlə birlikdə 200 min), onların ən yaxşı və münbit torpaqlarla təmin olunması, I Nikolayın 21 mart 1828-ci il tarixli fərmanı ilə "erməni vilayəti"nin yaradılması bugünkü faciələrin əsasının məhz o dövrdən qoyulduğunu göstərir.

Uydurma "Böyük Ermənistan" xülyaları ilə yaşayan, bu düşüncədən doğan etnik təmizləmə və soyqırımı həyata keçirmək siyasətində bulanan ermənilərin əsas niyyəti öz tarixi torpaqlarında yaşayan türk-müsəlman əhalinin planlı surətdə doğma yurdlarından qovulmasına, Şərqi Anadolunun Qars, Kağızman, İğdır, Bayburt, Ərzurum, Muş, Trabzon (1914-1918-ci illər) və Naxçıvan, Şərur, Dərələyəz ərazisində (1917-1921-ci illər) on minlərlə günahsız türk-müsəlman əhalinin qətlinə səbəb olur.

Hələ "Daşnaksütyun" partiyasının əli ilə ermənilər 1905-1906-cı illərdə Bakı, Gəncə, Qarabağ, İrəvan, Naxçıvan, Ordubad, Şərur-Dərələyəz, Tiflis, Zəngəzur, İğdır-Sürməli, Qazax və digər yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhalini amansızlıqla qətlə yetirmiş, şəhər və kəndləri yandıraraq dağıtmışlar. Bu, artıq iki xalq arasında böyük faciələrə səbəb olacaq bir proqramın "baş məşqi" idi. Hadisələrdən sonra erməni millətçiləri gələcək planlarını həyata keçirmək üçün fürsət axtararaq, gizli şəkildə təşkilatlanmağa və silahlanmağa başlayırlar. Bu illərdə erməni silahlı dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqəsini viran qoymuş, on minlərlə soydaşımız öz doğma yurdundan qaçqın və məcburi köçkün düşmüşdür [1, s.14]. Ermənilər 200 mindən artıq azərbaycanlını (uşaq, qadın, qoca) fərq qoymadan qətlə yetirmişlər [2, s.9]. Yuxarıda sadalananlar gələcək daha böyük faciələrə aparan yolun başlanğıcı idi.

Görkəmli yazıçı və ictimai xadim, o dövrün hadisələrini qələmə alan M.S.Ordubadi yazır ki, baş vermiş iştişaş və faciələrə səbəb dörd şeydir: "Birinci səbəb, erməni Daşnaksütyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı terrorlar oynadı..., ikinci səbəb, məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. Böyük Rusiya inqilabına görə mərkəzi hökumətin başı özünə qarışdığından, xırda məmurlar özbaşınalığa üz qoyub, erməni-müsəlman iğtişaşlarının sakitləşməsi üçün bir tədbirdə bulanmadılar. Bulundularsa da, ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxlayıb, digər tərəfə növbənöv vicdansızlıqlar etməkdə idilər... üçüncü səbəb və iğtişaşa gəldikdə, müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır. Müsəlmanlar elm və siyasətdən bixəbər olduqlarından hökumət məmurlarının Qafqazda tutduğu əqidəsini və

ermənilərin o əqidədən necə istifadə etdiklərini düşünmədilər... dördüncü səbəb, ermənilərin avtonomiya-idarə muxtariyyəti həvəsində olmalarıdır. Bu səbəbiyyəti isbat üçün qələmə bir o qədər də güc sərf etmək lazım deyil. Zira, ermənilərin hər aybaşı Londona, Parisə, Amerikaya qaçıb ərzi-hal etmələri bunlara kamil bir sübutdur...” [3, s.155-158].

Bu hadisələrdən 15 il əvvəl – 1890-cı ildə Qafqazda olmuş Verner fon Simens “Qafqaz səyahətləri” kitabında yazır: “...az cəsarətli olan ermənilər Qafqazda ümumən yaman çoxbilmiş və fərasətli iş adamları kimi tanınırlar... Təxminən 25 il bundan əvvəl şəhərin (Tiflis – A.S) hələ gürcü görkəmi var idi...şəhər administrasiyası gürcülərin əlində idi. Amma hələ o vaxtlar ermənilik yayılmağa başladı və tədricən mülkiyyət ermənilərin əlinə keçdi... Rusların hökmranlığı ilə...erməni elementi qarşısıalınmaz şəkildə yüksəldi, gürcü elementi isə geri çəkilməli oldu. İndi belə demək olar ki, bütün şəhər mülkiyyəti erməniləşib. Qürurlu, bəzəkli silahları ilə gözqamaşdıran gürcü simaları Tiflis küçələrində daha gözə dəymirlər, erməni onların saraylarında yaşayır və bu gün şəhərin ağasıdır” [4, s.32,60]. Fikrimizcə, əlavə şərhə ehtiyac yoxdur.

Birinci Dünya müharibəsinin başlanması ilə bu hadisələr daha açıq şəkildə həyata keçirilməyə başladı. Çünki müharibə pərdəsi altında ermənilər öz planlarını daha fəal və acgözlüklə həyata keçirməyə başladılar. 1914-cü il noyabrın 1-də çar Rusiyasına məxsus ordu Osmanlı dövlətinin sərhədlərini keçir. Rusiya ordusunun tərkibində 160 mindən artıq silahlı, təlim görmüş erməni Şərqi Anadolu ərazisində qətliamlara başlayır. Ölümdən canını qurtarıb sağ qalan, əliyalın türklər ev-eşiyindən didərgin düşür. Şərqi Anadoluda yaşayan azsaylı ermənilər və ruslara arxalanaraq, onlarla birlikdə əli silahlı gələnlər heç bir günahı olmayan yerli türk əhaliyə qarşı misli görünməmiş azğınlıqlar edirlər. Öldürülənlərin və ev-eşiyini qoyub məcburiyyət qarşısında qaçıb canını qurtaranların torpağında 1915-ci ilin mayında “Van Respublikası” adlı erməni dövlətinin yarandığı elan edilir. “Daşnaksütyun” bütün könüllü erməniləri xəbərdar edərək bildirir ki, ruslardan alınmış silahları qətiyyən geri qaytarmaq olmaz. Əks təqdirdə rus hökumətinə qarşı döyüşmək lazım olacaqdır. 1915-ci ilin iyul ayında Osmanlı ordusunun zərbələrinə davam gətirə bilməyən “Van Respublikası” çökür [5, s.142-143].

Rus qoşunları 18 may 1915-ci ildə Vanı, 05 mart 1916-cı ildə isə Bitlisi işğal edirlər. Ruslarla birlikdə hərəkət edən ermənilər 2-3 min insanı qətlə yetirdikdən sonra, on minlərlə əliyalın kəndli mal-mülkünü, torpaqlarını qoyub qaçmaqla canlarını qurtarır [6, s.543]. Qars vilayətində erməni talanları daha böyük miqyasda olur. 80-dən artıq kənd təsəvvürə gəlməyəcək dərəcədə yandırılır. Erməni cəlladları körpə uşaqları süngülərə keçirib gedəcəkləri yolun sağına və soluna düzərək, onların arasından keçməklə, bundan zövq alırdılar [7,s.559-560]. Ruslar 1916-cı il fevralın 16-da Ərzurumu, martın 6-da Rizeni, martın 15-də Tərcanı, martın 26-da isə Of şəhərini tutub, Bayburta həmlə

edirlər (Şəkil 1). Təxminən 3 ay davam edən Kop dağı müdafiəsində 9700 türk şəhid olur (yerli milis qüvvələri xaric), 15000-i isə yaralanır [8, s.71-75]. İrəliləyən rus ordusu 16 iyul 1916-cı il tarixdə Bayburt şəhərini işğal edir. Verilən məlumatlara görə, Bayburt əhalisinin yarıdan çoxu işğaldan öncə köç etmişdi. 18 ay – 1918-ci ilin 20 yanvarına qədər işğalda olan şəhərdən ruslar çıxan zaman hakimiyyəti ermənilərə verirlər. Bir ay burada erməni ağalığı hökm sürür [9, s.11].

1917-ci ilin sonlarında Şərqi Anadolunu tərk etmək əmri alan ruslar ermənilərə deyirdilər: "Bu torpaqlar sizindir, türklərə verməyin, biz qayıdacağıq". Ruslar çıxdıqdan sonra, qeyd etdiyimiz kimi, ermənilər burada bir ay davam gətirə bilmirlər. Ərzincanda Andranikin törətdiyi qətliamları təkrar edən Arşak adlı birisi özünü "erməni xalqının qəhrəmanı" adlandırırdı [10, s.572-573]. Bu sözlər 1918-ci ildə Quba istiqamətində hərəkət edən Hamazaspın dediyi "mən erməni xalqının qəhrəmanıyam və onun mənafeyinin müdafiəçisiyəm" [11, s.10] ifadəsi ilə necə də üst-üstə düşür. Söz yox ki, bunlar eyni mərkəzdən idarə olunan erməni faşizminin tərkib hissəsidir. 1917-ci ilin sonlarında cəbhədən geri dönən ermənilərə bildirilir ki, Türkiyə ərazisi Rusiya torpağı deyil. Şərqi Anadoluda törədilən əməlləri Cənubi Qafqazda həyata keçirməklə ərazini azərbaycanlılardan təmizlədikdən sonra, onlar üçün boşaldılan torpaqlar hesabına erməni dövlətinin yaradılmasına söz verilir. Osmanlı qoşunları qarşısında dayanıq göstərə bilməyən daşnak hərbi birləşmələri məkanı dəyişərək Azərbaycan torpaqlarında günahsız əhaliyə qarşı qırğınlara başlayırlar ki, məqsəd Cənubi Qafqazda erməni dövləti yaratmaq və onu qonşu dövlətlərin torpaqları hesabına genişləndirməkdən ibarət olur [12, s.10-11].

Bu hadisələr Naxçıvan diyarından da yan keçmir. 1917-1921-ci illərdə Naxçıvan əhalisi böyük çətinliklərlə üzləşir. Naxçıvan bu dövrdə ABŞ, İngiltərə, Rusiya, Türkiyə kimi dövlətlərin maraq dairəsində idi. İrəvanın güzəştə gedilməsindən sonra (29 may, 1918) erməni millətçiləri Naxçıvan, Zəngəzur və Qarabağın da onlara verilməsi üçün eyni ssenarini tətbiq edirdilər. Onlar Azərbaycan torpaqlarında əhalini qırmaq, qorxu yaradaraq ərazini boşaltmaq və bu torpaqların hesabına erməni dövləti yaratmaq uğrunda mübarizə aparırdılar. Böyük dövlətlərdən silah və maddi kömək alan daşnaklar Şərur, Sədərək və Zəngəzurun Naxçıvana birləşən hissələrində kütləvi soyqırımı həyata keçirirdilər. Tarixi mənbələrdə göstərildiyi kimi, təkcə bir gün ərzində Naxçıvan və Şərurda 45 kənd tamamilə məhv edilmişdi [13, s.50]. Bu soyqırımı nəticəsində Naxçıvan, Şərur, Dərələyəz mahalında aclıqdan və erməni millətçiləri tərəfindən öldürülən insanların sayı 64.500-ə yaxın olub.

1918-1920-ci illərdə Naxçıvanın ərazi bütövlüyünün qorunmasında Behbud ağa Şahtaxtinskinin böyük əməyi olub. O, Azərbaycanda sovet quruluşu formalaşandan sonra bir sıra vəzifələrdə - hökumət sədrinin müavini, xalq ədliyyə komissarı, Naxçıvan Xalq Komissarları Sovetinin sədri, Azərbaycan

Xalq Fəhlə-Kəndli Müfəttişliyinin komissarı vəzifələrində çalışıb. B.Şahtaxtinski 1918-1921-ci illərdə ermənilərin Azərbaycana, o cümlədən Naxçıvana dair əsassız ərazi iddialarının aradan qaldırılması üçün Rusiya hökumət rəhbərlərinə ünvanlandığı məktublarında Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Azərbaycan ərazisi olması barədə konkret təkliflər verib. Uzun müzakirələrdən sonra bu təkliflər nəzərə alınıb. B.Şahtaxtinski 1919-cu ildə yazdığı məktublarından birində İrəvan, Zəngəzur, Vedibasar və Dərələyəzdən qovulmuş 500 mindən artıq qaçqının 39.005 nəfərinin bu əraziyə gəlməsini, onların acınacaqlı vəziyyətini göstərib [14, s.16]. 1920-ci il avqustun 10-da RSFSR ilə Ermənistanın daşnak hökuməti arasında bağlanan müqavilədə Naxçıvan, Qarabağ, Zəngəzur qəzası RSFSR qoşunları tərəfindən tutulurdu. B.Şahtaxtinski tərəfindən V.İ.Leninə və G.Çiçerinə göndərilən 13 avqust 1920-ci il tarixli teleqramlarda buna qəti etiraz bildirilir [14, s.20]. Həmin müqavilənin 3-cü bəndinə əsasən oktyabrın 28-də İrəvanda Sovet Rusiyasının səlahiyyətli nümayəndəsi B.Leqranın daşnak hökuməti ilə bağladığı müqaviləyə görə Naxçıvan və Zəngəzur Ermənistana verilirdi [15, s.728]. Baxmayaraq ki, Mərkəzin təkidi ilə 01 dekabr 1920-ci il tarixdə Azərbaycan Hərbi İnqilab Komitəsinin bəyanatında Naxçıvan və Zəngəzurun Ermənistana verildiyi elan edilmişdi [16, s.46-47]. B.Şahtaxtinskinin səyi nəticəsində 1921-ci ilin yanvarında Azərbaycan SSR, Ermənistan SSR və RSFSR-in nümayəndələrinin Naxçıvanda keçirdiyi rəy sorğusunun nəticələri göstərir ki, əhalinin 90 faizindən çoxu mahalın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasını istəyir [17].

Bu dövrdə Naxçıvan diyarının müdafiəsi üçün sakinlərdən ibarət yaradılmış könüllülər dəstəsinə (partizan dəstəsi) Cəfərqulu xanın böyük oğlu Kalbalı xan Naxçıvanski rəhbərlik edirdi. Daşnak hücumlarına qarşı döyüş meydanlarında göstərdiyi cəsarətə görə AXC hökuməti tərəfindən general-mayor rütbəsi ilə təltif edilən Kalbalı xan Naxçıvanskinin şücaəti nəticəsində Naxçıvan ətrafında erməni birləşmələri dəfələrlə darmadağın edilmişdi.

Bu illərdə unudulmuş ucqar bir diyar, sonra sovet əyaləti olan Naxçıvana aid sənədlərlə tanış olduqca insanın qəlbindən qara qanlar axır. Rudolf İvanovun kitabında Naxçıvan Diyarı İnqilab Komitəsinin sədri Qədimovun Tiflisə - S.Orconikidzeyə 23 mart və 05 may 1921-ci il tarixlərdə vurduğu iki teleqramın mətnindən diyarın əhalisinin yaşam tərzinin necə olduğu açıq-aydın görünür: “On minlərlə günahsız zəhmətkeşin qanının töküldüyü Naxçıvan diyarı daşnakların...siyasi milli avantüraları nəticəsində hal-hazırda başdan-ayağa xarabalıqlardan ibarətdir. Diyarın çörək zolağı olan Şərurda daşnaklar taxıl məhsulunu yığıb aparmışlar...Bu respublikada elə bir guşə yoxdur ki, acından ölən kəndlinin insanın qəlbini sızladan son ümidsizlik iniltiləri eşidilməsin. Ancaq bununla belə, bu zəhmətkeş ünsürün cəsədini tapdalayıb, Naxçıvan diyarı ərazisindən keçərək, İrandan Ermənistana on

minlərlə pud buğda daşıyırlar...Hazırda rayonda çörək böhranı apogey həddinə çatıb. İnsanlar əllərinə düşəni – at, pişik, it və s. yeyir, açıq səma altında yaşayırlar. Onların təbii təhlükələrdən, çox az sayda qalmış mal-qaralarını oğurlayıb aparan İran qaçaq-quldurlarının hücumlarından qorunmaq imkanları yoxdur. Elə bir guşə yoxdur ki, orada insanın qəlbini sızladan ümidsizlik çığırtısı eşidilməsin...” [16, s.60-63].

1919-cu ildə Naxçıvan ərazisində iki aylıq erməni idarəçiliyi tətbiq edilir ki, bundan ruhlanan ermənilər daha çox soyqırımı törədirlər. Naxçıvanı Ararat Respublikasına birləşdirməyə can atan daşnaklar öz arzularına çatmaq üçün dinc əhalini diri-diri yandırır, torpağa basdırır, canlı adamları vəhşicəsinə balta ilə doğrayır, insanları qətlə yetirib, Araz çayına tökürdülər. 1918-1920-ci illərdə Şərur və Sədərək bölgəsində 56 kənddə 428 nəfər qətlə yetirilmiş, 2.286 ev yerlə yeksan olunmuş, 7.178 nəfər evsiz-eşiksiz qalmış, 6.740 nəfər səfalətdən məhv olmuş, 24 qadın təcavüzün qurbanı olmuş, 3.971.200 pud ərzaq, 731.500 pud pampıq, 169.250 qoyun, 47.367 baş qaramal ermənilər tərəfindən aparılmışdır. Dərələyəz bölgəsində isə 54 kənd dağıdılmış, 57.240 nəfər qətlə yetirilmişdir ki, öldürülən insanların sayı 64.408 nəfərə çatmışdı [13, s.51-52].

1918–ci ilin noyabr-1919-cu ilin mart tarixləri arasında Naxçıvandan İğdıra qədər olan geniş ərazidə yaradılan Araz-Türk Respublikası erməni hücumlarının qarşısının alınmasında, Naxçıvan diyarının Azərbaycanla birləşməsi, AXC-nin ərazi bütövlüyünün qorunması istiqamətində əhəmiyyətli rol oynayır. 1919-cu ilin martında Naxçıvana gələn ingilis generalı Devi Naxçıvan və Şərur qəzasının ermənilərə verilməsini istəyir. Həmin ilin sentyabrında Naxçıvanda yaradılan Amerika general-qubernatorluğunun da məqsədi eyni olur. 1920-ci ilin yanvarında ermənilərin Naxçıvana hücumu zamanı AXC hökuməti çətin durumda olduğundan, Naxçıvan əhalisi Türkiyəyə müraciət edir. 1920-ci ilin mart ayında türk qüvvələri ilə birləşən özünümüdafiə dəstələri daşnakları Naxçıvandan qovmağa müvəffəq olurlar.

“Böyük Ermənistan” ideyası bu gün də erməni millətçilərinin ən şirin xəyallarından biridir. Erməni xalqı arasında da bu ideyadan zərər çəkənlər olmamış deyil. Ermənilər hər açılan gün öz tarixlərinə “yeniliklər” gətirməkdən yorulmurlar. R.Hüseynzadənin yazdığı kimi, bu günlərə qədər tarixdə “mövcud olmuş 32 erməni dövləti”nə “gərgin axtarışlardan” sonra “33-cü” əlavə olunub (Gürcüstan Ermənistanı) [18, s.27]. Qəribədir. Ona görə ki, bunlar “dənizdən-dənizə” olan arzuları haqda düşünərkən heç fərqinə varırlarmı ki, Qara dənizdən Xəzər dənizinə, Azov dənizindən Aralıq dənizinə qədər olan ərazidə on minlərlə şəhər, kənd, qəsəbə və digər yaşayış məskəni mövcuddur. Belə çıxır ki, əgər dünyada yaşayan bütün ermənilər yığışıb bura köçsə belə, hər yaşayış məskəninə bir neçə nəfər düşər.

Araşdırmalar göstərir ki, ümumiyyətlə, dünya tarixində erməni millətçilərinin törətdiyi soyqırımı hadisələrinə bənzər olayların bənzərinə çox az rast gəlinir. Bu soyqırımları öncədən düşünülmüş və planlı şəkildə həyata keçirilən hadisələrin bir mərkəzdən idarə olunan tərkib hissəsindən ibarətdir.

## ƏDƏBİYYAT

1. Azərbaycanlıların soyqırımı haqqında (8 dildə). Bakı, 1998, 120 s.

2. Həsənov Ə.M. Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri, Bakı, "Zərdabi LTD", 2016, 80 s.

3. Ordubadi M.S. Həyatım və mühitim (toplayanı, tərtib edəni, çapa hazırlayanı və ön sözün müəllifi akademik İ. Həbibbəyli), Naxçıvan, "Əcəmi" NPB, 2012, 336 səh.

4. Verner f. Simens. Qafqaz səyahətləri"., Bakı, "Turxan" NPB, 2013, 144 s.

5. Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. Москва, Аквариус, 2014, 280 с.

6. Nəcəfli G., Eyvazova N. Azərbaycanda və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımı alman arxiv sənədlərində. Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)., III Beynəlxalq Elmi Konfransın Materialları, Şamaxı, 07-10 aprel, 2016-cı il, səh.540-546, 621 s.

7. Mustafa N. 1918-1920-ci illərdə Qars vilayətində ermənilərin törətdikləri soyqırım (Azərbaycan arxivlərində saxlanılan sənədlər əsasında). Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)., III Beynəlxalq Elmi Konfransın Materialları, Şamaxı, 07-10 aprel, 2016-cı il, səh.559-565, 621 s.

8. Bayburt tarihi. İl Oluşunun 10. Yılında., Bayburt Valiligi Yayınları, 2000, 244 səh.

9. Kültürün Kale Kenti – Bayburt. Ankara, 2011, 240 səh.

10. Seyidov A.Q. Şərqi Anadolunun Bayburt bölgəsində 1916-1918-ci illərdə türk-müsəlman əhaliyə qarşı erməni qətliamları. Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)., III Beynəlxalq Elmi Konfransın Materialları, Şamaxı, 07-10 aprel, 2016-cı il, s.571-575, 621 s.

11. Mahmudov Y. Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Kitab: Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, səh.5-32, 408 s.

12. İsgəndərli A. Azərbaycan həqiqətləri 1917-1920, Bakı, "Elm və Təhsil", 2012, 228 s.

13. Nəcəfli G. 1917-1920-ci illərdə Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgəsində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımları. Kitab: Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, səh.45-55, 408 s.

14. Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar. (toplayanı, tərtib edəni və ön sözün müəllifi akademik İ.Hacıyev), Naxçıvan, “Əcəmi” NPB, 2017, 336 s.

15. Документы внешней политики СССР, Т. II, Москва, 1958, 828 с.

16. İvanov R.N. Basqın. Moskva, 2009, (rus dilindən tərcümə edilib), Naxçıvan, “Əcəmi”, NPB, 2013, 463 s.

17. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f. 1, siy. 3, iş 13, v. 79.

18. Гусейнзаде Р.А. Сельджукская эпоха истории Кавказа. Москва, Kremlin Multimedia, 2012, 186 с.

# BAYBURT VE KOP SAVUNMASI

BİRİNCİ DÜNYA SAVAŞINDA (1914-1918) OSMANLI DEVLETİ ÇANAKKALE, SURİYE, IRAK VE ŞARK (KAFKAS) CEPHELERİNDE SAVAŞMIŞTIR.

BAYBURT'TAN SAVUNMAYI YÖNETEN MAREŞAL FEVZİ ÇAKMAK'A GÖRE; ŞARK CEPHESİNDE SAVAŞAN 3. ORDUNUN EN MÜHİM HAREKATI BAYBURT MINTIKASINDA CERAYAN ETMIŞTİR

3. ORDUNUN AĞIRLIK NOKTASINI TEŞKİL EDEN 3. MINTIKA: BAHTLI, KOP, ZİYARETTEPE, ÇORUH VE MASAT DERESİ ARASINDAKİ KALEDERE TEPESİ, KAÇKAR, KIRKLAR , SOGANLI , YAMALI, KEMER VE ZİGANA DAĞINA KADAR OLAN MINTIKADIR.

ŞARK CEPHESİNDE RUSLAR; 16 ŞUBAT 1916'DA ERZURUM, 6 MART 1916'DA RİZE, 15 MART 1916'DA TERCAN VE 26 MART 1916'DA DA OF'U ALMAK SURETİYLE BAYBURT'UN ÇEVRESİNİ İŞGAL ETTİLER.(1)

18 MART 1916'DA DANZUT (DARICA), 26 MARTTA AHPUNUS (ÇAMLIKOZ), 27 MARTTA ÇORUH CEPHESİ VE MASAT'TA ŞİDDETLİ ÇATIŞMALAR BAŞLADI. BİNBAŞI HALİT BEY'İN, HEMEN HEMEN TÜMÜ, BAYBURT VE ÇEVRESİNDEN TOPLANAN GÖNÜLLÜ MİLİS VE TEŞKİLAT-I MAHSUSA ERLERİNDEN OLUŞAN ÜÇ ALAYLI ÇORUH MÜFREZESİ(2) BU ÇARPIŞMALARDA ÜSTÜN FEDAKARLIKLAR GÖSTERMİŞLERDİR.

16 TEMMUZ 1916 GÜNÜNE KADAR DEVAM EDEN BU SAVUNMAYI 3. ORDU KOMUTANI VEHİP PAŞA VE 5. KOLORDU KOMUTANI MAREŞAL FEVZİ ÇAKMAK 'MUVAFFAK OLMUŞ İKİNCİ PLEVNE SAVUNMASI' OLARAK ŞANLI TARİHİMİZE ALTIN HARFLERLE KAYDETMİŞTİR. MİLİS KUVVETLERİ HARİÇ RESMİ KAYIP 9700 ŞEHİT 15.000 YARALIDIR. BAŞKOMUTAN GRANDÜK NİKOLA, BAYBURT'UN DÜŞÜŞÜNÜ ÇAR'A BÜYÜK BİR SEVİNÇ HABERİ OLARAK VERMİŞ VE RUSYA'DA ŞENLİKLER YAPILMIŞTIR.(3)

TURNALAR ÇIĞLIK ATAR KOP DAĞINDA UÇARKEN,
BİR HÜZÜNLÜ HAL OLUR ZİRVEDE SU İÇERKEN.
ŞEHİTLER AĞIT YAKAR KOP LALESİ AÇARKEN,
DİLLER FATİHA OKUR, BU DAĞLARDAN GEÇERKEN.

TÜM ŞEHİDLERİMİZİN RUHU ŞAD OLSUN.

BAYBURT VALİLİĞİ
2010

KAYNAKLAR:
1-Büyük Harpte Şark Cephesi Hareketleri
M.F.ÇAKMAK As.Mat. 1935
2-Birinci Dünya Harbinde Türk Harbi Kafkas Cephesi
3. ncü Ordu Harekatı Cil II
Genelkurmay Basım evi 1993
3-Rusların Gumüşhane İlini işgali
Sabri Özcan San MEB 1991

**UOT 94**

# BİR DAHA «ADOLF HİTLER və ERMƏNİ GENOSİDİ» MƏSƏLƏSİ HAQQINDA

***Elçin Cabbarov***
*AR Prezidentinin İşlər İdarəsi*

**Açar sözlər:** *terror, «yumşaq qüvvə», faşizm, ermənilik, «erməni genosidi»*

Məqalədə erməni terrorunda *«yumşaq qüvvə»* (soft power) amilinə dair məsələlərin tənqidi ilə yanaşı, «faşizm və ermənilik» mövzusu kontekstində aparılan antitürk/antiazərbaycan təbliğatının subyektiv mənşəyi və sistemli saxtakarlıq xarakteri təkzib olunur. Elmi-nəzəri mövqe ictimai-siyasi və hərbi-tarixi dövriyyəyə «The Times» və «The New York Times» qəzetlərinin 24 noyabr 1945-ci il tarixli saylarında dərc edilmiş müvafiq məqalələrə sızdırılmış psevdofaktların müqayisəli təhlili əsasında formalaşdırılır.

# IN ADDITION TO THE ISSUE OF «ADOLF HITLER AND THE ARMENIAN GENOCIDE»

***Elchin Jabbarov***

**Keywords:** *terror, "soft power", fascism, the armenianism, «Armenian genocide».*

The article considers the subjective origin of anti-Turkish and anti-Azerbaijani propaganda is investigated, and the systemic nature of Armenian falsifications is criticized. The scientific position is formulated on the basis of pseudo facts cut into the article of the newspaper «The New York Times» and «The Times» dated November 24, 1945 and now firmly rotating in the socio-political and military-historical environment.

# ДОПОЛНИТЕЛЬНО О ВОПРОСЕ «АДОЛФ ГИТЛЕР И ГЕНОЦИД АРМЯН»

***Эльчин Джаббаров***

**Ключевые слова:** *террор, «мягкая сила», фашизм, армянства, «геноцид армян».*

В статье рассматривается субъективное происхождение анти-турецкой и анти-азербайджанской пропаганды армянства, критикуется системный характер фальсификаций. Научно-теоретическая позиция базируется на псевдо факте, просеченном в статью газеты «The New York Times» и «The Times» от 24 ноября 1945 года, и ныне вращающегося в общественно-политической и военно-исторической среде.

Adolf Hitlerin adından istifadə edərək dəhşətli anlayış yaratmaq istəyən erməniçi müəlliflər bu gün də var. Həmin müəlliflər hazırda ictimai-siyasi mühitdə dolaşan "erməni genosidi" mülahizələri ilə erməni - türk/azərbaycan münasibətlərini gərginləşdirərək, dünya ictimai fikrində qəddar türk/azərbaycanlı imici formalaşdırmaq, beləliklə də, beynəlxalq ictimaiyyətin dəstəyi ilə Türkiyə Respublikasından yeni ərazilər qopartmaq, Azərbaycandan isə Dağlıq Qarabağı ilhaq etmək, yaxud da tarixi Azərbaycan torpaqları hesabına ikinci erməni dövləti yaratmaq məqsədi güdmədədir. Ümumiyyətlə, bu kontekstdə «faşizm və ermənilik», «ermənilik II Dünya müharibəsində» mövzuları xüsusi araşdırma tələb edir.

Çünki ermənilik bu müstəvidə də ümumi antitürk siyasi alış-verişi etməkdədir. Başqa sözlə, müqayisəli yolla «faşistlər və türklər» / «türk və azərbaycanlı» vəhdətində paralel olaraq antiazərbaycan anlayışı da formalaşdırılmağa cəhd göstərilir.[1]

[1] *«BVM və Azərbaycan» mövzusunda antihitler koalisiyasının qələbəsində «Bakı nefti» amili beynəlxalq hərbi-siyasi-ictimai təbəqə tərəfindən qeyd-şərtsiz qəbul olunmuşdur. Buna da qısqanclıqla yanaşan erməniçi «yumşaq qüvvə»nin son dövr mövzu dairəsi sola meyllənmişdir, yəni SSRİ-nin müharibə dövrü hərbi-sənaye kompleksində Ermənistanın müstəsna yerini qabartmaqla böyük qələbədə «erməni silah-sursatı»nın əhəmiyyəti vurğulanır, böyük qələbədə erməni "payını" genişləndirməklə "erməni silahı olmasaydı bu müharibədə SSRİ qələbə qazana bilməzdi" həddinə yüksəldilir, dolayısı ilə Bakı nefti amilinə erməni silahı ilə qarşılıq verməklə, II Dünya müharibəsində Azərbaycanın əhəmiyyətli müttəfiq mövqeyinə kölgə salınır (bax: Хачатрян. К. Армения в системе военно-промышленного комплекса СССР // Новая и новейшая история. № 6, 2017, с.67 – 78.*

I Dünya müharibəsinin son illərində və region sovetləşdirilmə ərəfəsində Azərbaycan hərbi-siyasi mühitində «Almaniya» amilini bir müddət sonra faşizm kontekstinə qatmaq istəyən erməniçi *«yumşaq qüvvə»* müstəqillik illərində də bu istiqamətdə canfəşanlıq göstərməkdədir. Ona görə də «Adolf Hitler və erməni genosidi» mövzusuna baxışda bu incəliyin də ifşa edilməsi zərurəti yaranmışdır.

Hazırda siyasi proseslərin gedişinə müdaxilə etmək imtiyazları qazanan ermənilik terrorun ayrı-ayrı formaları ilə həm Azərbaycan, həm də Türkiyə üçün problemlər yaratmaqda davam edir. Bu niyyətlə ermənilik beynəlxalq münasibətlər sistemində öz fəlsəfələrinə xidmət göstərən ikili standart ölçüsü yaratmağa nail olmuş, dövlət terrorunu onun qoruyucusu və icraçısına çevirmişdir. Həmin qüvvənin klassik iş metodu belədir: bir fikir uyğun elmi-tədqiqat müəssisələrinə, lobbi qruplarına, ibadət mərasimlərində iştirak edənlər arasına və satqın KİV-ə sızdırılaraq kompleks şəkildə ictimailəşdirilir, sonra isə elmi cəhətdən onun əsaslandırılmasına başlanılır, daha sonra bütün mövcud vasitələrlə (maddi-mədəniyyət nümunələri, saxta sənədlər və diplomatik yazışmalar, moizələr, bəzi buqələmun ictimai təşkilatların sorğuları və s.) total pozuculuq fəaliyyəti üçün münasib şərait yaradılır. Hazırda, ***«azərbaycanlılar və ermənilər bir dövlətin tərkibində patoloji cəhətdən birgə yaşaya bilməzlər»*** tipli erməni-faşist fikirlərinə dəstək yığmaq, ümumiyyətlə, erməni mənafeyinə lazım olan hər hansı problemli istiqamətin çözülməsində münasib beynəlxalq qanunvericilik bazasının, elmi-mədəni auranın hazırlanması həmin metodla və məhz «yumşaq qüvvə» ilə israrla davam etdirilir. «Adolf Hitler və erməni genosidi» mövzusunun ümumdünya KİV-ində hələ də xatırladılaraq yaşadılması məhz bu strategiyanın xidmətindədir. Çünki bugünkü erməniçi «yumşaq qüvvə»nin əsas məqsəd və vəzifəsi "erməni məsələsini" dünya miqyasında unudulmağa imkan verməmək, ona müəyyən əlavələr edərək müasir beynəlxalq reallıqlar kontekstində kütləviləşdirib, Türkiyə və Azərbaycan dövlətlərinə qarşı iddialarının reallaşdırılmasına nail olmaqdır. Təəssüf ki, bəzi dairələr də bundan faciə ölçüsü düzəltməyə meyllidir. Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin terrorçu «Dağlıq Qarabağ Respublikası»nın müstəqilliyinin tanınması kontekstinə daxil edilməsi köhnəlmiş ***"erməni məsələsi"nin*** yeni dövrdə diriltmək strategiyası olmaqla yanaşı, regionda «yumşaq qüvvə» terrorunun əl-qolunun açılmasına yeni fürsət verməkdir. «Adolf Hitler və erməni genosidi» mövzusu bu istiqamətdə də öz aktuallığını saxlamaqdadır. Bu kontekstdən aydın olur ki, Azərbaycan elitası qərəzli intriqaya cəlb edilməkdədir. «Türkdən qisas almaq» niyyətilə etnik türk olan Azərbaycanla bağlı hər müsbət amilə qarşı kompleks təpkilər gücləndirilməkdədir. Dünyanın müxtəlif yerlərində azərbaycanlıların etnik ermənilər tərəfindən qətlə yetirilməsi faktları baş verir, hər gün DQ-də qoşunların təmas xəttindən erməni təxribatı barədə

acınacaqlı xəbərlər gəlir, Cənubi Qafqaza aid mövzularda, ümumiyyətlə, Azərbaycan anlayışı adına hər mövzunun altı üstünə çevrilir.
Bu mülahizələrin bazası ilə ümumi tanışlıq göstərir ki, II Dünya müharibəsi başlayanda erməni elitası Ermənistan SSR-in tam müstəqilliyinə nail olmaq, yaxud da qonşu region ölkələrdən heç olmazsa yeni ərazilər qoparmaq iddiası ilə faşist Almaniyası ilə əməkdaşlığa önəm vermişdir. Digər bir qismi başda erməni kilsəsi olmaqla ateist Sovet dövlətinin haqq mübarizəsini dəstəkləmişlər. BVM-nin ilk aylarında ermənilik arasında müharibəyə ikili münasibət strateji məqsəd daşıyırdı və «kim - kimi» məsələsinin hər iki həlli variantında faydalı olmaq taktikasından irəli gəlirdi. Vaxtilə bunun qarşısını almaq üçün sovet təbliğatı müəyyən addımlar atmışdı. «Sovet Ermənistanı intelliqensiyasının bütün xarici ölkələrdəki ermənilərə müraciətnaməsi» bu addımların başlanğıcı kimi qəbul oluna bilər. Tarix şahiddir ki, müharibənin ilk aylarında qınayıcı hava çalan ermənilik, onun sonunda tamam başqa kamertonla köklənib beynəlxalq erməniliklə həmrəylik nümayiş etdirirdi (1946-cı ilin aprel-may aylarında dünyanın müxtəlif regionlarında, xüsusilə də ABŞ-da Ermənistan SSR-nin ərazi iddialarını dəstəkləyən erməni mitinqləri keçirilərkən, sovet erməniliyi artıq həmrəylik mövqeyindən çıxış edirdi): «...Qanlı Hitlerin sələfi kayzer Vilhelm tərəfindən birinci imperialist müharibəsi zamanı qardaş və bacılarımızın cismən məhv edildiyi hələ yaxşı yadımızdadır. Biz, german imperializminin agentləri olan daşnak başçılarının xalqımızı qırmaqda oynadıqları alçaq xəyanətkar rolu unutmamışıq. İndi də, keçirdiyimiz bu günlərdə daşnakların ayrı-ayrı satqın başçıları faşizmin agenti olub ona muzdla xidmət edirlər, hitlerçilərin qanlı çəkmələrini həyasızlıqla yalayırlar və hər cür xəyanətə hazırdırlar» [1].

Tarix elmləri doktoru Musa Qasımlı yazır: «…Yalnız Stalinqrad ətrafında qələbədən sonra Stalinin Türkiyəyə münasibəti dəyişdi. Durğunluqdan pozulma mərhələsinə daxil olan münasibətlər iki ölkə arasında düşmənçiliyə çevrildi. Bu isə ermənilərin işinə yarayırdı. Onlar bu soyuqluqdan istifadə edərək, öz maraqlarını reallaşdırmaq üçün fəaliyyətlərini genişləndirdilər» [2, s.227]. Bu genişlənmə diasporalararası əlavi dostluq formatına cəlb olunmaq, mətbəx məsələləri və qonşu xalqların ən yaxşı etnik mənəvi dəyərlərini özəlləşdirib təbliğ etmək, milli identikliyi saxlamaq şərtilə çox sürətlə mədəni cəhətdən assimilyasiya olunmaqla realizə edilirdi. Müxtəlif məzhəbli xristian din xadimləri arasında təmasların sürətləndirilməsi və dərinləşdirilməsi, lobbiçilik və s. sosial mahiyyətli qüvvələr də aktivləşdirilmişdi. II Dünya müharibəsindən sonra isə bütün bu kompleks tədbirlərin fonunda erməni təbliğat maşını dünyaya car çəkirdi ki, guya faşistlər üzərində qələbədə 4 milyon (?) erməni həlak olmuşdur. Digər tərəfdən, erməniçi təbliğat tarixi-genetik, tarixi-müqayisəli analiz metodlarından istifadə edərək «erməni genosidi» faktını tanıtmaq, erməni məsələsini daim gündəmdə saxlamaq

niyyətini də gizlətmirdi. Ona görə də müttəfiqlərin bu dəfəki böyük qələbəsində ermənilərin rolu məsələsini 4 milyon rəqəmi ilə gözə soxaraq, I Dünya müharibəsi dövründəki kimi öz vacibliklərini israr etməklə «erməni genosidi» faktını dünyaya qəbul etdirmək, yaxud da heç olmazsa bu itkilərin əvəzində ABŞ və SSRİ-nin dəstəyi ilə Türkiyədən yeni torpaqlar qoparmaq iddiasına qapılmışdılar. Bu işə hətta Gürcüstan SSR də şirnikləndirilmişdi.

II Dünya müharibəsindən sonra ermənilik öz məqsədlərinə çatmaq üçün yeni tipli terror üsullarından istifadəyə başlamışdı. Bu üsul faktları saxtalaşdıraraq cəmiyyətdə ilk informasiya effekti yaratmaq və yaxın perspektivdə onun sosial-siyasi səmərəsindən tam gücü ilə faydalanmaq avantürası üzərində qurulmuşdu.

XX əsrin ortalarından başlayaraq ümumdünya terrorunda yeni bir üsula daha geniş yer verilirdi. Ermənilik də onun potensialından geniş istifadəyə başlamışdı. Erməniçi qüvvələrin əsas hədəfi bütövlükdə türk/Azərbaycan milli-mədəni dünyası idi. Hazırda terrorşünaslıqda *"soft power" («yumşaq qüvvə»)* adlandırılan bu üsul erməni terrorunun ən «sevimli» təhdid üsuluna çevrilmişdir.

Beləliklə, mövzunu «məşhur» bir psevdofaktın analizi üzərində açmağa çalışacağıq. Erməni tarixçi Con Kirakosyan Adolf Hitlerin 1939-cu ilin avqust ayında Oberzalsburq şəhərində keçirilən hərbi müşavirədəki məruzəsinə istinadla yazırdı: ... əgər böyük Almaniya imperiyası yaratmaq istəyiriksə, slavyan xalqlarını məhv etməliyik. O (A.Hitlerə işarədir. – E.C.), hannibalçı tələblərini əsalandırmaq üçün 1915-ci ildə qərbi ermənilərin məruz qaldıqları qırğınları müşavirə iştirakçılarına xatırlatmışdı: "Ermənilərin məhv edilməsi bu gün kimin yadında qalıb?". Qərbi ermənilərin məhv edilməsinin təşkilatçılarının cəzasız qalması, "...Hitleri ilhamlandırırdı, onun əl-qolunu açırdı. Ona görə də xalqları tamamilə məhv edərkən erməni qırğınlarını yada salması təsadüfi deyildi.» [3, s.335]. O, elmilik adına belə bir mənbə də göstərmişdi: «The New York Times, 24 november, 1945, p.7.» Həmin "fakt" bugünədək bəzi erməniçi müəlliflər tərəfindən kor-koranə dəstəklənir. Vaxtilə Türkiyə Respublikası buna elmi müstəvidə etiraz etmişdi. Lakin sovet dövrü idi, dünya həqiqət və saxtakarlıq deyil, sosializm və kapitalizm tərəfkeşliyi üzərində qurulmuşdu.

Keçən əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq bu məsələ yenidən qızışmışdı. SSRİ-də yenidənqurma və aşkarlıq siyasətinin başlanması da bu mövzunun məhz erməni ssenarisi üzrə davam etməsinə yaxşı şərait yaratmışdı. Bəzi müəlliflər (məs., V.A.Muradyan, M.Q.Nersisyan və b.) A.Hitlerə istinadla ictimai şüura təsir etməkdən çəkinmir, «Hitler və türk qırğın metodları», «faşizm və erməni genosidi», bu fona azərbaycanlıların ermənilərə «düşmən» münasibəti süjetini də sızdırmaq istəyi bugünədək davam etdiyindən, buna münasibət bildirmək zərurəti aktuallaşmışdır. Bu zərurət həm də ondan irəli

gəlir ki, əlavə bir mənbəni də geniş elmi dövriyyəyə almaq, onun tarixi-filoloji istiqamətdə müqayisəli analizini aparmaq vacibdir.

Dünya sosializm sistemi dağılandan sonra obyektiv tədqiqatçılar və oxucular arasında «Hitler o sözü harada deyib? Kimin yanında deyib? Nə vaxt deyib?» və s. bu tipli istehza və şübhə dolu suallar hədsiz dərəcədə çoxalmışdı. Türkiyə-Amerika Assosiasiyasının Assambleyası həmin dedi-qoduya son qoymaq fikri ilə 1987-ci ildə «Armenian allegations: myth and reality. A handbook of facts and documents» adlı kitab da nəşr etdirmişdi (həmin kitabın rus dilinə tərcüməsi Azərbaycanda reallaşdırılmışdır: «Армянский геноцид». Миф и реальность. Справочник фактов и документов. Б.: Азернешр, 1992.).

Həmin saxta sitatın genezisini və evolyusiyasını öyrənmək üçün bu kitab çox dəyərli mənbədir. Erməni genosidi ətrafında mif və reallıqların sərhədlərini müəyyənləşdirən kitaba Türkiyə üzrə tanınmış mütəxəssis Hit U.Lourinin (Heath Ward Lowry) «ABŞ Konqresi və Adolf Hitler ermənilər haqqında» adlı tədqiqat materialı da daxildir. Erməniçi müəlliflərin saxtakarlığının ifşa olunmasında bu tədqiqatın xüsusi əhəmiyyəti vardır [4].

Erməniçi müəlliflərin ilk olaraq «The New York Times» [5] qəzetindəki məqaləyə istinad etməsi göstərir ki, faktları hərtərəfli araşdırmamışlar. Çünki mövzunun mənşəyi öncə «The Times»dakı [6] yazıya müraciəti tövsiyə edərdi, sonra isə «The New York Times»a. Çünki hər iki material eyni vaxtda dərc olunsa da, mövzuya yanaşma baxımından baza materialı London nəsrindəkidir. C.Kirakosyan isə «The New York Times» qəzetinin[2] ermənilərə hüsn-rəğbətinə («Vaşinqton post» da həmin mövqedə idi. – E.C.) və ABŞ-dakı erməni lobbisinin dəstəklədiyi 1946-cı il erməniçi mitinqlərin, xaricdəki erməni ictimai-siyasi təşkilatlarının, diasporunun fəallığına inanaraq ilk vaxtlar bu mətbu orqana əsaslanmağa üstünlük vermişdir. Beləliklə, çap materiallarının xronologiyası göstərir ki, Türkiyə-Amerika Assosiasiyasının kitabı çap olunandan sonra C.Kirakosyan düşdüyü saxtakarlıq girdabından çıxmağa cəhd etmiş və bu dəfə «The Times» qəzetindəki faktı dəstəkləməyə məcbur qalmışdır.

Beləliklə, «The New York Times» və «The Times» qəzetləri eyni tarixdə

---

[2] *Erməni diaspor nümayəndələrinin fikrincə, «The New York Times» qəzeti erməni məsələsinə xüsusilə həssas və diqqətlə yanaşmışdır. Buna görə də həmin saxta faktlar əsasında hazırlanmış məqalənin bu qəzetdə də dərc olunması düşünülmüş addımdır. 1946-cı ilin may ayında ABŞ-da Ermənistanın ərazi iddialarını dəstəkləyən erməni mitinqləri keçirilərkən «The New York Times» qəzetində «...Suriya, Livan, Misir və Yunanıstandakı ermənilərin guya ağır vəziyyətdə yaşadıqlarından bəhs edən məqalə dərc olunmuşdu. Məqalədə, həmçinin, bildirilmişdi ki, ABŞ-ın bəzi dairələri ermənilərin tələblərinə qarşı çıxırlar. Çünki həmin dairələr əmindirlər ki, ermənilərin tələbləri SSRİ-nin strateji maraqlarına xidmət edir.» Beləliklə, aydın olur ki, məqsəd humanizm məsələsi deyil, ictimaiyyətdə bədbəxt erməni mənşəli insanların Türkiyədən alınacaq torpaqlarda gələcəkdə yaşamasını təmin etmək barədə siyasi xülya yaratmaqdan ibarətdir. Bax: Qasımlı M. Göstərilən əsəri, s. 245.*

– 24 noyabr 1945-ci il saylarında hərbi canilərin Nürnberqdəki məhkəmə prosesində səslənən bəzi fikirlər barədə icmal dərc etmişdi. Geniş tədqiqatdan kənarda qalan mövzunun həm də bu istiqamətidir. Radioqram vasitəsilə «The New York Times» redaksiyasına çatdırılmış həmin yazı, əsasən, Hitlerin 22 avqust 1939-cu ildəki məlum müşavirədəki çıxışlarında Polşa haqqında, həmçinin beynəlxalq gündəm barədə şərhlərindən müəyyən fraqmentlərin interpretasiyası xarakterində hazırlanmışdır. Məqalənin ideya-məzmun mənbəyi həmin məhkəmə prosesində Böyük Britaniya adından dövlət ittihamçısı J. M. Qriffit – Consun çıxışında istinad olunan «798 - PS» və «1014 - PS» nömrəli sənədlərdir [7, s.118-119]. Lakin materialı nəşrə hazırlayanlar hansısa bir formada bunu da diqqətə çatdırmamışlar. C.Kirakosyan da həmin sənədlərə müraciət etməmişdir.

Məqalələrlə sənədlərin müqayisəli analizi göstərir ki, hər iki redaksiya həmin materialı çapa hazırlayarkən ciddi saxtakarlığın qurbanı olmuşdur. Bu gün onun bilərəkdən, yaxud bilməyərəkdən və ya erməni diasporunun sifarişi ilə tarixə yeritməsi fikri önəm daşımır. Fakt göz qabağındadır. Eyni gündə həm İngiltərədə, həm də ABŞ-da eyni tip materialın dərc edilməsi təsadüf ola bilməzdi. Digər tərəfdən, hər iki məqalənin imzasız dərc olunması materialların mənşəyini şübhəyə bürüyür. Hər iki redaksiya həmin yazıları istinad yeri göstərmədən, publisistik haray-həşir üslubunda hazırlayaraq imzasız dərc etmişdi. Bu amillər məqalələrin mənşəyini şübhə altına salır, təyinatını elmilikdən çıxarır. Lakin «erməni genosidi» haqqında iddialar hər dəfə yenidən gündəmə gətiriləndə, sanballı mənbə kimi Amerika və İngiltərə qəzetlərinin müvafiq saylarının ictimai-siyasi dövriyyəyə qatılması həmin mətbu materialın məhz düşünülmüş saxtakarlıq olaraq dərc edildiyini diqqətə çəkir.

Digər tərəfdən, Nürnberq məhkəməsinin rəsmi olaraq qəbul etdiyi sənədlərin məzmunu da əsaslı şəkildə təhrif edilmiş, elmi deyil, məhz public-sistik fikrin perspektivi üçün məqsədli əlavələr və düzəlişlərlə "zənginləş-dirilən" əlavə bir süni sənəd (US-28) qondarılmışdır.

«798 - PS» nömrəli sənəd Polşanın işğalı ərəfəsində beynəlxalq hərbi-siyasi vəziyyətin Hitler tərəfindən şərhidir və 1939-cu ilin avqust ayının 22-də Vermaxtın yüksək rütbəli zabitlərinin iştirak etdiyi müşavirədə fürerin birinci çıxışını ehtiva edir.

Hitler həmin müzakirədə Polşa ilə bağlı ikitərəfli münasibətlərin gələcəyi və bu istiqamətdə aparılan diplomatik danışıqların gedişinə toxunmuş, hadisələrin perspektivindən ehtiyat etdiyini vurğulamışdı. O, İngiltərənin təhriki ilə Polşanın Almaniyaya hücum edəcəyi ehtimalının yüksək olduğu üçün birinci oraya alman hərbi müdaxiləsinin vacibliyini qətiyyətlə bildirmişdi. Tədbirdə səsləndirdiyi mülahizələri əsaslandırmaq üçün «tarixi situasiya və şəxsiyyət» amili üzrə müqayisələr aparmış, bəzi Avropa ölkələri barədə siyasi mövzulara toxunmuş, həmin dövlətlərin başçıları haqqında özündənrazı ehtiras və

yüngüllüklə hərbi-siyasi və aşağılayıcı şərhlər vermişdir. Həmin müşavirəyə aid digər rəsmi sənəd – «1014 - PS» isə çox sərt və amansızdir. Hitler məsləkdaşlarına ölüm-dirim müharibəsi aparmağı tövsiyə edir: «Polşanın məhvi ön plandadır. Məqsəd hansısa torpaqları ələ keçirmək deyil, oradakı bütün insanları məhv etməkdir. Müharibə Qərbdə başlasa da Polşanı məhv etmək birinci plandadır... Heç kəsə yazığınız gəlməsin. Amansız olun... Kim güclüdür – o da haqlıdır... Polşa tamamilə darmadağın edilməlidir – hərbi məqsəd budur.» [8]. Göründüyü kimi, faktlar dəhşət saçır, ancaq C.Kirakosyanın israr etdiyi kimi deyil, fikir «…slavyan xalqlarını – rusları, ukraynalıları, çexləri, bolqarları, slovakları, belorusları sıxışdırmaq və məhv etmək» üzərində qurulmamışdır... Başqa sözlə, C. Kirakosyan «erməni genosidini törədənlərlə yuxarıda sadalanan xalqların qırğınını edənlər arasında eyniliyin sübutuna saxtakarçaşına cəhd göstərmişdir.

Beləliklə, C. Kirakosyan 1971-ci ildə rus dilində nəşr etdirdiyi məlum monoqrafiyada Hitlerin "dilindən bərk-bərk yapışmışdı". 1986-cı ildə çapdan çıxmış digər bir kitabında isə Hitlerlə bağlı əvvəlki saxtakarlığını dolayısı ilə etiraf etsə də, yenə obyektiv mövqeyə qayıtmamışdı. On beş ildən sonra o yenə yazırdı: «… Hitler 1939-cu ilin avqust ayında slavyan və yəhudiləri məhv etməyə çağırmışdı. Vaxtilə gənc türklərin törətdiyi erməni qırğınını xatırladaraq demişdi: "Sözün kəsəsi, erməni qırğınını bu gün kim xatırlayır ki?" Bəzi türk müəlliflər bunu təkzib etməyə cəhd göstərərək bildirirlər ki, Hitler belə bir söz deməmişdi. Əlbəttə, faşistlərin başçısının belə bir fikir deyib-deməməsi məsələnin mahiyyətini dəyişdirmir. Fakt budur ki, İkinci Dünya müharibəsində hitlerçilər gənc türklərdən daha qəddar cinayətlər törətmişlər... Hitlerin yuxarıda qeyd olunan fikri ilk dəfə Londonun "Tayms" qəzetinin 24 noyabr 1945-ci il sayında dərc olunmuşdu.

Hitlerin 1939-cu ilin avqust ayının 22-də Oberzalsberqdəki nitqinin də məzmununa toxunulan Nürnberq məhkəməsi sənədlərində (№№ P/798 və P/1014).., həqiqətən də, erməni qırğını barədə həmin məlum fikir yoxdur. Lakin o, belə bir fikir bildirib. Həmin gün Hitler saat 12-dən 15-dək çıxış etmişdi. Onun məruzəsinə yüngül qəlyanaltı ilə fasilə verilmişdi. Tribunadan enəndə müşavirə iştirakçıları onu əhatəyə almışlar və iyirmi generaldan ibarət bir qrupun arasına düşən fürer həmin cümləni işlətmiş, "Tayms" qəzeti isə 24 noyabr 1945-ci il tarixli sayı ilə bütün dünyaya bəyan etmişdir...» [9, s.373]. Göründüyü kimi, o, inadla ictimaiyyəti öz yalanlarına sitayiş etməyə kökləyirdi. Lakin yenə saxtakarlıq ilə...

Amerikalı mütəxəssis Hit U.Lourin sübut etmişdir ki, həmin müşavirədə iştirak edən iki yüksək rütbəli alman zabitinin (admiral Herman Bem, general Halder) qeydlərində də həmin cümlə yoxdur. Beləliklə:

***1.*** İngiltərənin «Tayms» və ABŞ-ın «Nyu York Tayms» qəzetlərinin eyni tarixli saylarında paralel dərc olunmuş məqalələrin müqayisəli analizi

göstərir ki, Nyu York variantı, əsasən, London nəşrinin bazasında hazırlanmışdır. Həmçinin, İngiltərə qəzeti həmin materialı geniş, ABŞ qəzeti isə xeyli yığcam çap etmişdir.

***2.*** Həqiqətən də, o müşavirədə Hitler iki dəfə çıxış etmişdir və günortadan sonra ikinci çıxışı «1014-PS» nömrə ilə sənədləşdirilmişdir. Lakin orada da «erməni qırğını»ndan əsər-əlamət yoxdur.

***3.*** Sənədlər rusdilli mənbələrdə ПС-798 və ПС-1014 nömrəsi ilə keçir. Beynəlxalq tribunalın istintaq materiallarında isə «798-PS» və «1014-PS» kimi göstərilir. Erməni müəllifi isə onu P/798 və P/1014 kimi təqdim edir.

***4.*** Erməni müəllifi mənbə kimi heç yerdə «Nyu York Tayms» və «Tayms»dakı müvafiq məqalələrin özü barədə məlumat vermir, hətta onların sərlövhəsini də yazmır, ancaq nəşrin adını, dərc olunma tarixini və səhifəni göstərməklə kifayətlənir. Digər erməni müəllifləri də bu yolla getmişlər: ya C.Kirakosyanın monoqrafiyasına, ya da onun kimi qəzetin uyğun tarixinə istinad etmişlər.

***Bütün bunlar o deməkdir ki, C.Kirakosyan və məsləkdaşları Nürnberq məhkəməsi tərəfindən qəbul edilmiş hərbi qənimət olan müvafiq sənədlərə istinad etməmiş, hər iki qəzetdə dərc olunmuş uyğun məqalələrin qarşılıqlı analizini aparmamışlar. Onlar ictimaiyyətə sızdırılan saxta fikirlərlə beynəlxalq siyasi-hərbi mühitdə türklərə, bu gün isə hər dəfə bu mövzunu təkrarlamaqla dolayısı ilə də türk kökənli azərbaycanlılara qarşı qəddarlıq qarışıq ikrah hissi formalaşdırmağa qulluq göstərmişlər.***

Tədqiqatçılar II Dünya müharibəsi haqqında siyasi-hüquqi mövzular işləyərkən, əsasən, 1947-ci ildə çap olunmuş bu nəşrə müraciət edirlər [10]. Məqalədə istinad edilən hər iki sənəd göstərdiyimiz formada bu kitabın 26-cı cildində yerləşir.

İndi isə yazıların özünə müraciət edək.

«The New York Times»dakı məqalə belə adlanır: «Partial Text of Talks on Poland» / «Polşa haqqında söhbətlərdən fraqmentlər» və aşağıdakı yarım-başlıqlardan ibarətdir: «Frankonu (İspaniyanın kralı. – *E. C.*) dost adlandırır», «İkinci çıxışdan fraqmentlər», «Görinqlə söhbət», «Dünyanın mənzərəsinə təkəbbürlü baxış», «Hirohito (Yaponiyanın kralı. – *E.C.*) qorxaqdır». «Dünyanın mənzərəsinə təkəbbürlü baxış»da Hitlerin adından ermənilər haqqında («...Bu gün ermənilərin qırğını barədə kim danışır ki?..») fikir, «Görinqlə söhbət»də isə məşhur Çingiz xan («...Çingiz xan öz iradəsi və qəddar ürəyi ilə milyonlarla qadın və uşağı qətlə yetirmişdi. Tarix isə onu dahi dövlət qurucusu hesab edir») barədə müqayisəli fikir söylənilmişdir. Buradaca qeyd edək ki, Çingiz xanın da adı həmin məqaləyə saxtakarcasına daxil edilmişdir. Mətnin emosional təsir gücünün daha da artırılması üçün Çingiz xanın despotluğunun xatırlanması sovet dövlətinin müharibənin ən şiddətli dövründə dünyaya yaydığı məşhur bir notadan irəli gəlməsi iddiasını istisna etmir. Çünki

həmin məqalələrin müəllifi Lui(s) Loherin (bunu Hit U.Lourin sübut etmişdir) «Yalnız Almaniya haqqındamı?» kitabının nəşr tarixi (1942) ilə eyni vaxta təsadüf edən notada bu fikrə dəstək var: «...Alman-faşist quldurlarının dinc sovet əhalisi və sovet hərbi əsirlərinə tutduqları divanın yanında Çingiz xanın, Batının, Mamayın törətdiyi vəhşiliklər və cinayətlər solğun görünür.» [11].

London qəzetində dərc olunmuş material isə «Nazi Germany's road to war» /«Nasist Almaniyası müharibə yolunda» adlanır. Fərqli formatda və yarımbaşlıqlarla işlənsə də, müəyyən istisnalarla yuxarıdakı fikirləri ehtiva edir.

II Dünya müharibəsinin gedişində situasiyanın antifaşist koalisiyasının xeyirinə dəyişməsindən sonra erməni diasporu və lobbisinin ABŞ-da fəallaşması faktı təsdiq edir ki, həmin dövrdə bir qəzetdə bir antifaşist ruhlu məqalə dərc etdirmək, oraya da əlavə bir ***"lazımlı cümlə, yaxud fikir"*** saldırmaq çətin məsələ deyildi. Bu fikir mövzunun formalaşdığı «Dünya 1946-cı ildə» mühitinin ictimai-siyasi məntiqindən qaynaqlanır.

Məqalələrin müqayisəli analizi göstərir ki, həm ermənilərə, həm də polyaklara münasibətdə eyni ifadə işlədilmişdir: ***EXTERMINATION (***«extermination of the Armenians», «extermination of Poland»). Bu söz ingilis dilində *məhv etmək, qırğın törətmək* və s. sinonim səpkili mənaları daşıyır. Onu g*enosid* deyə tərcümə etmək sözün həm məna, həm də elmi-siyasi tutumunu tam ehtiva etmir. Çünki:

***a)*** «extermination» genosid anlamının ictimai-siyasi-hərbi yükünü daşıya bilmədiyi üçün onu başqa dilə g*enosid,* yaxud onun sinonimini daşıyacaq mənada tərcümə etmək və ya genosid aurası yaratmaq üçün həmin ifadəni qabartmaq qeyri-dəqiqlikdir;

***b)*** g*enosid* leksik vahidi beynəlxalq hüquqi termin kimi 1933-cü ildən ictimaiyyətə məlum idi (terminin elmi dövriyyəyə qatılma tarixini nəzərdə tuturuq, müvafiq beynəlxalq konvensiyanın tətbiqi məşhur məhkəmədən sonra – 1948-ci ilə aiddir). Əgər bu termin həmin məhkəmə prosesini aparan ən peşəkar və elmi-təcrübi cəhətdən hazırlıqlı hüquqşünaslar tərəfindən gündəmə gətirilməyibsə, deməli, bunun obyektiv səbəbi olub, yaxud gətirilsəydi, oradakı müxbirlər onu mütləq mətbuata çıxarar və xüsusilə də polyaklara münasibətdə ("g*enocide"* leksik vahidini hüquqi-siyasi dövriyyəyə ilk qatan yəhudi kökənli polşalı hüquqşünas olmuşdur. – E.C.) beynəlxalq hüquqi termin kimi israrla qeyd edib yayardılar. Və erməni tərəfi də bundan faydalanardı. Lakin bunların heç biri baş verməmişdi. Deməli, fakt təsdiq olunmadığı üçün ictimai-siyasi dövriyyədən kənarda qalmışdır. Hazırda bir çox dövlətlərin 1915-ci il hadisələrinə *genosid* deyil, başqa söz və söz birləşmələri vasitəsilə humanitar mövqedən münasibət bildirmələri [məs., ABŞ dövlətinin ingilis dilindəki *genocide* ifadəsinin əvəzinə, erməni dilindən (yerinə görə ya *"meds yeğern"*, ya da *"tseğaspanutyun")* tərcümə olan «*böyük fəlakət*»,

«*qırıb-çatmaq*» ifadəsini və ya onun ingilisdilli variantını: *“great crime”*, yaxud da buna sinonim mahiyyətlisini tapıb işlətməsi təsadüfi deyil. – E.C.] bu məntiqdən qaynaqlanır. Ona görə də «The Times», «The New York Times» qəzetində siyasi-hüquqi ifadə olan *“genocide”* deyil, məhz humanitar ifadə olan *“extermination”* leksik vahidi yer almışdır.

**Beləliklə, erməniçi «yumşaq qüvvə» müəlliflərinin 1915-ci il hadisələrini «Adolf Hitler və erməni genosidi» müstəvisində də gündəmə gətirmələrinin heç bir elmi-hüquqi əsası yoxdur.**

«The New York Times»dakı məqalənin sonluğu da bu qənaətə dəstəkdir və onun nə dərəcədə məkrli niyyətlə nəşrə hazırlandığını göstərməklə yanaşı, fakta məsuliyyətli fikir mənbəyi kimi yanaşmaqda erməniçi formanı zərərsizləşdirir. Qəribədir ki, adı çəkilən məqalələrdə Qarabağ müharibəsini vəsf edən ermənipərəst müəlliflərin üsul və üslub yaxınlığı da hiss olunur (o mənada ki, məqalə erməni düşüncəsi ilə hazırlanıb, amerikalı jurnalist adı ilə redaksiyalara təqdim edilib). Mətn daxili ritm, materialın strukturu keçən əsrin 80-90-cı illərinin Azərbaycana qarşı erməni mətbu çıxışlarını yada salır. Bu fikirlə bir sitata da diqqət yetirək, «The New York Times» öz yazısına belə yekun vurur: «...Hitlerin çıxışı şövqlə dinlənildi. Görinq masadan dik atıldı. Qana susamış təşəkkürlər və qanlı-qadalı vədlər yağdırdı. O, vəhşi kimi rəqs etməyə başladı...» Alman-faşist ali rəhbərliyinin müşavirəsində bu cür davranış nə dərəcədə inandırıcıdır? Sənəddə isə deyilir ki, Görinq Hitlerə nitqi üçün iştirakçılar adından razılığını bildirmişdir.

Yeri gəlmişkən, qeyd edək ki, «798-PS» qeydiyyatlı sənəddəki müvafiq faktlar II Dünya müharibəsi öncəsi beynəlxalq durumu dəyərləndirməklə yanaşı, diplomatik oyunlarda sovet rəhbərliyinin, xüsusilə də Stalinin mövqeyini, eləcə də Hitler və Stalin arasındakı şəxsi münasibətin əsl simasını da dərk etməyə yardımçı ola bilər. Digər tərəfdən, həmin sənədin bəzi yerləri rus dilinə tərcümədə ixtisar olunmuşdur. Çünki sovet dövlətinin II Dünya müharibəsi haqqındakı dövlət siyasətinə uyğun gəlməyən məqamlara malikdir. Lakin həmin hissələrin Azərbaycan tarixşünaslığı üçün faydası ola bilər deyə həmin hissənin də tərcüməsini təqdim edirik. Hitler deyirdi: *«…Rəqib hələ də ümid edir ki, Rusiya Polşanın zəbt olunmasından sonra rəqib kimi çıxış edəcək. Rəqiblər mənim böyük qətiyyətimlə hesablaşmamışdılar. Bizim rəqiblərimiz kiçik qurdlardır. Mən onları Münhendə gördüm...*

*Mən əmin idim ki, Stalin ingilislərin təklifinə getməyəcək. Rusiya Polşanın saxlanmasında maraqlı deyil və Stalin bilir ki, onun əsgərlərinin müharibədən qalib və ya məğlub ayrılması onun rejiminin sonu deməkdir. Litvinovun uzaqlaşdırılması həlledici oldu. Mən tədricən Rusiyaya münasibəti dəyişdim. Ticarət müqaviləsi ilə əlaqədar biz siyasi görüşlərə toplaşdıq. Hücum etməmək təklifi yarandı. Sonra Rusiyadan universal təklif gəldi. Dörd gün əvvəl mən elə bir xüsusi addım atdım ki, Rusiya dünən cavab verdi ki, o, müqavilənin*

*bağlanmasına hazırdır. Stalinlə şəxsi əlaqə yaradıldı. Fon Ribbentrop o birisi gün müqaviləni imzalayacaq. İndi Polşa mən istəyən vəziyyətə düşür...*

*Blokadada qalmaqdan qorxmamalıyıq. Şərq bizə taxıl, mal-qara, kömür, qurğuşun, sink göndərir. Bu böyük səfərbərlik tələb edən böyük məqsəddir. Yeganə qorxum odur ki, son anda hansısa çaqqal mənə vasitəçilik planı təqdim edər...*

*Siyasi məqsədə doğru irəliləyirik. İngiltərənin dominantlığının məhv edilməsi başlanmışdır. Mənim siyasi hazırlıqlar görməyimlə əsgərlər üçün yol açılmış oldu...*

*Rusiya ilə hücum etməmək paktının bu gün ictimailəşdirilməsi bomba kimi partladı. Nəticələrini görməmək mümkün deyil. Bunun Polşaya təsiri nəhəng olacaq.*

*Göring fürerə təşəkkürünü bildirir və əmin edir ki, vermaxt öz öhdəliyini yerinə yetirəcəkdir...».*

Beləliklə, C.Kirakosyan və məsləkdaşlarının istifadə etdiyi tədqiqat üsulu deklarativ formatdadır və onların irəli sürdüyü müvafiq fikirlərin məhz saxtakarlıq potensialı böyükdür. Ermənilik «Adolf Hitler və erməni genosidi» mövzusunda qazandığı ciddi təcrübədən Dağlıq Qarabağ probleminin öz istəklərincə həlli prosesində də istifadə etməkdədir, yəni «yumşaq qüvvə» ilə maarifçilik istiqamətində total hücuma üstünlük verməyə başlamışlar.

Belə ki, beynəlxalq ictimaiyyət «DQR» barədə "beynəlxalq ictimaiyyət tərəfindən tanınmayan qurum" ifadəsini işlədir, ancaq elm-təhsil müəssisələrində onu müstəqil dövlət kimi tədqiq edir, dissertasiya müdafiə edənlərə elmi dərəcə verir, simpoziumlara dəvət edirlər. Bu, təhlükəli perspektivdən xəbər verir. Ümumdünya ictimai-siyasi fikrində problemə eyni zamanda həm humanitar, həm də siyasi müstəvidə qiymət verməyə cəhd göstərilir. Azərbaycan tərəfi hər dəfə buna etirazını bildirir və qanunsuzluğun qarşısını almaq üçün xeyli güc sərf edir. Bununla yanaşı, ümumiyyətlə, DQ probleminin çözülməsi, onun müstəqil dövlət kimi tanınması istiqamətində elmi-tədqiqat işlərinin yazılmasına, müdafiə olunmasına (xüsusilə də, ABŞ və Rusiya Federasiyasında) qarşı çıxacaq tələblər hazırlanmalı və müvafiq beynəlxalq qurumların diqqətinə çatdırılmalıdır, yaxud həmin elmi işlərin təsdiqindən əvvəl əsas şərtlərdən biri kimi AMEA-ya rəyə göndərilməsinə çalışılmalıdır.

## ƏDƏBİYYAT

1.«Kommunist» qəzeti, 18 avqust 1941-ci il, № 201.

2. Qasımlı M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix–olduğu kimi (1920-1994-cü illər).–Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016.

3.Киракосян Дж. Западная Армения в годы первой мировой войны. Под редакцией проф. М.Г.Нерсисяна. – Ереван, Издательство Ереванского Университета, 1971.

4. Bax:Elçin Cabbarov. «Faşizm və ermənili», «Respublika» qəzeti, 11, 12 və 13 iyul 2017-ci il.

5. «The New York Times», 24 november, 1945.

6. «The Times», 24 november, 1945.

7. Нюрнбергский процесс. Сборник материалов в 8-ми томах. М.: «Юридическая литература», т. 3,1989.

8. «798 – PS». «1014-PS».

9. Киракосян Дж. Младотурки перед судом истории. / Ред. М.А. Гасратян, предисловие Г. Г. Азатяна, примечания Р.П.Кондакчяна, перевод с армянского Л. А. Казарян и С.П. Симоняна.– Ереван, Айастан, 1986.

10. Trial the major war criminals before the International Military Tribunal, vol. XXVI, Nuremberg 14 November 1945 -1 October 1946, published at Nuremberg, Germany, 1947.

11. Нота Народного Комиссара Иностранных дел тов. В. М. Молотова о чудовищных злодеяниях, зверствах и насилиях немецко-фашистских захватчиков в оккупированных советских районов и об ответственности германского правительства и командования за эти преступления. 27 апреля 1942 года. Москва. // «Правда», 28 апреля 1942 г., № 118.

UOT 94(479.24)

# AZƏRBAYCAN MİLLİ ŞURASININ 29 MAY 1918-Cİ İL TARİXLİ 3 SAYLI İCLAS PROTOKOLUNUN SİYASİ-HÜQUQU MAHİYYƏTİNƏ DAİR

***Rahib Əkbərov***
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*rahibekberli@gmail.com*

**Açar sözlər:** *hüquq mənbələri, kontinent hüququ, hüquqi varislik, icarə müqaviləsi, hüquqi denonsasiya, beynəlxalq hüquq, hüquqi prosedur, müqavilə hüququ, hüquqi kolliziya.*

Məqalədə Azərbaycan Milli Şurasının 29 may 1918-ci il iclasının 3 saylı Protokolunun siyasi-hüquqi məzmunu təhlil edilmişdir. İclasda, erməni milli şurasının xahişi əsasında İrəvan şəhəri yeni yaradılan Ermənistan Respublikasına verilməsi müzakirə edilmiş və müsbət qərar qəbul edilmişdir. Azərbaycan Milli Şurasının, bu Protokola səs vermiş üzvlərinin xoş məramlı niyyətlərinin qarşılıqında Ermənistanın qəsbkar mahiyyətini daim büruzə vermiş və hal-hazırda da davam etdirir.  Məqalənin yekunuda Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli iclasının 3 saylı Protokolunun ləğv edilməsi (denonsasiya), hüquqi prosedurlar çərçivəsində səlahiyyətli "Ləğvetmə Komissiyası" yaradılması və proses öyrənilməlsi və hüquq araşdırmanın nəticələri olaraq, Azərbaycan Respublikasının Milli Məclisinə müvafiq qərarın qəbul edilməsi təklif edilir. Müəllifin fikrincə, hüquqi prosedurların nəticəsi, beynəlxalq səviyyədə Azərbaycan Respublikasının haqlı mövqeyinin daha da, möhkəmləndirməsi imkanalrını artıracaqdır.

## REGARDİNG THE POLİTİCAL – LEGAL MERİTS OF THE PROTOCOL №3 OF 29TH MAY 1918 ASSEMBLY OF AZERBAİJAN NATİONAL COUNCİL

***Rahib Akbarov***

**Keywords:** *legal sources, continental law,  legal inheritance, renting contract, legal termination, international law, legal procedure, contract law, legal collision.*

On the article, the political – legal merits of the Protocol №3 of 29th May 1918 assembly of Azerbaijan National Council were analyzed. In the assembly on the base of Armenian national council's request, the annexation of the city of Iravan to new established Armenian Republic was discussed and the proposal was approved. As an answer to the goodwill intentions of Azerbaijan National Council that was in favor to the proposal, Armenia always showed their aggressor essence, and it still goes on. In the end of the article, the termination of the Protocol №3 of 29th May 1918 assembly of Azerbaijan National Council, creating Annulment Commission within legal procedure, researching all the process and as a result of a legal research, decision of relevant resolution were proposed to the Milli Majlis (parliament). Regarding to author, results of legal research will support the justified position of Azerbaijan on international level.

## О ПОЛИТИКО-ПРАВОВОЙ СУЩНОСТИ ПОТОКОЛА №3 ЗАСЕДАНИЯ НАЦИОНАЛЬНОГО СОВЕТА АЗЕРБАЙДЖАНА ОТ 29 МАЯ 1918 ГОДА

***Рахиб Акберов***

**Ключевые слова:** *источники права, континентальное право, правовое наследие, юридическая денонсация, международное право, юридическая процедура, договорное право, правовое коллизий.*

В статье анализируется содержание Протокола **№3** заседания Национального Совета Азербайджана от 29 мая 1918 го года. В заседании обсуждался, просьба армянского национального совета о передаче города Ираван вновь созданной Армянской Республики относительно которого было принято положительное решение. Взамен на добрые намерения членов Национального Совета Азербайджана, давшего согласия, сущность варворства Армении постоянно выступало наружу и которая продолжается до сегодняшнего дня. В конце статьи дается предложение о создании в рамках юридических процедур полномочной "Комиссии об отмене" и принятия соответствующего решения Национального Собрания Азербайджанской Республики об анулировании (денонсации) Протокола **№3** заседания Национального Совета Азербайджана от 29 мая 1918 года. По мнению автора, результаты юридических процедур еще раз укрепить справедливость Азербайджанской Республики в международной арене.

Azərbaycan Milli Şurasının fəaliyyətində ən ziddiyyətli məqam kimi xarakterizə edilən 1918-ci il 29 may tarixli 3 saylı iclas Protokolu, xüsusi araşdırma və geniş təhlil aparılmasını zəruri edən məsələləri əhatə edir. 2018-ci ildə 100 illik yubileyini qeyd etməyə hazırlaşdığımız Azərbaycan Xalq Cumhuriyyətinin yaranması xalqımızın çox əsrlik dövlətçilik tarixinin şərəf və qürur mənbəyidir. Təbii ki, bəşəriyyətin ən ali dəyər prinsiplərini hər şeydən üstün tutan Cümhuriyyət xadimləri belə bir ziddiyətli qərar vermişdilər. Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasında Milli Şuranın (Təsis Məclisi) əvəzsiz böyük rolu olmuşdur. İlk növbədə Milli Şura, Azərbaycan dövlətçiliyi tarixində çox böyük xidmətlər göstərmiş, Azərbaycan əhalisinin iradəsini ifadə edən təsisçi statusunda, ali mərkəzi hakimiyyət orqanı idi. Milli Şuranın yaranmasını şərtləndirən bir sıra amillər mövcud siyasi-ictimai, sosial-iqtisadi və hərbi vəziyyətlə diqtə edilirdi. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də elan etdiyi "İstiqlal Bəyannaməsi" Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və fəaliyyətinin prioritet istiqamətlərini müəyyən etmişdi. Ümumilikdə Milli Şuranın yaranması və onun üzvləri tərəfindən 6 bənddən ibarət Müstəqillik Aktının qəbul edilməsi hüquqi cəhətdən əsaslandırılmış legitim proses olmaqla, Azərbaycan əhalisinin iradəsini ifadə edirdi [1, s.9-10]. Belə ki, 1917-ci il noyabrın 26-28-də Ümumrusiya Müəssislər Məclisinə keçirilmiş seçkidə iştirak etmiş Azərbaycan əhalisi öz səlahiyyətli nümayəndələrini hüquqi əsaslarla bu ali orqana seçmişlər. Məhz Milli Şuranın tərkibinə daxil olan həmin səlahiyyətli nümayəndələr Azərbaycan xalqı qarşısında öz məsuliyyətlərini tam dərk edərək, bütün dünyaya Azərbaycan Xalq Cümhuriyyətinin (I Respublika) yaradılmasını bəyan etmişlər. Milli Şura F.X.Xoyskini birinci hökumətin baş naziri vəzifəsinə seçmişdir. Azərbaycan Milli Şurası və onun formalaşdırdığı ilk müvəqqəti hökumət ölkədə ictimai-siyasi vəhdətin təmin edilməsində dilindən, dinindən, cinsindən, silki mənsubiyyətindən və s. asılı olmayaraq bütün xalqların dövlət həyatının hər bir sahəsində iştirak etmələrini özünün əsas vəzifələrindən elan etmişdir. AXC-də müxtəlif dinlərin nümayəndələrinin rəsmi fəaliyyət göstərdiyi dini konvensiyaların, milli azlıqların və müxtəlif ictimai birliklərin multikultural dəyərlər əsasında fəaliyyətləri üçün bütün imkanlar yaradılmışdı. Qeyd etmək lazımdır ki, AXC-nin qanunverici və idarəetmə hakimiyyəti sistemində Azərbaycanda yaşayan xalqların nümayəndələri də təmsil olunmuşdu. Xüsusilə də, qanunverici orqanda ermənilər də daxil olmaqla, ayrı-ayrı etnik nümayəndələr iştirak etmişdi.

Milli Şuranın "İstiqlal Bəyannaməsi"nin hüquqi təbiəti, Şimali Azərbaycan ərazisində yaşayan Azərbaycan xalqının ümumi iradəsini ifadə etməklə, demokratik respublika quruluşuna əsaslanan hakimiyyətin yaradılması ilə şərtlənirdi. Azərbaycan Milli Şurasının elan etdiyi Cümhuriyyətın ərazi hüdudları Cənubi Qafqazın cənub və şərq sərhədlərini əhatə edir. Yəni, Şimali Azərbaycan xanlıqlarının, o cümlədən İrəvan xanlığının da daxil olduğu ərazilər

yeni varis dövlətin, yəni AXC-nin ayrılmaz tərkib hissəsidir. Türkmənçay müqaviləsində nəzərdə tutulan ərazi bölgüsünə müvafiq olaraq, yalnız Şimali Azərbaycan ərazilərində mövcud olmuş xanlıqlar və digər ərazi vahidləri, Cümhuriyyətin tərkib hissəsinə daxildir. Beləliklə, Bəyannamədə göstərilən ərazilər çərçivəsində müəyyən edildiyi kimi, Şimali Azərbaycanda mövcud olmuş xanlıqların hüquqi varisi, bilavasitə Azərbaycan Xalq Cümhuriyyətidir.

Dövlətlərin varisliyi [8, s.333] prinsipinə əsaslanaraq qeyd etmək olar ki, Cənubi Qafqazın Rusiya imperiyası tərəfindən işğal edilməsinə qədər nominal müstəqil olan və dövlət hakimiyyəti atributlarına malik olan Azərbaycan xanlıqları, o cümlədən İrəvan xanlığı, öz mövcud ərazi hüdudlarında yeganə hüquqi varis dövlətdir. Müasir beynəlxalq hüququn müəyyən etdiyi prinsiplərin [8, s.55-78] hüquqi normaları da, bu prosedurları bir daha təsdiq edir. Rusiya imperiyasının düşünülmüş quberniya inzibat-ərazi vahidləri sistemi isə milli inzibati-ərazi quruluşunun əsaslarını dağıtmaq, başqa xalqları müxtəlif bəhanələrlə bu ərazilərdə yerləşdirib məskunlaşdırmaqla, “milli inzibati-ərazi vahidlərini əritmək” və beləliklə, gələcək “parçalamaq” siyasətlərini asanlıqla həyata keçirmək məqsədi daşımışdır. Məqsədli şəkildə İran və Türkiyə ərazisindən bu yerlərə köçürülən ermənilər, əhali nisbətinin dəyişməsinə hesablanmış siyasəti təmin edirdilər. Rusiya imperiyasının işğalı nəticəsində Azərbaycan ərazilərinin məskunlaşdırılması çərçivəsində topaqların ermənilərə verilməsi mütəmadi prosesə çevrilmişdi. Bu proses isə, sanki Avropa kontinent hüququnda təsbit edilmiş “ölü əl hüququ”nun (“kilsəyə verilən topaqlar heç zaman geri qayıtmır”) analogiyası idi [5, s.64]. Yəni, tarixi faktlar sübut edir ki, məskunlaşmış ərazilər müxtəlif bəhanələrlə (inzibati-idarəçilik sistemində islahatlar və s.) bir-birinin ardınca Azərbaycan dövlətinin idarəçiliyindən çıxarılmışdır.

Azərbaycan torpaqlarının ermənilərə verilməsini rəsmiləşdirən Milli Şuranın 29 may 1918-ci il iclasında AXC-nin Nazirlər Şurasının sədri F.X.Xoyski məsələ ilə bağlı çıxış edərək, yığıncaq iştirakçılarına məlumat vermişdir [2, s.14]. Məlumata əsasən, erməni şurasının müraciəti əsasında mərkəzi şəhər statusunda İrəvanın erməni federasiyasına verilməsi müzakirə edilmişdir. Əslində, erməni şurası Cənubi Qafqazdan qərbdəki ərazilərdə yaradılmalı idi. Lakin, erməni şurası mürəkkəb şəraitlə əlaqədar və Zaqafqaziya Seyminin dağılmasından sonra bu məsələdə kömək göstərilməsi üçün Azərbaycan nümayəndə heyətindən xahiş etmişdir. Nəticədə Azərbaycan Milli Şurası erməni şurasının şifahi müraciətini səsverməyə çıxararaq, onların istəyini 16 nəfər lehinə, 1 nəfər əleyhinə və 3 nəfər bitərəf qalmaqla yerinə yetirmişdi. Torpaqların “peşkəş” edilməsini rəsmiləşdirən hüquqi aktda əvəzsiz istifadə hüququnun hər hansı bir müddəti: müvəqqəti, daimi və ya keçid dövrü (müqavilə hüququnun iki mühüm elementi: qiymət və müddət göstərilməyib) üçün verilməsi təsbit edilməyib. Belə olduğu halda, şifahi razılaşma əsasında əvəzsiz istifadə (icarə) hüququ yaranır. Təbii ki, Milli Şuranın qərarı narazılıqla

qarşılanmış, xüsusilə də, İrəvan quberniyasının Azərbaycan təmsilçilərinin çox ciddi etirazına səbəb olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti ali hakimiyyət orqanının qərarı erməni, gürcü və Türkiyə nümayəndələrinin nəzərinə çatdırılmışdı. Milli Şuranın 3 saylı iclasının Protokolu ilə təsdiq edilmiş çox kobud və səhv qərar tarixən təşəkkül tapmış status kvonu dəyişmiş, dövlət varisliyi hüququnda yalnız İrəvan xanlığının əhalisinə aid edilən hüquqlar mənimsənilmiş, AXC hökuməti yerli əhalinin rəyini nəzərə almadan, bu hüquqları öz səlahiyyətləri çərçivəsinə daxil edərək, İrəvan şəhərini erməni şurasına güzəşt etmişdir.

Milli Şuranın F.X.Xoyskinin sədrliyi ilə keçirilən 3 saylı iclası və onun Protokolunun hüquqi məzmunu və mahiyyətinın təfsir edilməsi Azərbaycan Respublikası tərəfindən onun denonsasiyası üçün, qanunvericilik bazasının prosessual təminatının bütün qanuni əsaslarının tətbiq olunmasının hüquqi üsul və vasitələrini müəyyən edir. Belə ki, hüquqi cəhətdən təfsir edilən Protokolun məzmun və hüquqi konstruksiya elementlərinə müvafiq olaraq, burada əvəzsiz istifadə hüququ yaranır ki, istifadə hüququnun obyekti isə İrəvan şəhəri, daha dəqiq İrəvan quberniyasının ərazisidir. Öhdəlik hüququndan məlumdur ki, kontraktların bağlanmasının literal (yazılı) və verbal (şifahi) formaları müqavilə hüququ münasibətlərinin əsas tənzimetmə üsuludur. Verbal (şifahi) müqavilələr, bilavasitə ifadələrin tələffüz edildiyi andan hüquqi qüvvəyə minir və "əllərin sıxılması" ilə sanki təsdiqini ("möhürlənməsini") tapır. Roman-german hüquq sistemində qarşı tərəfin əsas razılığını təmin edən və uyğun gələn cavabın verilməsi vasitəsilə ifadə olunan şifahi müqavilə, stipulyasiya adlanır. Konkret bəhs etdiyimiz hüquqi prosedur üzrə stipulyasiya (şifahi) müqaviləsinin bütün hüquqi konstruksiya elementlərindən istifadə olunmuşdur.

Mülkiyyət hüququ mülkiyyətin əldə edilməsinin ilkin və törəmə üsullarını müəyyən edir. Konkret bəhs etdiyimiz hal üzrə, ilkin mülkiyyət hüququna sahiblik İrəvan əhalisinin səlahiyyətlərinə aiddir. Törəmə üsulla əldə edilən hüquq isə əvvəlki mülkiyyətçinin hüquqlarına əsaslanır. Bir məsələni də qeyd etmək lazımdır ki, İrəvan əsilzadələrinə məxsus bu ərazilərin əzəli mülkiyyətə sahiblik hüququnun məzmunu ilə Bakı quberniyasında mülkiyyət hüququ əldə etmiş sahibkarların varisliyinın hüquqi məzmunu arasında fərqlər çox böyükdür. Çünki, birinci halda sahiblik hüququ əzəli (torpaq) mülkiyyətlə, ikinci halda isə, məlum Bakı neft sənayesinin XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərindəki sürətli inkişafı ilə əlaqədar olaraq dünyanın ayrı-ayrı dövlətlərindən gəlmiş müxtəlif millətlərin nümayəndələrinin (məs: Nobel qardaşları və s.) əldə etdikləri mülkiyyətə törəmə sahiblik (sonradan, törəmə əldə edilmiş) hüququ ilə bağlı idi. Beləliklə, İrəvan quberniyası üzrə varis mülkiyyətçi və eyni zamanda mülkiyyətə sahiblik (sahibliyin iki mühüm elementi var: əşyanın özü və ona sahib olmaq üçün niyyətin, iradənin olması) hüququnda yalnız İrəvan quberniyasının əhalisi çıxış edir. Digər tərəfdən ortada hüquqi prosedur

qaydalara əməl edilməklə yazılı (literal) təsbit edilən rəsmi dövlət sənədi - Milli Şuranın iclas Protokolu mövcuddur. Yəni sübuta ehtiyacı olmayan danılmaz hüquqi fakt rəsmiləşdirilmişdir. Beləliklə, İrəvan quberniyasının erməni milli federasiyasına verilməsi nəinki şifahi (verbal) razılaşma əsasında müəyyən edilmiş, eyni zamanda yazılı (literal) Protokolla rəsmiləşdirilmişdir. Qeyd etmək lazımdır ki, əşyaya olan hüquqlar içərisində, mülkiyyət hüququ ən geniş istifadə olunun hüquqdur. Ümumiyyətlə isə, əşya hüquqlarına mülkiyyət (o cümlədən torpaq) və özgə əşyalarına hüquqlar aid edilir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinə müvafiq olaraq, icarə müqaviləsi əmlak kirayəsi müqaviləsidir. Mülki Məcəllənin 36-cı fəslində, "Əvəzsiz istifadə müqaviləsi" anlayışından bəhs edilir. Bu fəslin 732-ci maddəsinə görə, əvəzsiz istifadə müqaviləsi hər hansı əşyanı kirayəyə verən onu kirayəçinin istifadəsinə verməyi öhdəsinə götürür və özü də bu öhdəlikləri, tərəflər (kontragentlər) əvəzsiz icra edir [4, s. 410-412]. Mülki Məcəllənin 737-ci maddəsində isə "Əvəzsiz istifadə müqaviləsi üzrə hüquq münasibətlərinə vaxtından əvvəl xitam verilməsi" qaydaları təsbit edilmişdir. Bu maddəyə əsasən əşyanı kirayəyə verən fiziki və ya hüquqi şəxs aşağıdakı hallarda razılaşmaya xitam verə bilər:

1) kirayəçi əvəzsiz istifadəyə verdiyi əşyaya gözlənilməz hallar nəticəsində ehtiyac duyduqda;

2) kirayəçi əşyadan müqavilənin şərtlərini pozmaqla istifadə etdikdə:

a) o cümlədən üçüncü şəxslərin istifadəsinə verdikdə;

b) və ya kirayəçinin kifayət qədər vicdanlı olmaması üzündən əşya mühüm təhlükəyə məruz qaldıqda ləğv edilə bilər.

Beləliklə, verildiyi andan ermənilərin bu torpaqlara sahibliyi qanunsuz (çünki, hüquqi varis olan İrəvan şəhəri əhalisinin rəyi öyrənilməyib), həm də vicdansız sahiblikdir (çünki, ermənilərin bütün sonrakı davranışları bunu təsdiq edir). Eyni zamanda, erməni tərəfinin bu razılaşmanı inkar etməsini əsaslandıracaq heç bir arqumentləri yoxdur. Milli Şuranın iclasında təsbit edilidiyi kimi, erməni federasiyası ilə, nəyinki şifahi (verbal) razılaşma mövcud olub, eyni zamanda bu razılaşma (əvəzsiz istifadə hüququnun yaranması) iclas Protokolunun yeganə və əsas məzmununu təşkil edir. Bu razılaşma hüquqi məzmunu və mahiyyətinə görə ssuda müqaviləsinə də oxşardır (hüquqi analogiya). Ssuda müqaviləsinə görə əşya müvəqqəti və əvəzsiz digər subyektə istifadə üçün verilir. İstifadə qurtardıqdan sonra əşya tam və toxunulmaz geri qaytarılır. Məhz əvəzsiz istifadəyə verilən şifahi razılaşmanın obyekti İrəvan xanlığının torpaqlarıdır. Əvəzsiz icarə (istifadə) elementlərinə malik olan şifahi razılaşma, hətta literal (yazılı) torpaq icarə müqaviləsi kimi verilmiş olsaydı belə, 99 il müddət başa çatdıqdan sonra (hətta, vicdanlı istifadəçi olduğu təqdirdə də) xitam olunur. Avropa kontinent hüququnda mülkiyyətin icarə verilməsi müddətini müəyyən edən presedentin (qanunvericilik təcrübəsinin)

hüquqi əsasları isə Fransa Təsis Məclisinin 29 sentyabr 1790-cı ildə qəbul etdiyi qərarla tənzimlənir [3, s.619]. Bu qərara görə, tipik feodal hüququ institutundan qalma mülkiyyətin "əbədi" icarəyə verilməsi qadağan edilir və icarənin maksimal müddəti 99 il müəyyən edilirdi. Beləliklə, əsrlər boyu feodal hüququnun müəyyən etdiyi "ölü əl hüququ", "majorat" və s. bu kimi mülkiyyətə "əbədi" sahib olmaq qaydaları ləğv edilirdi.

Beynəlxalq hüquqda ərazilərin dövlətə məxsus olması prinsipi, özündə dövlətlərin ərazi bütövlüyünü ehtiva edir. Eyni zamanda beynəlxalq hüquq dövlət ərazilərində dəyişikliyin hüquq əsaslarını müəyyən edən bir sıra institutları da tanıyır. Məsələn, dövlət ərazilərində dəyişikliyin könüllü güzəşt edilməsinin "sessi" adlanan hüquq institutu məlumdur. Roma hüququndan tanış olan və "sessi" adlanan "hüququnun güzəşti" öz hüquqi konstruksiyasına görə subyektin tələb hüququnu könüllü olaraq digər subyektə güzəşt etməsini müəyyən edir [7, s.536]. Müasir beynəlxalq hüquqda dövlətin ərazilərinin könüllü olaraq digər dövlətə güzəşt edilməsi, yəni "sessi" adlanan [6, s.299] hüquq institutu vasitəsi ilə tənzimlənməsi qaydaları mövcuddur. Bundan əlavə, dövlət ərazilərindən "güzəşt" edilməsinin tranzit və ərazilərin icarəyə verilməsi institutunda da reqlamentləşdirilmişdir. Belə ki, beynəlxalq hüquq müəyyən hallarda bir dövlətin digər dövlətin ərazilərindən həmin dövlətin razılığı ilə tranzitini və ya onun bir hissəsini icarə götürülməsini mümkün hesab edir. Təbii ki, Milli Şuranın Protokolunda nəzərdə tutulan güzəştli ("sessi") "könüllülük" xoş məramdan qaynaqlanır və suveren dövlətin öz ərazisini güzəşt etməsi, hər iki dövlətin birgə əməkdaşlıq və ya konfederativ maraqlarını nəzərdə tuturdu. Hal-hazırda AXC-nin "sessi" institutunun tarixi-siyasi varisi Azərbaycan Respublikasıdır və məhz, tələb hüququ ona məxsusdur. Ərazilərin verilməsi ilə nəticələnən "güzəştdən" imtinanın vaxtı isə çoxdan çatıb.

İrəvan şəhərinin erməni şurasına güzəşt edilməsi, yəni hüquq münasibətlərində yaranan neqativ və pozitiv hüququn realizasiyası, hüquqi səlahiyyətlərin və prosedur qaydaların pozulması ilə müşayiət olunmuşdu. Çünki, neqativ hüquqlar mütləq rəy nəzərə alınmaqla realizə edilməlidir. Bu rəy sorğusu keçirməklə və ya hüquqi varislə bilavasitə əldə olunan anlaşma-razılıq vasitəsilə həyata keçirilməli idi. Sadəcə olaraq ifadə etsək, Azərbaycan üçün hər hansı pozitiv hal yaranmır, əksinə neqativ, yəni ərazilərin itirilməsi ilə nəticələnən hüquqi "sessi" (güzəşt) yaranır. Məlumdur ki, pozitiv hüquqlar (vəziyyəti yaxşılşdıran) istənilən hallarda təqdir olunur. Keçmiş İrəvan xanlığının ərazisinin dolayısı hüquqi varisi olan Azərbaycan Milli Şurası, səlahiyyət hədlərindən kənara çıxaraq, ərazilərin verilməsi ilə nəticələnən və hüquqi varisin (İrəvan xanlığı və onun əhalisinin) rəyini öyrənmədən, qəbul etdiyi qərar neqativ hüquqdur və İrəvan əhalisinin mülkiyyət hüquqlarının əleyhinə olan birbaşa kobud hüquq pozuntusudur. Yaranmış vəziyyətdə problem obyektiv və düzgün şərh edilməli, İrəvanın varisliyi və xanlığın əhalisinin milli tərkibi

nəzərə alınmaqla hüquqi varislik təmin edilməlidir. Ümumiyyətlə, Zaqafqaziya Seymində Azərbaycan və gürcü nümayəndələri ilə birlikdə ermənilərin də təmsil olunmaları, problemin yaranmasına gətirib çıxaran səbəblərdən biridir.

Fəaliyyətinə xitam verilmiş və ya hər hansı səbəbdən süqut etmiş dövlətlərin (imperiyaların və digər dövlətlərin) əmlaklarının və ərazilərinin hüquqi rejiminin varislik və müvafiq pay bölgüsü əsasında müəyyən edilməsi, beynəlxalq hüququn tənzimetmə obyektinə daxildir (yaxın keçmişdə, SSRİ-nın, Çexoslovakiyanın əmlaklarının bölünməsi kimi). Bu proses bilavasitə subyektlər arasında qarşılıqlı razılaşmaya müvafiq olaraq, ikitərəfli və çoxtərəfli müqavilələr əsasında müəyyən edilir. İrəvan xanlığının işğalını rəsmiləşdirən, onu vassal asılılığına məcbur edən müqavilənin (Rusiya imperiyası tərəfindən imzalanmış Türkmənçay sazişi) müddəaları kontekstində prosesin həll edilməsi, yeganə ədalətli və düzgün hüquqi prosessual qaydaları müəyyən edir. Çünki, İrəvan xanlığının işğalının nəticəsi olaraq, onun müstəqilliyinə xitam verilmiş, xanlığın inzibati-ərazi vahidləri hüdudlarında sonralar quberniya yaradılmışdır. Beləliklə, imperiyanın süqut etməsi səbəbindən, yəni Türkmənçay sazişinin subyektlərindən birinin mövcudluğuna xitam verildiyinə görə, müqavilə hüququnun obyekti olan İrəvan xanlığının, yəni əzəli varisin hüquqları mübahisəsiz təmin olunmalıdır.

Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli 3 saylı Protokolunun legitimliyi əsaslandırılmamış, beynəlxalq və milli hüquq normalarına tamamilə zidd qərardır və müvafiq prosedurlar qaydasında qüvvədən salınmalıdır. Azərbaycanın dövlətçilik tarixində mühüm rola malik olmuş və böyük əhəmiyyət kəsb edən Milli Şuranın İrəvan şəhərinin əvəzsiz icarə əsasında ermənilərə güzəşt etməsi, bağışlanılmaz addım idi. Digər tərəfdən, İrəvanın acı taleyi ermənilərin gürcü və azərbaycanlılarla birlikdə Zaqafqaziya Seymində eyni statusda təmsil olması ilə yanaşı, yeni dövlətlərin beynəlxalq aləmdə legitimlik əldə etmək, tanınmaları üçün qarşılıqlı hörmət, sülh içində dinc yanaşı yaşamaq istəyi, demokratik-sivil dövlət qurmaq niyyəti ilə bağlı idi. Eyni zamanda Birinci dünya müharibəsinin gerçəklikləri kontekstində baş vermiş proseslərin ağır nəticələrinin zərbələri Azərbaycan xalqının böyük itkilər verməsinin əsas səbəblərindən biri olmuşdur.

Hüquq normalarının təfsir edilməsinin yekunu olaraq qeyd etmək lazımdır ki, roman-german hüquq sistemi əsasında tənzimlənən mülkiyyətin icarə əsasında əldə edilməsi və ona sahiblik hüququna xitam verilməsi müddəti, müqavilədə digər hallar nəzərdə tutulmayanda maksimum 99 il müddət üçün müəyyən edilir. 2017-ci il 29 may tarixində bu müddət başa çatıb. Azərbaycan Respublikasının da istifadə etdiyi roman-german hüquq sistemində, vaxtilə Roma patrislərinin istinad etdikləri kivrit hüququna görə, məhkəmə qaydasında mansipasiya edilmiş əzəli roma torpaqları yalnız "əbədi" hesab edilirdi. Zaman keçdikcə nəinki kivritlərə məxsus torpaqlar, eyni zamanda digər torpaq

mülkiyyətinə icarə əsasında sahiblik hüququnun müddətləri (30 il) müəyyən edilmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi, son orta əsrlər Avropa kontinent hüququnda da feodal torpaq sahibliyinin icarə müddəti maksimum 99 il təsbit edilmişdir. İrəvan xanlığının daxil olduğu torpaqların həqiqi sahibi bu ərazilərdə yaşayan Azərbaycan xalqıdır. Bu torpaqlara sahiblik hüququnu müəyyən edən hüquqi sənəd isə, xanlığın işğalını rəsmiləşdirən çar Rusiyası ilə İrəvan xanlığına dair imzalanmış müqavilədir (Türkmənçay razılaşması). Azərbaycan xanlıqlarını ardıcıl işğal etmiş Rusiya imperiyası bu ərazilərə münasibətdə sanki sahibsiz, heç kimə məxsus olmayan (roma hüquqünun təsbit etdiyi: atmosfer, hava, dəniz suyu və s. heç kimin sahibliyində olmayan ümumi mülkiyyət kimi) ərazilər kimi davranmışdır. Belə ki, Rusiya imperiyası işğalının ilk dövrlərindən başlayaraq Azərbaycan torpaqlarına İrandan, Türkiyədən və başqa ərazilərdən erməniləri köçürmüş, sonralar isə malakanlar, almanlar və digər xalqların nümayəndələrini bu ərazilərdə məskunlaşdırmışdır. Yeri gəlmişkən, imperiya siyasətinin məkrli planlarına daxil olan müasir anklav-ərazi institutu da gələcək parçalamaq məqsədlərinə xidmət etmişdir.

Yekun olaraq, 1920-ci ilin yanvarında dünyanın böyük dövlətləri tərəfindən de-fakto tanınmış AXC və onun tarixi-siyasi varisi olan müstəqil Azərbaycan Respublikasının ali qanunverici orqanı olan Milli Məclis Azərbaycan Milli Şurasının 29 may 1918-ci il 3 saylı Protokolunu denonsasiya (fransızca: pozmaq) etməli və BMT-nin üzvü olan dövlətlərə öz qərarını bəyan etməlidir. Bunun üçün hüquqi prosedurlar çərçivəsində səlahiyyətli “Ləğvetmə Komissiyası” yaradılmalı, proses öyrənilməli və hüquqi araşdırmanın nəticələri Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməlidir. AXC-nin tarixi-siyasi varisi kimi “sessi” institutu (tələb hüququnun güzəşti), yəni prosessual tələb hüququ, Azərbaycan Respublikasının səlahiyyətlərinə daxildir və bu hüquqdan beynəlxalq hüquq çərçivəsində istifadə edilməlidir. Hüquqi prosedurlar çərçivəsində aparılan araşdırmalara əcnəbi ekspertlərin cəlb edilməsi presedentindən istafədə olunmalıdır. Eyni zamanda ATƏT-in Minsk qrupunun üzvləri ilə danışıqların gedişində Azərbaycanın öz əzəli torpaqlarını ermənilərə güzəşt etməsi nəzərə çatdırılmalıdır. Zaqafqaziya Seyminin azərbaycanlı təmsilçilərinin və eyni zamanda Azərbaycan Milli Şurasının bu Protokola səs vermiş üzvlərinin xoşməramlı niyyətlərinin qarşılığında Ermənistanın qəsbkar mahiyyəti aşkar edilməlidir. Azərbaycan Milli Surasının Ermənistan qarşısında heç bir hüquqi öhdəliyi yoxdur və nə dövlət daxili hüquqda (milli hüquqda), nə də beynəlxalq hüquqda (üst-milli hüquqda), Azərbaycan Milli Şurasının 29 may 1918-ci il 3 saylı Protokolunun ləğv edilməsinin (denonsasiyasının) qarşısını alan heç bir hüquqi məhdudiyyət qaydaları təsbit olunmamışdır. Protokolun hüquqi məzmununa müvafiq olaraq aşağıdakı müqavilə növləri: a) əvəzsiz istifadə hüququ; b) torpaq icarə (istifadə) hüququ; c) tələb hüququnun güzəşti (“sessi”); d) ssuda müqaviləsi (müvəqqəti və əvəzsiz istifadə) hüquqi

konstruksiya kimi tövsiyə olunur. Göstərilənləri nəzərə alaraq aşağıdakılar təklif edilir:

1. Azərbaycan Respublikasının Milli Məclisi Milli Şuranın 29 may 1918-ci il 3 saylı iclas Protokolunun 99 ilinin tamam olması ilə əlaqədar xüsusi Bəyanatla çıxış etsin.
2. Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Ləğv etmə" Komissiyası yaradılsın və onun tərkibinə yerli ekpertlərlə yanaşı, əcnəbi mütəxəssislər də cəlb edilsin.
3. Azərbaycan Respublikası hökuməti Milli Şuranın 29 may 1918-ci il 3 saylı iclas Protokolunun denonsasiyası hüquqi prosedurlara uyğun təmin edilsin.
4. Beynəlxalq hüquq normalarına müvafiq olaraq Ermənistana qarşı İrəvan xanlığı əhalisinin hüquqi varisliyinə dair iddia tələbi qaldırılsın.

Beləliklə, təklif olunan hüquqi prosedur qaydalar iddia tələb hüququnun yaranması ilə yanaşı, beynəlxalq səviyyədə Azərbaycan Respublikasının haqlı mövqeyinin daha da möhkəmlənlənməsinə şərait yaradacaqdır.

## ƏDƏBİYYAT


1. Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Законодательные акты: Баку, издательство «Азербайджан», 1998, 560 с.
2. Азербайджанская Республика (1918-1920 гг.). Документы и материалы. Баку: издательство «Элм», 1998, 616 с.
3. История государства и права зарубежных стран. Часть 2. (под общей ред. д.ю.н. проф. О.А.Жидкова и д.ю.н. проф. Н.А.Крашенниковой). М., 2004. 720 с.
4. Azərbaycan Respublikasının Milkü Məcəlləsi. "Hüquq ədəbiyyatı" nəşriyyatı. B., 2006. 776 s.
5. R.A.Əkbərov. Müasir hüquq sistemləri. Dərslik. "Qanun" nəşriyyatı. B., 2014. 700 s.
6. Международное право. Учебник (под. ред. д.ю.н. проф. Н.Т.Блатова). «Юридическая литература». М.,1979. 584 s.
7. Д.В. Дождев. Римское частное право. Учебник для вузов. «Норма». М., 2005. 784 s.
8. Международное публичное право. Учебник (под. ред. д.ю.н. проф. К.А.Бекяшева). «Проспект». М.,1999. 640 s.
9. "Rusiya və Zaqafqaziya qanunlarının müvəqqəti qüvvədə saxlanılması barədə" 23 iyun 1918-ci il tarixli hökumət qərarı /Azərbaycan Respublikası DA: f.100, siy. 2, iş 7, v. 5.
10. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası. Bakı: Lider nəşriyyatı, I cild, 2014, 440 s.

**UOT 338+94(479.24)**

# XX ƏSRİN 70-80-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN SSR-İN YUXARI (DAĞLIQ) QARABAĞ REGİONUNDA İQTİSADİ VƏZİYYƏTƏ DAİR

***Xəyyam Orucov***
*Gəncə Dövlət Universiteti*

**Açar sözlər:** *Azərbaycan, Yuxarı (Dağlıq) Qarabağ regionu, DQMV, iqtisadiyyat, sosial-iqtisadi*

Tədqiqatlar göstərir ki, XX əsrin 70–80-ci illərinin əvvəllərində Azərbaycan SSR-ın, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Qarabağ regionunun iqtisadiyyatı böyük inkişaf dövrü keçmiş, əhalinin maddi rifahı da durmadan yaxşılaşmışdır. Azərbaycanın regionlarının inkişafı nəticəsində keçən əsrin 70-ci illlərində sənayeyə, çoxsahəli kənd təsərrüfatına, mürəkkəb sosial quruluşa malik DQMV-nin inkişafına xüsusi diqqət yetirmişdir. Lakin əsassız torpaq iddiaları irəli sürən ermənilər bu inkişafı gizlətməyə çalışmışlar.

# ON THE ECONOMIC SITUATION OF GARABAGH REGION OF THE AZERBAIJAN REPUBLIC 70-80 S OF THE XX CENTURY

***Xayyam Orujov***

**Keywords:** *Azerbaijan, Upper (Mountainous) Garabagh region, the DGAR, economy, social and economic.*

Nagorno-Karabakh of Azerbaijan SSR In 1970-1980, positive changes happened in socio-economic life of the population in the DGAR of Azerbaijan SSR, dynamical development continued.

In order to pave the way for their unfounded territorial claims the Armenian ideologists, as a rule, have carried out campaigns through making fabrications about the intolerable socio-economic situation in the DGAR, and organization of all this deliberately, ostensibly by the Azerbaijani government.

# О ЭКОНОМИЧЕСКОМ ПОЛОЖЕНИИ В РЕГИОНЕ ВЕРХНЕГО (НАГОРНОГО) ГАРАБАХА АЗЕРБАЙДЖАНСКОЙ ССР 70-80 ГГ. XX ВЕКА

***Хайям Оруджов***

**Ключевые слова:** *Азербайджан, регион Верхний (Нагорный) Гарабах, НКАО, экономика, социально-экономической жизни.*

В социально-экономической жизни населения НКАО Азербайджанской ССР в 1970-1980-е годы происходили положительные изменения, продолжался процесс динамического развития.

Своими необоснованными территориальными претензиями армянские идеологи развернули кампанию лжи против правительства Азербайджана, обвиняя ее в заведомой организации невыносимости социально-экономического положения НКАО.

Məlum olduğu kimi, tarixi hadisələr əsasən müəyyən bir dövrdə yaranan proseslərin nəticəsində baş verir. Belə ki, SSRİ-nin dağılması ilə qlobal dəyişikliklərin başlanması, yeni dövlətlərin yaranması və müstəqil inkişaf yolu tutduğu bir dövrdə respublikalar arasında qurulan siyasi, iqtisadi, mədəni əlaqələr pozitiv inkişafın bünövrəsini qoydu. Lakin bəzi respublikalar, xüsusilə də Ermənistan öz siyasətini qonşu dövlətlərə qarşı əsassız iddialarla qurdu. Azərbaycana qarşı ermənilərin Dağlıq Qarabağla bağlı zaman-zaman davam edən ərazi iddiaları nəticəsində münaqişə yenidən qızışdırıldı. Erməni ideoloqları bu iddiaya əsas yaratmaq üçün DQMV-də sosial-iqtisadi vəziyyətin dözülməz olması və bunun Azərbaycan hökuməti tərəfindən qəsdən təşkil edilməsi kimi uydurma kampaniyalar aparmağa başladılar. Bu mənfur siyasətdə uzaq hədəflər də nəzərdə tutulmuşdu. Bütün bu kimi problemlərə aydınlıq gətirmək üçün XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-in Yuxarı (Dağlıq) Qarabağ regionunun iqtisadi həyatında baş verən müsbət məcrada inkişafa diqqət edək.

Tədqiqat göstərir ki, XX əsrin 70–80-ci illərinin əvvəllərində Azərbaycan SSR-ın, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Qarabağ regionunun iqtisadiyyatı böyük inkişaf dövrü keçmiş, əhalinin maddi fifahı da durmadan yaxşılaşmışdır. Bu, ilk növbədə Azərbaycan KP MK-nın 1969-cu il 14 iyul tarixli plenumunda Heydər Əliyevin Azərbaycan KP MK-nın Birinci katibi seçilməsi ilə əlaqədar idi [1, s.191]. Belə ki, 1969-cu ildən etibarən respublikamızın siyasi, sosial-iqtisadi və mədəni həyatında inkişaf dövrü başlamışdır. Həmin tarixi dövrü Heydər Əliyev belə qiqmətləndirirdi: “1970-1985-ci illər

Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu dövr baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin sturuktur islahatlarının xarakterinə, xalqın maddi rifahının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə...Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur... Həmin dövrdə qəbul olunmuş proqramın həlli yollarında böyük iş aparmağa başlayan fəhlə və kolxozçular, respublika ziyalıları iqtisadiyyat və mədəniyyətin bütün sahələrində xalqın maddi və mənəvi baxımından artan tələbatının təmin olunması işində çox yüksək nəticələr əldə etmişlər. Müharibədən sonrakı dövrlərdə ilk dəfə olaraq, doqquzuncu və onuncu beşilliklər üçün xalq təsərrüfatının inkişaf planları vaxtından əvvəl yerinə yetirilmişdir" [2, s.18].

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyevin yürütdüyü uğurlu iqtisadi siyasət həyatın bütün sahələrində olduğu kimi sosial-iqtisadi sahədə də böyük inkişafın əsasını qoymuşdur. O, sənaye və kənd təsərrüfatının intensiv inkişafı üçün SSRİ hökümətinin 5 xüsusi qərar qəbul etməsinə, SSRİ dövlətinin büdcəsindən xeyli vəsaitin ayrılmasına nail olmuşdu.

Azərbaycanın regionlarının inkişafını daim diqqət mərkəzində saxlayan Heydər Əliyev keçən əsrin 70-ci illlərində sənayeyə, çoxsahəli kənd təsərrüfatına, mürəkkəb sosial quruluşa malik DQMV-nin inkişafına xüsusi diqqət yetirmişdir. Vilayətin inkişafı üçün 14 il ərzində (1971-1985) 483 mlyon manat maliyyə vəsaiti ayrılmışdır ki, bu, əvvəlki on beş ildəkindən 2,8 dəfə çox idi [3, s.23].

XX əsrin 70- 80-ci illərinin əvvəllərində Azərbaycan SSR üzrə regionların xalq təsərrüfatına ayrılan maliyyə vəsaitinin həcminə görə DQMV Bakı və Sumqayıt şəhərlərindən sonra üçüncü yerdə olmuşdur [4, s.500]. Təəssüf ki, erməni ideoloqları əsassız ərazi iddialarına haqq qazandırmaq, öz xeyirlərinə ictimai rəy yaratmaq üçün "Dağlıq Qarabağ problemi" uydurmaqla cəfəng bir təbliğat istiqaməti seçdilər. Bu, guya Azərbaycan hökumətinin ermənilərə ögey münasibəti nəticəsində DQMV-də iqtisadi vəziyyətin və sosial şəraitin dözülməz hala düşməsinin səbəbkarı olmasına inandırmaq üçün göstərilən cəhddən ibarət idi. Tədqiqatlar göstərir ki, bunlar şər, böhtan xarakterli təbliğatdan başqa bir şey deyildir. Həmin dövrdə DQMV adambaşına düşən kapital qoyuluşunun həcminə görə Respublikanın digər regionlarından irəlidə idi. 70-cı illərdə DQMV-də sənaye dinamik inkişaf yolu keçmiş, hər il əsaslı vəsait qoyuluşu 30-35 milyon manat olmuşdur [5, s.100].

Ümumiyyətlə, Azərbaycan SSR-də XX əsrin 70-80-cı illərində 218 yeni sənaye müəssisəsi istifadəyə verilmişdir ki, bundan 15-i DQMV-nin payına düşürdü [6, s.42].

Üümumi inkişafın nəticəsi idi ki, DQMV-də yaradılmış sənaye müəssisələri sırasında mühüm yer tutan Xankəndi tikinti materialları kombinatı

1978-ci ildən etibarən hər il yüksək göstəricilər qazanmış, 32 dəfə müxtəlif diplomlara layiq görülmüşdü [7].

XX əsrin 70-cı illərində Azərbaycan SSR-də yerli xammal resurslarından hazır məhsullar istehsalının genişləndirilməsinə başlanmış, bu zaman DQMV-də ipək parça məhsullarının istehsalı gücləndirilmişdir. Azərbaycan SSR-də ikinci olan Qarabağ İpək Kombinatının Vilayətin müxtəlif yerlərində filalları açılmışdı [8]. 1971-1975-ci illərdə kombinatda 29016 min manatlıq məhsul istehsal olunmuşdur [9, s.260]. Həmin dövrdə Respublikanın ipəkçilik sənayesi məhsulunun təxminən 25 %-i DQMV-nin payına düşürdü. DQMV-də yüngül sənayenin bu sahəsinin inkişafı nəticəsində fəhlə sinfi formalaşmış, fəal sosial infrastruktur əlaqələri yaranmışdı [10, s.60].

Araşdırmadan məlum olur ki, 1970-1980-ci illərdə DQMV-nin inkişaf edən sənaye strukturunda Xankəndi elektrotexnika zavodu mühüm yer tutmuşdur. Zavod Azərbaycan hökuməti tərəfindən yeni maşın və texnika ilə təmin edilmiş, zavodda kompleks şəkildə mexanikləşdirmə və avtomatlaşdırma həyata keçirilmişdir. Bu da zavodun yüksək keyfiyyətli məhsul əldə etməsinə səbəb olmuşdur [11, s.86].

DQMV-də bəhs etdiyimiz dövrdə sənaye sahəsinin bir neçə yerli istehsal müəssisələri də yaradılmışdır ki, bunlardan xüsusi əhəmiyyəti olan Şuşa Şərq musiqi alətləri fabriki idi. Fabrikin məhsulları xüsusən Orta Asiya respublikalarına, o cümlədən İran, İraq və Əfqanıstan kimi xarici ölkələrə ixrac olunurdu [11, s.97].

Sözügedən dövrdə DQMV-də dinamik inkişaf edən sənaye sahələrindən biri də şərabçılıq sahəsi olmuşdur. Azərbaycan dövlətinin ayırdığı vəsait hesabına DQMV-də 5 yeni şərab zavodu tikilib istifadəyə verilmiş, onların sayı 10-a çatdırılmışdır [12, s.40].

Xankəndi şəhərində müasir avadanlıqlarla təchiz olunmuş iri mebel fabriki və onun 70-ci illərdə bir neçə filialı yaradılmışdı. Fabrikdə təkcə 1970-ci ildə 1 mlyon 891 min manatlıq məhsul istehsal edilmişdi. Bu fabrik SSRİ ərazisində ixtisaslaşdırılmış böyük müəssisələr sırasına daxil idi.

Azərbaycan SSR DQMV-nin inkişaf edən sənaye müəssələrindən biri də Xankəndi tikiş fabriki idi. 1975-ci ildə fabrikdə ümumi məhsul istehsalının həcmi 91,6 %-dən, 1977-ci ildə 103,8 %-ə qalxmışdı [13]. Həmin müəssisədə yüksək əmək haqqı alan çoxsaylı fəhlə və mütəxəssis işlə təmin olunmuşdu. Keyfiyyətli məhsul istehsalına və plan tapşırıqlarını yerinə yetirdiklərinə görə Xankəndi tikiş fabriki işçiləri dəfələrlə nazirlik və həmkarlar təşkilatı tərəfindən mükafatlandırılmışdır.

DQMV-də 70-ci illərin əvvəllərində Xankəndi xalçaçılıq fabriki yaradılmışdı. Burada istehsal olunan xalçalar dünya bazarlarında çox baha qiymətə satılır və vilayətin büdcəsinə böyük gəlir gətirirdi. 70-ci illərdə

DQMV-də 2000 $m^2$ xalça istehsal edilmişdi [14, s.272]. Fabrikin xalça məmulatlarının çoxu yüksək keyfiyyət nişanı ilə təqdim olunurdu [15].

DQMV tikinti xammal materialları ilə zəngin olduğu üçün burada inşaat materialları sənayesinin müəssisələri yaradılmışdı. DQMV-nin ərazisində 1975-1980-ci illərdə yeni taxta-şalban, kərpic, kiramid və əhəng sexləri qurulub istifadəyə verilmişdi [16, s.46]. Bu sexlər daha çox gəlir gətirdiyi üçün erməni millətindən olanların daha kompakt şəkildə məskunlaşdığı şəhərlərdə - Xankəndi, Ağdərə və Hadrud rayonlarında tikilib istifadəyə verilmişdi [4, s.500].

Xüsisi olaraq qeyd etmək lazımdır ki, mərmər, tuf, qranit, felizit, əhəng-daşı və başqa qiymətli, nadir tikinti materialları ehtiyatı olan Dağlıq Qarabağ regionunda yeni sənaye müəssisələri - karxanalar açılmışdı. Həmin karxanalar müasir texnika ilə təchiz edilmişdi.

DQMV-də 1970-1980-cı illərdə 1300 $m^2$ yüksək gərginlikli elektrik xətti çəkilmiş, ərazi Azərbaycanda üçtərəfli elektrik təchizatı olan yeganə regiona çevrilmişdi [17, s.80].

Sərsəng SES-ın tikilməsi 70-ci illərdə DQMV-də görülən işlərdən biri idi. Sərsəng su anbarı dünyanın ən hündür bəndlərindən biri idi. Bu SES hər il 125 milyon kilovat saat elektrik enerjisi istehsal etməklə Cənubi Qafqazın vahid energetika sistemində mühüm rol oynayırdı [18, s.90-91]. Təəssüf ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bu təsərrüfat sistemini pozdu. Hətta bu su anbarını Ermənistan hökuməti Azərbaycan Respublikası əhalisi üçün təhdid alətinə çevirməkdən belə çəkinmədi.

70-ci illərdə Heydər Əliyevin şəxsi təşəbbüsü nəticəsində Azərbaycan SSR-in Qarabağ regionunda sənaye dinamik şəkildə inkişaf etmiş, əhalinin sosial vəziyyəti lazımi səviyyəyə çatmışdı. Lakin DQMV-nin erməni rəhbərliyi regionda yaşayan azərbaycanlıların sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına, intellektual səviyyəsinin yüksəldilməsinə hər vasitə ilə mane olmuş, bu da azərbaycanlı əhalinin sosial vəziyyətinə mənfi təsir göstərmişdir.

Regionun iqtisadi həyatının mühüm sahələrindən biri də kənd təsərrüfatıdır. XX əsrin 70-ci illəri Qarabağ regionunun kənd təsərrüfatının inkişafında xüsusi dövr təşkil edir. Bu onunla bağlıdır ki, 1969-1982-ci illərdə respublikada iqtisadiyyatın başqa sahələrində olduğu kimi kənd təsərrüfatı da inkişaf yoluna qədəm qoymuşdur. İstehsalın elmi əsaslar üzrə yenidən qurulması kənd təsərrüfatının yeni nailiyyətlər qazanmasına şərait yaratmışdı. Kənd təsərrüfatının intensivləşdirilməsi və təkmilləşdirilməsi sahəsində aparılan ciddi islahatlar Dağlıq Qarabağ regionunun da dinamik inkişafının əsasını qoydu. Azərbaycan SSR-in bir sıra rayonlarında, həmçinin DQMV-də iqtisadi dəyişikliklər baş verdi. Bu özünü xüsusilə kənd təsərrüfatında göstərdi. DQMV-də taxılçılıq, üzümçülük, heyvandarlıq təsərrüfatının inkişafı aparıcı sahələr

olmuşdur. Dağlıq Qarabağ ərazisində istehsal olunan məhsulların yarıdan çoxunu - 57 %-ni bitkiçilik, 43 %-ni heyvandarlıq təşkil etmişdir [19, s.127].

Azərbaycan hökümətinin Dağlıq Qarabağ regionunun kənd təsərrüfatının inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə (su təsərrüfatı və melorasiya tədbirlərinə böyük məbləğdə dövlət təxsisatı nəzərə alınmadan) xüsusi diqqət yetirməsinin böyük rolu olmuşdur. 70-ci illərdə bu bölgəyə Azərbaycan dövləti 171 milyon manatdan çox vəsait ayırmışdır [20, s.206].

1970-ci ildə Xankəndi Süd Kombinatında tikinti, yenidənqurma işlərinə ayrılan əlavə vəsait hesabına (52,4%) məhsul istehsalı xeyli yüksəlmişdir. 1970-ci ildə 550 ton mal-qara yağı, 557 ton pendir və yağlı brinza istehsal olunmuşdur [10, s.61].

XX əsrin 70-ci illərində Azərbaycan SSR-in DQMV-nin iqtisadi inkişafı əhalinin sosial şəraitinin yüksəlməsinə də şərait yaratmışdır. Qeyd edilən dövrdə DQMV-də əhalinin hər nəfərinə düşən real gəlir 80 %-dən çox olmuşdur [21]. 70-ci illərdə muxtar vilayətin fəhlə və qulluqçularının orta aylıq əmək haqqı 1,5 dəfə artmışdır. Əmək haqqının ardıcıl olaraq yüksəldilməsi DQMV-də əhalinin real gəlirinin artmasında əsas rol oynamışdır. Vaxtilə Azərbaycan KP MK-nın rəhbərliyi altında DQMV-nin iqtisadi və sosial inkişafı üçün konkret vəzifələr irəli sürülmüş və əhalinin rifah halının yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilmişdir. Əmək şəraitinin yaxşılaşdırılması nəticəsində DQMV-də fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 70-ci illərdə 60-cı illərdən fərqli olaraq 60 manatdan 125,1 manata qalxmışdır. DQMV-in sənaye müəssisələrində, kolxoz və sovxozlarında aylıq əmək haqqının miqdarı daha yüksək olmuşdur [22, s.112, 130].

Beləliklə, 1970-1980-ci illərdə Azərbaycan SSR-in DQMV əhalisinin sosial-iqtisadi həyatında müsbət dəyişikliklər baş vermiş, dinamik inkişaf prosesi davam etmişdir. Bütövlükdə Qarabağ regionunun, xüsusilə Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin məişətində, maddi rifahında yüksəliş baş vermişdir. Belə ki, əhalinin mənzillə təminatı və mənzil şəraiti, təsərüfatları yaxşılaşmış, pul gəlirləri artmış, alıcılıq qabiliyyəti, ticarət, ictimai-iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Yeddi cilddə. Yeddinci cild (iyun 1941-2002-ci il). Bakı, Elm, 2003.
2. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin astanasında. Bakı, Yeni nəşrlər evi, 2001.
3. Səmədzadə Z.Ə. Dağlıq Qarabağ: Naməlum həqiqətlər. Bakı, 1995.

4. Məmmədov N.R. Azərbaycan SSR-in Dağliq Qarabağ Muxtar Vilayəti (1923-1991). Bakı, Təhsil, 2008, 566 s.
5. «Sovet Dağlıq Qarabağı» (Lenin milli siyasətinin təntənəsi), Bakı, 1983.
6. Народное хозайство Азербайджанской ССР в 1985 году. Статический ежегодник.Баку, 1986, с. 83; Dağlıq Qarabağ Muxtar Vilayəti 50 ildə. Bakı, Azərnəşr, 1973.
7. «Советский Карабах» газ. 13 июнь 1983 г.
8. Народное хозайство Азербайджанской ССР за 60 лет. Статический сборник. Баку, 1980.
9. DQMV İpək Kombinatının illik hesabatı. Bakı, 1976.
10. Səmədzadə Z.Ə. Dağlıq Qarabağ: Naməlum həqiqətlər. Bakı, 1995.
11. Sovet Dağlıq Qarabağı (Lenin milli siyasətinin təntənəsi). Bakı, 1983.
12. Sovet Dağlıq Qarabağı (Lenin milli siyasətinin təntənəsi). Bakı, 1983.
13. Dağlıq Qarabağ Muxtar Vilayəti 50 ildə. Bakı, Azərnəşr, 1973.
14. Народное хозайство Азербайджанской ССР к 70 лет Великого октября. Баку, 1987.
15. Hacıyev Q.Ə. Qarabağın maddi və mənəvi mədəniyyəti (Azərbaycan, ingilis, fransız dillərində). Bakı, 2010.
16. Народное хозайство Азербайджанской ССР к 50 лет СССР. Баку, 1972.
17. Sovet Dağlıq Qarabağı (Lenin milli siyasətinin təntənəsi). Bakı, 1983.
18. Народное хозайство Азербайджанской ССР к 70 лет Великого октября. Баку, 1977.
19. İmanov R.C. Sosialist dağlıq Qarabağı. Bakı, 1961.
20. Əliyev H.B. Azərbaycan SSR iqtisadi coğrafiyası. Bakı, 1963.
21. «Советский Карабах» газ. 9 май 1980 г.
22. İmanov R.C. Azərbaycanın ərazi bütövlüyünə qəsd - qondarma DQMV-i. Bakı, 2005.

**UOT 94(479.24)+902**

# СВЯТИЛИЩА ГОБУСТАНА

***Малахат Фараджева***
*Институт Археологии и Этнографии НАНА*
*malahat@mail.ru*

**Ключевые слова:** *Гобустан, святилища, Гара атлы, Софи Новруз, Софи Хамид, Йель пири, Хури гызлары, Беюкдаш, Кичикдаш, захоронения, курганы.*

В-третьих, карачаевцы потеряли статус «титульной национальности» к идеологеме «двойной этничности» - представитель народов Северного Кавказа, карачаевец - добивалось название - спецпоселенец. Это относилось и к другим - чеченцам, ингушам, немцам, крымским татарам и т.д.

Фактически в каждом карачаевце нарастал личностно-ролевой конфликт, что вело к усилению беспокойства, нарастанию чувства обиды и др. Отняв исконную территорию, разбросав народ по всем республикам Азии, лишив прав передвижения (самый реакционный вид оружия), а тем самым и возможности общаться между собой - государственная национальная политика обрекла народ на жесткую ассимиляцию. Далее, всем были выданы паспорта со штампом: имеет право проживать только в таком-то населенном пункте. За выезд из населенного пункта без особого письменного разрешения, именуемого официально «Пропуском», в соседний населенный пункт на базар или в больницу карали самым строгим образом: за первый случай сажали в карцер, а при повторном случае отдавали под суд. Только за 1944 г. чеченцы, ингуши, карачаевцы и балкарцы потеряли 23,7 % населения, крымские татары, болгары, греки и армяне - 19,6 %, калмыки - 17,4 %, турки, курды - 14,6 % [5].

Какое достойное терпение нужно было иметь, чтобы выдержать в течение 12 лет это беспримерное попрание прав ни в чем не повинных людей! В одной и той же очереди стояли и карачаевцы - члены правящей

партии, и карачаевцы - бывшие офицеры Советской Армии, и старики и старухи - родители погибших на фронте героев, и инвалиды Отечественной войны. Дело в том, что, слово «спецпоселенец» обезличивало буквально все: и национальность, и партийную принадлежность, и заслуги перед Родиной!

Тем временем отважно громили фашистов О. Касаев, Х. Богатырев и другие герои СССР. Как раз в 1943 г. звание Героя Советского Союза было присвоено Х. Богатыреву. За годы Великой Отечественно войны более девяти тысяч карачаевцев отдали жизнь за свободу Родины. Многие карачаевцы, как представители "наказанных народов", не получили заслуженные награды и звания. По данным исследователей только к высокому званию Героя Советского Союза были представлены 25 карачаевцев. Их дела застопорились в особых отделах частей и соединений по причине принадлежности бойцов к репрессированному народу, некоторые войны представлялись к присвоению звания Героя неоднократно [6].

Для того чтобы уяснить себе в полной мере истинную трагичность положения всего народа, нужно иметь в виду, что все это рассматривалось Сталиным с позиций защиты интересов рабочего класса, интересов трудового народа, интересов победы социализма и коммунизма.

При широчайшей рекламе социалистического интернационализма в СССР, развертывались процессы прямо противоположного характера - уничтожались этносы, нации - геноцид. Такая национально-социалистическая политика повлияла на характер межнациональных отношений и заложила истоки национальных конфликтов 1990-х годов.

Жесткие условия проживания в местах ссылки, отсутствие элементарных социально-бытовых условий, массовый голод, частые вспышки инфекционных заболеваний, тяжелый женский и детский труд, постоянное нервно-эмоциональное напряжение ссыльных, репрессивный характер надзора за народом повлекли за собой массовую смерть среди карачаевцев, ослабление генофонда и здоровья выживших [7].

Депортация карачаевцев, балкарцев, чеченцев и ингушей в 1943-1944 гг. не может быть оправдана ни одним из доводов государства, приводимых в официальных документах тех лет. Конфессиональная (религиозная) принадлежность не являлась в депортациях определяющим обстоятельством. Совпадение этнического и религиозного факторов в «отборе» народов, подвергшихся депортации, следует рассматривать как явление вторичное в сравнении с политической лояльностью. Вместе с тем, государство вело направленную политику разрушения социо и этнокультурных основ высланных народов, что наряду с нарушением родовых связей, дисперсным расселением по огромной территории и

связями должно было рано или поздно поставить их перед фактом ослабления этнического единства, связанного с опасностью последующего исчезновения. Это обстоятельство позволяет квалифицировать действия советского государства в отношении репрессированных народов как дискриминацию по этническому признаку [8, с.27-33].

9 января 1957 года, в связи с реабилитацией карачаевцев, Карачай вновь стал частью воссозданной Карачаево-Черкесской автономной области в составе Ставропольского края. При этом, соединение в одном субъекте черкесов и карачаевцев имело целью взаимное сдерживание национализма. Этот же принцип использовался при создании Чечено-Ингушетии и Кабардино-Балкарии. Но восстанавливалась не Карачаевская автономная область, а образовывалась Карачаево-Черкесская автономная область в составе Ставропольского края РСФСР по Указу Президиума ВС РСФСР. Таким образом, два высших органа верховной власти лишали народ прежней формы национально- государственного образования [9].

Вся трагедия депортации и слабости механизма реабилитации заключается в том, что политико-правовые и юридические их основы этнополитический и этнопсихологический должным образом не прорабатывались и с учетом возможных отрицательных последствий не просчитывались. Вседозволенность властей перекладывалась на этническую психологию, уродуя основные принципы советской и социалистической идеологии и природу братского единства и дружбы народов, которая еще больше крепла в годы тяжелой борьбы с общим врагом - германским фашизмом. Режиссеры антиконституционных и античеловеческих акций объективно работали на разрушение десятилетиями созданного великого братства народов, основы всех побед над врагами человеческой цивилизации [10].

Декларация ВС СССР «О признании незаконными и преступными репрессивных актов против народов, подвергшихся насильственному переселению, и обеспечении их прав» (от 14 ноября 1989 года), его же Постановление об отмене законодательных актов в связи с этой Декларацией (от 7 марта 1991 года) и Закон РСФСР «О реабилитации репрессированных народов» (от 26 апреля 1991 года) - еще до конца не действуют. Основополагающая ст.6 не работает. Более того, больше всего она вызывает нападок со стороны завладевших чужими землями и территориями некоторых этносов - малых и больших. Так, до сих пор не восстановлена отдельная автономия карачаевцев, а ингушам не возвращена существенная часть ранее принадлежавшей им территории. Не восстановлены до конца административно-территориальное деление и топонимика балкарцев, чеченцев-аккинцев, калмыков, а главное - до сих пор не восстановлены как таковые национальные автономии крымских

татар и немцев Поволжья. Некоторые из конфликтных территорий уже обильно политы слезами и кровью. Пора остановиться и выйти на правовое поле и на основе существующих конституционных норм и законов окончательно преодолеть старые и новые противоправные действия некоторых субъектов, вовлеченных в тяжбу [11]. Еще в 1993 году (1-2 ноября) в г. Карачаевске на 11 Всероссийской научной (к 50-летию депортации карачаевского народа) в докладе по теме «Репрессированные народы: кардинальные пути их полной реабилитации» автор этих строк утверждал, что полная реабилитация репрессированных народов должна идти по двум главным направлениям: государственной и этнопсихологической. Были внесены следующие предложения [12].

Принять новый Закон РФ «О полной и окончательной реабилитации репрессированных народов», где предусмотреть четкий и взвешенный механизм его неукоснительного исполнения по точному восстановлению прежних границ национально-государственных образований, в местах тогдашнего расселения депортированных народов, по возмещению ущерба, причиненного государством, возвращению жилищ и построек, садов и огородов, которые были закреплены за выселенцами как их имущественное право собственников, в отличие от переселенцев бесплатно ими завладевшими.

В связи с 50-летием депортации народов развернуть в общегосударственном масштабе информационную кампанию по снятию клеветы с репрессированных народов, принести Президенту или высшему законодательному органу извинения за террор и насилия, устроенное над народами, клятвенно заявив, что подобное не может повториться для любого народа многонациональной России.

## ЛИТЕРАТУРА

1. Антология карачаево-балкарской литературы. – Анкара, 2002.-302 с.
2. Антология карачаевской поэзии. [XVIII-XX века]. Москва: «Эльбрусоид», 2006.-294 с.
3. Биджиев Х.Х.-М. Хумаринское городище. – Черкесск, ПОСТ-ПРЕС, 1983. -148 с.
4. Вайнштейн О.Л. Западноевропейская средневековая историография. М.: Мысль,1964. 204 с.
5. Историография истории СССР / Ред.: В.Е. Иллерецкий и И.А. Кудряшов. М.: Старт, 1971. 2-е изд. -308 с.

6. Калаханова (Борлакова) З.М. Последствия депортации в сфере образования и проблемы культурной реабилитации карачаевцев. Сборник статей научной конференции. Алиевские чтения. г. Карачаевск: Изд-во КЧГПУ, 1998. -56 с.

7. Калаханова (Борлакова) З.М. Развитие культуры народов Карачаево-Черкесии в середине XX века. Международная научно-практическая конференция «Проблемы монголоведных и алтаистических исследований». КГУ, Элиста: Изд-во КГУ, 2009. - 100 с.

8. Калаханова (Борлакова) З.М. Культурная реабилитация карачаевского народа. Сборник статей преподавателей исторического факультета КЧГПУ. г. Карачаевск: Изд-во КЧГПУ, 1999. 27-33 с.

9. Калаханова (Борлакова) З.М. Очерки истории духовной и материальной культуры народов Северного Кавказа 14-21 вв. Том первый. Глокализация и развитие народного образования и науки на Северном Кавказе (во второй половине 20 начале 21 вв.). Ставрополь: ООО «Губерния», 2014.- 212 с.

10. Янова М.В. История изучения Великой степи. М, 2012. Артамонов М.И. Труды Волго-Донской экспедиции. МИА.1958. - № 62; 1958. - № 75; 1953. - № 109.

11. Калаханова (Борлакова) З.М., Янова М.В. Восстановление и развитие духовной культуры репрессированных народов после возвращения на этническую Родину: модернизация межэтнического взаимодействия народов Северокавказского региона (на примере карачаевского народа) 1956-2000 гг. Том первый. Биобиблиографическое исследование в 2-х томах. Элиста: ИКИАТ, 2016 - 176 с.

12. Калаханова (Борлакова) З.М., Янова М.В. Восстановление и развитие духовной культуры репрессированных народов после возвращения на этническую Родину: модернизация межэтнического взаимодействия народов Северокавказского региона (на примере карачаевского народа) 1956-2000 гг. Том второй. Биобиблиографическое исследование в 2-х томах. Элиста: ИКИАТ, 2017- 178 с.

UOT 94 (479.24)

# AĞQOYUNLU BƏYLİYİNİN YARANMASI VƏ FORMALAŞMASI

***Leyli Həmidova***
*Azərbaycan Dövlət İqtisad Univeristeti*

**Açar sözlər:** *Bayandurlar, Dədə Qorqud, Uzun Həsən, Amid türkləri*

XV əsrdə Azərbaycan siyasi təkamülünün yeni mərhələsinə qədəm qoyur. Bu dövrdə Azərbaycanda dövlətçilik ənənələrinin inkişafında oğuz türk tayfalarının fəaliyyəti xüsusilə diqqəti cəlb edir. Məqalədə IV-VII əsrlərdən Azərbaycanda məskunlaşan oğuz - türk tayfalarının Azərbaycanın və Şərqi Anadolunun siyasi tarixində mühüm rol oynaması nəticəsində Ağqoyunlu bəyliyinin qurulması prosesi işıqlandırılır.

# THE FOUNDATION AND DEVELOPMENT OF AGHGOYUNLU STATE

***Leyli Hamidova***

**Keywords:** *Bayandurs, Dede Korkut, Uzun Hasan, Amid turks*

1 In XV century Azerbaijan entered the new stage of their political evolution. At this period, the role oguzs tribes in the development of the state tradition was especially noticeable.The article investigated the proses of formation of Akkoyunlu state in which a special role played oguzs-turks tribes that inhabited Azerbaijan.

# ОБРОЗАВАНИЕ И ФОРМИРОВАНИЕ БЕГСТВА АККОЮНЛУ

***Лейли Гамидова***

**Ключевые слово:** *Байандуры, Дада Горкут, Узун Гасан, Амидские турки*

В XV веке Азербайджан вступил в новый этап политической эволюции. В этом периоде особенно заметна роль огузских племен в развитии государственных традиций. В статье был исследован процесс

образования государства Аггоюнлу, в котором особую роль сыграли огузские-тюркские племена населявшие Азербайджан

Ağqoyunluların Bayandurlar adı ilə adlanması onların oğuz tayfaları içərisində yer alan Bayandur boyundan gəlməsi ilə əlaqədardır. Ağqoyunlu tayfa birliyinin əsasını qoyan Bayandur xan Oğuz xanın nəvəsi kimi mənbələrdə qeyd olunur. Mahmud Qaşqarlı Divani Lügəti-Türk əsərində Bayandur tayfasını oğuz boyları sıralamasında üçüncü yerdə göstərmiş və Bayandurlar damğasını vermişdir. Rəşidəddin də boyun adını Bayandur olaraq göstərmiş və mənasını "daima nemətlə dolu olan yer" adlandırmışdır [4, 7].

Mahmud Qaşqarlı 24 boydan ibarət olan Oğuz qövmünün əsasının hər oğlundan olan dörd nəvəsi ilə başladığını qeyd edir. Bilindiyi kimi, Oğuz xanın üç oğlu Gün, Ay və Ulduzdan on iki nəvəsi (boy) sağ, Göy, Dağ və Dənizdən olan on iki nəvəsi də sol qolu təşkil edir. Oğuz xan hakimiyyəti təmsil edən yayı birincilərə, tabeçiliyi ifadə edən oxu da ikincilərə vermişdi. Oğuz bəyləri də boylarının siyasi və hüquqi münasibətləri yayla ox münasibətlərinə görə olduğundan sağdakı Boz Oklar soldakı Uç-Oklardan üstün sayılmış, yəni Uç-Oklar Boz-Oklara tabe olmuşlar.

Azərbaycanda və Anadoluda Oğuz fenomeninin tarixi təzahürünü anlamaq üçün "Oğuznamələr" və "Dədə Qorqud" dastanı bizə əhəmiyyətli şəkildə kömək edir. Rəşidəddinə görə, Qorqud Kayı İnal xanın və onun atası Sır Yağmurun, daha sonra isə üç hakimin müşaviri olmuşdur. Bəzi mənbələrə görə, Bayandur xan və Qazan xandan sonra oğuzların xaqanı Qorqud Ata olmuşdur. Eyni zamanda Dədə Qorqudun X-XI əsrlərdə yabquların paytaxtı olan Yenikənd şəhərində oturduğu da iddia edilir [9, 523]. Dastanda yer alan coğrafi adlar və hadisələr Arsaklarla Şərqi Anadoluya gəlib yerləşən bu Oğuz boylarının qəhramanlıq hekayələrini əhatə edir.Bu hekayələrdən sözü gedən Oğuz qrupu içində bayandur, salur, bəkdüz və bayat boylarının yer aldığı, Oğuz xanı Bayandur xanın Həmədanda, kürəkəni və Şərqi Anadolu bəylərbəyi olan Salur Qazan xanın isə Akçaqala/Sürməlidə oturduğu anlaşılmaqdadır [4, 366].

Ağqoyunlu tayfalarının mənşəyi ilə bağlı məlumatı Ağqoyunlu tarixçisi Əbu Bəkr Tehrani "Kitabi - Diyarbəkriyyə" əsərində ətraflı işıqlandırır. Müəllif "Uzun Həsənin ulu babası Qara Yuluq Osmandan başlayaraq Ağqoyunlu tayfa ittifaqının başçılarının bir - bir adlarını saymaqla, 52-ci arxa dönənindən etibarən Oğuz xana qədər Ağqoyunluların Oğuz, yəni türkmən elinin Bayandur boyundan bir sülalə olduğunu göstərir.

Məlumatlara əsasən, Oğuz xanın nəvəsi Bayandur xan kiçik qardaşı "Beçənəqi" Sayramda öz yerinə Türküstana canişin qoyduqdan sonra, özü Qarabağ və Göyçə yaylaqlarına gəlmiş, ölkəsini oğlanları arasında bölüb, dünyadan köçmüşdü.

F.Kırzıoğlu Əbu Bəkr Tehraninin verdiyi məlumata əsasən, Oğuzların Bayandur boyuna mənsub olan Ağqoyunluların VII əsrdə Türküstandan Qıpçaq ölkəsinə, oradan isə Azərbaycana gələrək Alagöz dağı ilə Göyçə gölü sahillərində yerləşdiklərini, Əlincə qalasına sahib olduqlarını və sonralar Alağöz-Göyçə gölü, Əlincə bölgəsindən Diyarbəkrə köçdüklərini göstərir [7, 525].

Ağqoyunluların mənşəyi məsələsində Türkiyə tarixçiləri onların hunlarla əlaqələrinin olması fikrinə üstünlük verirlər. Z.V. Toğan "Oğuz dastan "nına əsasən qeyd edir ki, Bayandurilər digər hun tayfaları kimi V əsrin 60-cı illərində Qafqaz Dərbəndi yolu ilə Azərbaycana daxil olmuş və Göyçə-Van gölü bölgəsində yerləşmişlər. Müəllif IV əsrdən etibarən Azərbaycanın cənub-qərb ərazisində məskunlaşmış Ağ hunlarla Ağqoyunlular arasında əlaqə olduğunu qeyd edir.

Z.V.Toğanın yazdığına görə, türklər Anadoluda Səlcuqlar zamanında ilk dəfə yerləş- mişlər. Qitənin şimalında Bozok, cənubunda Uçok boylarının yaşadığı məlumdur. Türklərin böyük hissəsi oğuzlar idi. Bütün oğuz boylarının yalnız köçəri olanlar deyil, Türküstanda oturaq olanlar da Anadoluya gəlmişlər. Şərqi və Cənub-Şərqi Anadoluda böyük sosial dəyişikliklər 1185-ci ildən başlanmışdır. Şərqdən davamlı olaraq Anadoluya gəlib Bizans ordularına və xaçlılara qarşı savaşan türkmənlərin sayı getdikcə artmışdı. Bunun nəticəsində Kür, Araz, Dəclə və Fərat sahilləri tamamilə türkmənlərlə dolduğu kimi, bütün Orta Şərq türkləşmiş və islamı qəbul etmişdi. Mənbələrə əsasən, gürcü kraliçası Tamara zamanında Azərbaycandakı türkmənlər dənizdəki qumlar qədər qələbəlik imiş və Gürcüstana axınlar həyata keçirmişlər. Məhz bu türkmən kütləri Anadolu və Azərbaycan coğrafiyasında qurulan müxtəlif dövlətlərin əsas ünsürünü təşkil etmişlər.

F.Kırzıoğlu Bayburtlu Osman Əfəndinin öz əsərində istifadə etdiyi "Bəhrül-ənsaba" əsaslanaraq yazır ki, Bayandurlar eramızın ilk əsrlərində Xorasandan gələrək Azərbaycanın cənub-qərbində yerləşmiş, Dəmirqapı Dərbəndi ələ keçirmiş, doqquz tümən Gürcüstan bəylə- rindən xərac almışlar. M.Ə.Seyfəddini hesab edir ki, Ağqoyunlu tayfa birliyi öz mənşəyini oğuz-türkmən tayfasının Səbuktəkin nəslindən almış və Orta Asiyadan XI və XIII əsrlərdə qərbə köç edərək, Azərbaycanın qərb hissəsində məskunlaşmışlar. Lakin Azərbaycan tədqiqatçılarının əksər hissəsi ağqoyunluların VI əsrin sonunda və VII əsrin əvvəllərində Qarabağda, Göyçə gölü ətrafında, Alagöz yaylaqlarında yaşadıqları qənaətindədirlər [2, 35].

Ağqoyunlu tayfa birləşməsinin başında Bayandur tayfası dururdu və Ağqoyunlu sülaləsi Oğuzların Bayandur boyuna mənsub olduğu üçün hökmdarları Həmzə bəydən etibarən pullarına, fərmanlarına, bayraqlarına Bayandur boyunun damğasını qoymuşlar. Ağqoyunlu tayfa birliyində müstəqil Ağqoyunlu tayfası olmamışdır. İttifaq 39 tayfadan təşkil edilmişdi. Tayfa

birliyində Bayandur boyu ilə yanaşı, Oğuzların Bayat, Dögər, Çepni, İnnalı boylarının Azərbaycanın cənub - qərbində və Şərqi Anadoluda yaşayan tayfalar, sonradan həmin ərazilərdə Cagirlu, Ərəbkirlu, Biçən, Düharlu, Bayramlu, Hacılu, Mosullu, Pornək, Qoca Hacılu, Uzun Həsənin Qaraqoyunlular üzərindəki qələbəsindən sonra Əfşar, Sədlu, Ağmalu, Qacar, Alpaut, Ağaçəri və Qaramanlı tayfaları daxil olmuşlar. Bu tayfalarla yanaşı Ağqoyunlu tayfa birləşməsinə Şeyxlu, Əhmədli, Təbanlu, Heydərlu, Emirlu, İzzəddin Hacılu, Çavundur, Həmzə Hacılu, Yurdçu, Süleyman Hacılu, Dodurğa, Karqın, Baydilli, Candaroğulları, İsfendiyari, Bozdoğanlılar, Mamaşlu, Miranşahi kimi Oğuz-türkmən tayfalarının daxil olduğunu görürük [2, 28].

Bu tayfaların ən böyüyü Pornək və Mosullu tayfaları olmuşlar. Pornək tayfası ilk dəfə 1421-ci ildə Qara Yulluq Osman bəyin Qaraqoyunlu İsgəndər bəy ilə mübarizəsində Kuh Əhməd Pornək adının çəkilməsi ilə bağlıdır. Qara Yulluq Osman bəyin ölümündən sonra Ağqoyunlu bəyliyində hakimiyyət uğrunda mübarizədə iştirak edən Həmzə bəy və Şeyx Həsənə dəstək verdikləri mənbələrdən məlum olur. Sonrakı dövrdə Uzun Həsən hakimiyyət uğrunda apardığı mübarizədə bu tayfanın dəstəyini həmişə hiss etmişdi.

Mosullu tayfası isə Ağqoyunlulara Diyarbəkr və onun ətrafında hakimiyyət uğrunda mübarizə apardıqları dövrdə onlara qatılmışlar. Mosullu tayfasının adı 1436-cı ildən bəri çəkilmir, lakin bu tayfanın 1451- ci ildə Uzun Həsənin müdafiə etmiş başlıca qüvvə olduğu və Uzun Həsənin teymuri hökmdarı Əbu Səidlə apardığı mübarizədə Mosullu Əmir bəy və qardaşı Sufi Xəlil bəyin mühüm rol oynadığı məlumdur. Mosullu və Pornək tayfaları Səfəvilər dövründə “Türkmən” adı altında birləşək öz varlıqlarını qoruyub saxlaya bilmişlər.

Bəzi İran mənbələrinə əsasən, Ağqoyunluların Türküstandakı Ceyhun çayı bölgəsindəki Qazgurd dağlarından çıxıb Mərkəzi Asiyaya gəldikləri, monqolların 1220-ci ildə buranı işğal etməsindən sonra Azərbaycana və Anadoluya köç etdikləri bildirilir. Məlumdur ki, Monqolların işğallarından sonra bəzi türkmən tayfalarının Anadoluya yerləşməsi baş vermişdir [5, 8].

Ağqoyunlular 1300-cü ildə Amid (indiki Diyarbəkr) şəhərini ələ keçirmişlər. Şəhər əvvəlcə türkləşmiş Monqol bəylərinin hakimiyyəti altında olmuşdu. Ağqoyunlular Elxanilərə, Cəlairilərə, Qazi Bürhanəddinə, Məmlüklərə və Teymurilərə tabe olmuşlar [7, 243].

Anadolu Səlcuq dövlətini süquta uğradan Monqol hakimiyyətinin Anadoluda zəifləməsi nəticəsində ortaya çıxan bəyliklərdən biri olan Ağqoyunlu bəyliyinin ilk öndəri Tür Əli bəy olmuşdur. Atası Pəhləvan bəydən sonra Ağqoyunluların başına keçmiş və Elxanilər dövlətinə bağlı olaraq Diyarbəkr mərkəz olmaqla İraq və Suriya sərhədlərinə nəzarət etmişdir. Mənbələrdə ağqoyunlulara ilk dəfə 1340-cı ildə rast gəlinir. Tur Əli bəy və ona bağlı türkmənlər haqqında məlumat verən qaynaq yunan tarixçisi Panaretos

olmuşdur. Ağqoyunluların adı 1340-cı ildə yunan Trabzon dövlətinə qarşı həyata keçirdikləri hücumları zamanı çəkilmişdir. Təkrar hücumlar 1343-cü ildə həyata keçirilmişdir. Panaretos onları Amid türkləri adlandırmışdır [10, 45].

Monqolların zəifləməsi ilə güclənən Türkmən bəyləri daha sərbəst hərəkət etməyə başlamışlar. Ağqoyunlu Tur Əli bəy, Bayburt hakimi Mahmud Rikabadar və Ərzincan hakimi Qiyasəddin Ahi Ayna bəy 1348-ci ildə ittifaq yaradaraq Trabzon-Yunan dövlətinə qarşı mübarizəyə başlayırlar. İmperator III Alexios bu ittifaqdan qorxaraq nigah diplomatiyasından istifadə etmək qərarına gəlir. Bacısı Mariyanı Tur Əli bəyin oğlu Qutlu bəylə evləndirir. İmperator həmçinin münasibətləri daha da istiləşdirmək məqsədilə digər bacısını da Ordu bölgəsinin hakimi Bayram bəyin oğlu Hacı Əmirə verir. Nəticədə həqiqətən 1360-cı ilə qədər Trabzona hücumlar dayandırılır. Tür Əli bəyin 1361-ci ildə öldüyü güman edilir. Lakin qaynaqlarda dəqiq tarixə rast gəlinmir.

Ağqoyunlular əvvəlcə Amid bölgəsində yaşayırdılar. Sonradan nisbətən Ərzincan tərəflərinə çəkilmişlər. Tur Əli bəyin ölümündən sonra iqtidara Qutlu bəy gəlmişdir. Bu dövrdə Ağqoyunluların Trabzon imperatorluğu ilə münasibətləri daha da istiləşmiş, hətta III Aleksios digər bacısını Qutlu bəyin oğlu Qara Yulluq Osman bəyə vermişdir. Ağqoyunlular 1402-ci ildə baş vermiş Ankara döyüşünə qədər Anadoluda oturaq həyat tərzi keçirmədən yaşayırdılar.

Qutlu bəyin dövründə ağqoyunlular Mutahharəddin və Qazı Burhanəddin ilə ittifaq bağlamışdı. Bu dövrdə Eretna bəyliyi Sivas mərkəz olmaqla Toqat, Qayseri,Malatya və Ərzurum bölgələrində öz hakimiyyətini genişləndirirdi. 1380 - ci ildə hökmdar Əlləddin bəyin ölməsi ilə hakimiyyətə 8 yaşlı oğlu gəldikdə oğuzların Salur boyundan olan Qazı Bürhanəddin hakimiyyəti faktiki olaraq ələ keçirir. Şərq - Qərb ticarət yolları üzərində yerləşən Ərzincanda hakimiyyəti əlində saxlayan Mutaharəddin Bürhanəddinə qarşı mübarizə aparırdı. Elə həmin dövrdə Qaraqoyunlular Bayram Xocanın rəhbərliyi ilə Mosul Ərzurum arasında dövlət yaratmışdılar [10, 49].

Qutlu bəyin ölümündən sonra hakimiyyət uğrunda oğlanları Əhməd, Hüseyn və Qara Yulluq Osman və Pir Əli arasında mübarizə şiddətlənmişdi. Daha çox Əhməd bəy və Hüseyn bəy arasında rəqabət gedirdi. Qutlu bəyin hakimiyyətinin son dövrlərində faktiki olaraq hakimiyyət Əhməd bəyə verilmişdi. 1389-cu ildən başlayaraq hakimiyyəti ələ keçirən Əhməd bəy (atasının ölüm tarixi dəqiq olmadığı üçün onun hakimiyyətə nə vaxt sahib olduğu tam bilinmir) 1403-cü ilə qədər sürən iqtidarı dövründə Bürhanəddin və Mütaharəddinlə ittifaqlar bağlamışdı.

1402-ci ildə Ağqoyunlu bəyliyinin başına Qara Yulluq Osman bəy keçdi. Bu dövrdə ağqoyunluların Qazi Bürhanəddindən asılılığı davam edirdi. Lakin

1398-ci ildə onlar arasında münasibətlər müharibə həddinə çatdı və Qara Yulluq Osman bəy Qazi Bürhanəddini əsir alaraq öldürdü. Qara Yulluq Osman bəyin ölümündən sonra isə bəyliyin başına oğlu Əli bəy gəlmişdir. Ərzurum döyüşündə böyük uğurlar qazanan Əli bəyin taxta çıxan qardaşları Həmzə və Məhəmməd bəyin etirazlarına baxmayaraq Teymurilərin dəstəyi ilə hakimiyyətə gəldi. Əli bəy Teymurilər, Osmanlılar və Məmlüklərlə yaxşı münasibətlər saxlayırdı.

1436-cı ildə Teymurilərə qarşı mübarizə aparan Qaraqoyunlu Qara İskəndər Ağqoyunlu torpaqlarına soxuldu. Bu dövrdə Ağqoyunlu bəyliyi tayfalar arasında kəskin mübarizə mey- danına çevrilmişdi. Əli bəy əlində qalan az qüvvə ilə Amid tərəflərə geri çəkildi. Qara İskəndər Ərzuruma sahib oldu. Ərməniyyədə Yaqub bəy, Mardində Həmzə bəy gücləndikcə, Əli bəy getdikcə bəyliyin cənubuna doğru çəkilmək məcburiyyətində qalırdı.

Əli bəyin hakimiyyətini qardaşı Həmzə bəy, Ərzincan hakimi Yaqub bəy və oğlu Cəfər qəbul etmirdi. Cənub torpaqlarını qorumaq və oğlanlarını müdafiə etmək üçün Məmlük sultanı Baybars ilə yaxınlaşmağa çalışan Əli bəy Xarputu güzəştə getməyə məcbur oldu. Digər tərəfdən qardaşı Həmzə bəy getdikcə güclənirdi. Qaraqoyunlu İsfəndiyar bəy bu qarşılaşmada uğur qazanaraq Diyarbəkr uğrunda mübarizəyə başladı. Əli bəy oğlu Uzun Həsəni Diyarbəkrə göndərdi. Həmzə bəy də Diyarbəkr üzərinə yürüdü. Uzun Həsən şəhəri qorumaq istəsə də buna nail ola bilmədi. Həmzə bəy Diyarbəkiri ələ keçirdi və bu münasibətlə hətta Ulu bəy adlandı [10, 123].

Əli bəy torpaqlarını itirdikdən sonra Kemah, Ərzincan və Qarahisarın hakimi olan qardaşı Yaquba müraciət etdi. Lakin Yaqub bəy Həmzə Mirzə ilə qarşılaşmaqdan imtina etdi. Buna görə də 3 oğlunu Sultan Baybarsun yanına-Qahirəyə göndərdi. Həmçinin Osmanlı hökmdarı II Murada sığınma tələbində bulunmuş və Osmanlı sultanı təklifi qəbul etmişdi. Cahangir Mirzə Qahirəyə çatdığı dövrdə Məmlük sultanı Qaraqoyunlu İskəndər bəyin qardaşı Cahanşahı mühasirədən qurtarmaq üçün səfərə hazırlaşırdı. Bu səbəbdən Cahangir Mirzə Məmlük sultanı ilə birgə Ərzincana qədər gəlmiş, Ərzincanı aldıqdan sonra Məmlük sultanının ani ölümü Məmlük qoşunun geri çəkilməsinə səbəb olmuşdu. Yəni Ağqoyunluların Məmlüklərdən kömək almaq ümidi itirilmişdi. Məmlüklər Ərzincanı Yaqub bəydən alaraq Cahangir bəyə verirlər. Əli bəy isə Suriyaya gedərək ölənə qədər (1438) orada yaşayır.

Həmzə bəy Əli bəydən sonra Ağqoyunlu bəyliyinin rəsmi varisi olsa da (1438), Əli bəyin oğlanları Cahangir Mirzə, Uzun Həsən, Üveys və qardaşı Yaqubun oğlu Cəfərlə mübarizə aparmaq məcburiyyətində qalmışdı. Ağqoyunlu hökmdarı olmaq istəyən Cahangir Mirzə qardaşı Uzun Həsən ilə birlikdə Məmlük sultanına kömək üçün müraciət edirlər. Məmlüklərdən yardım ala bilməyən Cahangir Mirzə Urfanı ələ keçirərək Həmzə bəyə qarşı müharibəyə hazırlaşmağa başlayır. Urfa uğrunda döyüşlər şiddətlənir. Uzun

Həsən və Həmzə bəy arasında baş vermiş qarşılaşmada Uzun Həsən qalib gəlir. Bütövlükdə, 1439-cu ildən başlanan qardaşlar arasında münaqişələr 1444-cü ilə qədər davam edir. Bu mübarizədə Həmzə Mirzə yalnız Kemah və Urfa şəhərlərini əlində saxlaya bilməmişdi. 1444-cü ildə Amiddə vəfat etdikdən sonra Ağqoyunlu bəyliyində hakimiyyət Cahangir Mirzənin əlinə keçdi.

Teymuri Şahruxun ölümündən sonra Osmanlılar, Məmlüklər və Qaraqoyunlular Ağqoyunlu ərazilərinə hücumları intensivləşdirmişlər. Məmlüklərlə sərhəddə bəzi münaqişələr baş verirdi. Qaraqoyunlularla münasibətlər daha da kəskinləşmişdi. Belə ki, Qaraqoyunlu şahzadələrindən olan Əlvənd bəy Qaraqoyunlu hökmdarı Cahanşaha qarşı üsyan edərək məğlub olduqdan sonra Cahangir Mirzəyə sığınmışdı. Cahanşahın şahzadənin geri verilməsi tələbi Ağqoyunlu bəyliyinin başçısı tərəfindən rədd edilmişdi. Bu hadisə ziddiyyətlərin daha da kəskinləşməsinə səbəb olmuşdu [3, 214].

Cahangir Mirzə Uzun Həsənin artan nüfuzundan qorxaraq Cahanşahdan kömək istəyir. Cahanşah Ağqoyunlu bəyliyinin padşahlığını və Ərzincanın idarəsini ona verir. Cahanşahın sülh təklifini qəbul edən Cahangir Mirzə Uzun Həsənlə mübarizəyə başlayır. 1452-ci ilin sentyabr ayında Cahangir Mirzənin Diyarbəkri tərk etməsi Uzun Həsənin işini daha da asanlaşdırır. Nəticədə 1452-ci ildən etibarən Uzun Həsən Diyarbəkrdə möhkəmlənir və Məmlük paytaxtı Qahirəyə olan bağlılığını bildirmək üçün qalanın açarlarını Məmlük sultanı Çakmağa göndərir. Sultan Çakmaq da onu Diyarbəkr valisi olaraq tanıyır. Çakmaqdan sonra Məmlük dövlətində hakimiyyətdə olan Seyfəddin Əşrəf İnal ilə Uzun Həsən yaxşı münasibətlər qurmağa çalışır. Lakin onun ilk müraciəti uğursuz olur. Qardaşı Urfa hakimi olan Üveys bəyin vasitəsilə növbəti dəfə cəhd etməsinə baxmayaraq, Məmlüklər Ağqoyunlu bəyliyinin başçısına yardım etmirlər [8, 78].

Cahanşah Rüstəm bəyin rəhbərliyində 20 minlik bir Qaraqoyunlu ordusunu Uzun Həsənin üzərinə göndərir. 1457- ci ildə Amid yaxınlığında tərəflər arasında baş verən döyüşdə Uzun Həsən qalib gəlir. Döyüşün əvvəllində Qaraqoyunlu və Cahangir Mirzənin birləşmiş qüvvələri üstünlük əldə etsələr də, sonradan Əfşar, Əmirli, Heydərli, Mosullu, Pörnək və Qoca Hacılı türkmən aşirətlərin gücündən istifadə edən Uzun Həsən böyük qələbə qazanır. Bu hadisədən sonra Cahangir bəyin əmrində olan əsgərlərin böyük bir hissəsi Uzun Həsənin idarəsinə keçir. Əslində Cahangir Mirzənin özü də Uzun Həsənin hakimiyyətini tanımaq məcburiyyətində qalır. Cahangir Mirzə döyüş meydanından Mardinə qaçır, Rüstəm bəy isə əsir alınır.

Beləliklə, Uzun Həsən İspirdən Urfaya, Şebirkarahisardan Siirtə qədər uzanan torpaqlarda Ağqoyunlu bəyliyini möhkəmləndirərək 1468-ci ildə Ağqoyunlu dövlətinin yaradılmasına mühüm zəmin yaradır.

## ƏDƏBİYYAT

1.Məmmədov C.A. Azərbaycan XV – XVIII əsrin birinci yarısında. Dərs vəsaiti B. 1981

2. Nəcəfli T.H. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. B. 2000.

3.Fərzəlibəyli Ş. Azərbaycan və Osmanlı imperiyası (XV- XVI əsrlər) B. 1995.

4. Mustafa F. Azərbaycanda türk kimliyi və saxta tarix problemi B. 2014.

5. İbrahimov C.M. Azərbaycanın XV əsr tarixinə aid oçerklər. B. 1958.

6. İsmayılov R. Azərbaycan tarixi. B.1993.

7.Ahmet Toksoy. Akkoyunlular ve Erzincan. İstanbul. 2014.

8.Kılıc Remzi. Fatih devri (1451-1481) Osmanlı - Akkoyunlu ilişkileri İ. 2001

9.Özçelik Sadettin. Dede Korkut destanlarında oğuzların təşkilatlanması hakkında bazı kültürel unsurlar. İstanbul. 2014.

10.Sarıcaoğlu Fikret. Akkoyunlu, Karakoyunlu, Safeviler İstanbul, 1996.

UOT 373.3

# MƏKTƏBDAXİLİ İDARƏETMƏ PROBLEMİNİN ELMİ-PEDAQOJİ ƏDƏBİYYATDA QOYULUŞU

***Gülşən Orucova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*gulshan_orucova@mail.ru*

**Açar sözlər:** *məktəbdaxili idarəetmə, ümumtəhsil məktəbi, məktəbşünaslıq, pedaqoji kollektiv, məktəb lideri*

# THE PROBLEM OF IN-SCHOOL MANAGEMENT IN SCIENTIFIC-PEDAGOGICAL LITERATURE

Gulshan Orujova

**Keywords:** *in-school management, comprehensive school, school study, pedagogical staff, school leader*

The investigation of in-school management problem in Azerbaijan began in the 60s of the XX century. The style of management, the formation of the moral environment in the collective, the psychological features of the leader stood in the center of attention. School study section was attached to the resources and textbooks on pedagogics. According to the demands of the era the researchers conducted a number of investigations related to school study, commented on the school management and school management issues, and published a number of scientific research articles and brochures . The article summarizes, analyzes and investigates comparable studies.

# ОСВЕЩЕНИЕ ПРОБЛЕМЫ ВНУТРИШКОЛЬНОГО УПРАВЛЕНИЯ В НАУЧНО-ПЕДАГОГИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

***Гюльшан Оруджова***

**Ключевые слова:** *внутри школьное управление, общеобразовательная школа, школоведение, педагогический коллектив, школьный лидер*

В Азербайджане к проблемам исследования внутришкольного управления обратились ещё в 60-е годы XX века. В центре внимания были стиль руководства, формирование нравственной среды в коллективе, психологические особенности лидера. В учебный курс педагогики были добавлены материалы и пособия по школоведению. Исследователями была проведена большая работа по вопросам школьников, их управления школой, прокомментированы в соответствии с требованиями времени и опубликованы ряд научно-исследовательских статей и брошюр. В статье в сравнительном анализе представлены обобщения исследований, связанных с данной проблемой.

Mürəkkəb və dinamik sosial sistem olan ümumtəhsil məktəbi məktəbdaxili idarəetmənin obyektidir. Məktəbdaxili idarəetmədə optimal nəticələrin əldə edilməsi tam pedaqoji prosesin iştirakçılarının məqsədyönlü və şüurlu qarşılıqlı təsirindən asılıdır. Pedaqoji prosesin iştirakçılarının qarşılıqlı səmərəli fəaliyyəti pedaqoji sistemin keyfiyyətli idarəedilməsində mühüm əhəmiyyət daşıyır. Məktəbi idarəetmə nəzəriyyəsi məktəbdaxili menecment nəzəriyyəsi ilə sıx vəhdətdədir. Məktəb rəhbərləri ənənəvi olaraq həmişə formal səlahiyyət sahibi olduqlarından məktəbdə həm də lider kimi qəbul olunurdular. Məktəbin idarəedilməsinə yeni yanaşma menecerlərin hazırlanması məsələsini aktuallaşdırmışdır. ”Menecer idarəçilik tərzini insanların ehtiyaclarına uyğunlaşdıraraq tətbiq edən, struktur bölmələrə uyğun mexanizmlərdən peşəkarlıqla istifadə edən, işçilərin tələblərinə uyğun fəaliyyət göstərən professionaldır” [1, 165]. Bunun əsas səbəbi onunla bağlıdır ki, məktəbi idarəetmə mədəniyyəti təhsilin və ümumiyyətlə, cəmiyyətin inkişafından geri qalır. Müasir təhsildə baş verən yeniliklər (məzmun, texnologiya, infrastruktur və s.) onun idarəetmə funksiyasının da ciddi şəkildə dəyişdirilməsini tələb edir. Məktəbdə idarəedən və idarə olunan iki sistem daim qarşılıqlı əlaqədədir və burada məktəbin rəhbərlərini və pedaqoji kollektivi birləşdirən idarəedici sistem aparıcı rol oynayır. İdarəetmə anlayışı ümumi və universal anlayışlar sırasına daxildir. İdarəetmə texniki və istehsal sahələrində olduğu kimi pedaqoji sistemlər sahəsində də zəruridir. Lakin müxtəlif fəaliyyət sahələrində idarəetmənin məzmun və forması işin xüsusiyyətindən asılı olaraq dəyişir. Fərqlilik olsa da hamısı üçün xarakterik olanlar da vardır. İdarəetmə digər elm sahələri ilə yanaşı həm də pedaqogikanın tədqiqat obyektidir. Onu da qeyd etmək yerinə düşər ki, idarəetmənin psixoloji aspektləri pedaqoji istiqamətlərindən xeyli əvvəl tədqiqata çəlb edilmişdir. ”İdarəetmə psixologiyası insan fəaliyyətinin növlərindən biri olduğundan ümumi psixologiyanın, fərdi xüsusiyyətləri, qabiliyyətləri, şəxsi keyfiyyətləri öyrəndiyindən şəxsiyyət psixologiyasının, qrup fəaliyyətini, şəxsiyyətlərarası münasibətləri öyrəndiyindən sosial psixolo-

giyanın, müxtəlif yaş dövrlərini, təlim-tərbiyə prosesini əhatə etdiyindən pedaqoji psixologiyanın mühüm cəhətlərini özündə birləşdirir" [2, 6]. Pedaqoji idarəetmə psixoloji məzmun daşıdıqda, təlim-tərbiyə prosesinin təkmilləşdirilməsinə yönəldikdə və son nəticədə məktəbli şəxsiyyətinin inkişafına real təsir göstərdikdə konkret məna kəsb edir. Məktəbin idarə olunması və rəhbərin fəaliyyətini ona görə "pedaqoji idarəetmə" adlandırmaq daha düzgün olardı. Məktəbdə müxtəlif növ (hüquqi, iqtisadi, administrativ və s.) idarəetmələr olsa da, onların biri digərini şərtləndirir. Ona görə də pedaqoji ədəbiyyatda məktəbin idarə olunmasına inteqrativ proses kimi baxılır.

Azərbaycanda pedaqoji idarəetmə məsələlərinə keçən əsrin 60-cı illərində maraq artdı. İdarəetmə üslubu, kollektivdə mənəvi mühitin formalaşdırılması, rəhbərin psixoloji xüsusiyyətləri diqqət mərkəzində oldu. Pedaqogikaya aid dərslik və dərs vəsaitlərinə məktəbşünaslıq bölməsi əlavə edildi. Əsaslandırıldı ki, məktəbşünaslıq pedaqoji elmin tərkib hissəsi kimi, məktəbin vəzifələrini, məktəb işlərinə rəhbərliyin məzmunu və metodlarını müəyyənləşdirmək, məktəbə rəhbərlik işinin sistemini aydınlaşdırmaq vəzifələrini yerinə yetirir, məktəbi idarə etmə və ona rəhbərliyin yollarını öyrənir. Tədqiqatçılar (M.Muradxanov, İ.Hacıyev, S.Zeynalov, İ.Vəlixanlı, N.Əhmədov, Ə.Kəlbəliyev) pedaqoji elmin nisbi müstəqilliyə malik qollarından biri - məktəbşünaslıq məsələləri ilə də bağlı xeyli tədqiqatlar apardı, məktəbə rəhbərlik və məktəbin idarə olunması məsələlərini dövrün tələbinə müvafiq şərh etdi, xeyli elmi-tədqiqat xarakterli məqalə, kitabça nəşr etdirdilər. Pedaqoji kollektivin idarəolunması ilə bağlı xeyli araşdırmlar aparılsa da məktəb direktorunun fəaliyyəti, onun şəxsi keyfiyyətləri, idarəetmə üslubu kimi məsələlər elmi-metodiki aspektdə öz həllini tapmadı.

70-80-ci illərdə pedaqoji kollektivin formalaşdırılması, kollektivdə yaranan münaqişənin obyektiv və subyektiv səbəblərinin müəyyənləşdirilməsi, onun aradan qaldırılması yolları ilə bağlı pedaqoq və psixoloqların maraqlı araşdırmaları meydana gəldi. Qeyd edək ki, kollektivdə münaqişəli halların yaranması və onun aradan qaldırılmasını hələ 20-30-cu illərdə A.S.Makarenko kaloniya və kommunadakı təcrübəsindən çıxış edərək ümumiləşdirsə də, sonralar bu məsələ tədqiqatlardan təcrid edilmişdi.

M.Muradxanov, İ.Hacıyev, S.Zeynalov, İ.Vəlixanlı, N.Əhmədov və Ə. Kəlbəliyevin tədqiqatlarında məktəbi idarəetmənin ayrı-ayrı aspektləri araşdırıldı, qabaqcıl təcrübə ümumiləşdirildi, məktəbdaxili rəhbərliyin təşkili (direktorun, təlim-tərbiyə və istehsalat təlimi üzrə müavinlərin, sinifdənkənar və məktəbdənkənar tərbiyə işinin təşkilatçısının vəzifələri), kollegial orqanların fəaliyyəti (pedaqoji şuranın, məktəb şurasının, müəllim və sinif rəhbərlərinin, valideyn komitəsinin, həmkarlar təşkilatının, ictimai təşkilatların), planlaşdırma, məktəbdaxili nəzarət, məktəbin maddi bazası və maliyyələşdirilməsi, məktəbin iş planı, dərs cədvəli, məktəb sənədlərinin tərtibi məsələləri tədqiqat

predmetinə çevrildi. Məktəbi idarəetmənin praktik istiqamətlərinin araşdırılmasına diqqət artdı. Tədqiqatlarda məktəbi idarəetmənin təşkili xüsusiyyətləri, qarşılıqlı münasibətlər, kollegiallıq, idarəetmə bacarığının inkişaf etdirilməsi məsələləri araşdırıldı. "Məktəbdaxili nəzarətin təşkilat-pedaqoji məsələləri" (İ.Hacıyev), "Məktəbin yoxlanılması məsələlərinə dair" (İ.Hacıyev), "Təlim və tərbiyə işləri üzrə direktor müavininin işi haqqında" (İ.Hacıyev), "Xalq maarifinin iqtisadiyyatının planlaşdırılmasının təşkili və idarə edilməsi məsələləri" (İ.Hacıyev), "Sinif rəhbərinin işi" (İ.Vəlixanlı), "Pedaqoji münasibətlərin formalaşmasında məktəb direktorunun rolu" (N.Əhmədov), "Sinif rəhbəri" (Y.Talıbov), "Təlim prosesinə rəhbərlik və nəzarət" (S.Zeynalov) adlı kitablarda məktəb və xalq maarifinə rəhbərlikdə elmilik, idarəetmə sistemində informasiyanın obyektivliyinin və tamlığının təmini, məktəbə rəhbərlikdə demokratik mərkəziyyət, təkbaşına rəhbərliklə kollegial rəhbərliyin uzlaşdırılması, xalq maarifi müəssisələrinin fəaliyyətinə sistemli və planlı nəzarət; qabaqcıl təcrübənin öyrənilməsi və yayılması, kadrların işgüzarlıq və ictimai fəallığına görə seçilməsi, məktəb işlərinin idarə olunmasının pedaqoji-təşkilati əsasları, məktəbdə təlim-tərbiyə işlərinin idarə edilməsi sahəsində xalq maarifi orqanlarının fəaliyyəti; müəllimlərə metodik köməkliyin təşkili, xalq maarifi məsələlərinin qoyuluşunun təşkilinə ictimaiyyətin cəlbi, müəllimin vəzifələri kimi məsələlərin tədqiqi ön plana çəkildi. Əsaslandırıldı ki, idarəetmənin iştirakçıları hüquq və vəzifələrini dəqiq bilməli, vaxtı düzgün bölüşdürməyi, ondan səmərəli istifadə etməyi, pedaqoji kollektivin hər bir üzvünü dinləməyi bacarmalı, tabeliyində olan insanların potensial imkanlarına, elmi-metodik hazırlığına bələd olmalı, kollektivin ümumi əhval-ruhiyyəsini nəzarətdə saxlamalı, onu lazımı istiqamətə yönəltməyi bacarmalıdır.

Bəzi tədqiqatlarda isə məktəbdaxili idarəetmə məsələlərindən başqa, məktəbyaşlı uşaqların məktəbə hazırlanması, məktəbdənkənar uşaq müəssisələri ilə əlaqə formaları və onların idarə olunması, məktəbin ailə və ictimaiyyətlə əlbir işi, məktəb məzunlarının fəaliyyətinə rəhbərlik və nəzarət, təhsil şöbələri və Təhsil Nazirliyinin metodiki idarələrinin fəaliyyəti öz əksini tapdı. Məktəbşünaslığın bu və ya digər probleminin öyrənilməsinə həsr olunmuş əsərlər içərisində yeni tipli ictimai tərbiyə orqanlarının – günüuzadılmış qrup və məktəblərin fəaliyyətinin tədqiqi xüsusi yer tutdu (Abbas İsmayılov və b.).

1980-ci ildə Azərbaycan Dövlət Pedaqoji İstitutunda (indiki ADPU) "Xalq maarifini idarəetmənin təşkili" kafedrasının yaradılması (kafedra müdiri dos. Nazim Əhmədov) respublikada məktəbin idarəedilməsi ilə bağlı yeni tədqiqat əsərlərinin yaranmasına səbəb oldu. Bu istiqamətli tədqiqatlar Nazim Əhmədovun fəaliyyəti ilə bağlıdır. 1980-ci illərdən başlayaraq o, məktəbşünaslıqla bağlı intensiv tədqiqatlar aparmış, bu sahənin mütəxəssisi kimi Ümumittifaq konfranslarında Azərbaycanı təmsil etmiş, "Məktəb işinin planlaşdırılması" (1984), "Məktəbşünaslıqdan mühazirələr" (1987), "Məktəbdaxili

nəzarətin forma və metodları" (1988), "Məktəbdaxili idarənin təşkilat pedaqoji məsələləri" (1991), "Məktəbi idarəetmənin nəzəri və praktik məsələləri" (1997) kimi monoqrafik əsərlər yazmış, problemlə bağlı silsilə elmi məqalələr nəşr etdirmişdir. Onun tədqiqatları arasında "Məktəbdaxili nəzarətin forma və metodları" [3] monoqrafiyası xüsusi yer tutur, elmi və nəzəri əhəmiyyəti ilə seçilir. Monoqrafiyada idarəetmədə nəzarətin rolu araşdırılır, məktəbdaxili nəzarətin məzmunu, məqsəd və vəzifələri müəyyənləşdirilir. Müəllif qeyd edir ki, "məktəbdaxili nəzarət onun strukturuna daxil olan sahələrin hər birində mövcud vəziyyəti aşkara çıxarmaq, müəyyənləşdirmək və bunların nəticələrinə əsasən işi daha da təkmilləşdirmək, yaxşılaşdırmaq, onun səmərə və keyfiyyətini yüksəltmək üçün tədbirlər hazırlamaq məqsədini daşıyır" [3, 10-11]. Məktəbdaxili nəzarətdə əsas məsələ mənfi və ya müsbət faktların aşkara çıxarılması deyil, hər şeydən əvvəl, onları doğuran səbəblərin dərindən təhlili, onların əsasında təlim-tərbiyə işlərini təkmilləşdirmək üçün praktik tədbirlər hazırlayıb həyata keçirməkdir. Məktəbdaxili nəzarətə verilən tələbləri (səmərəlilik, təsirlilik, səriştəlilik, elmilik, planauyğunluq, məqsədyönlülük, sistemlilik, əhatəlilik, perspektivlilik, obyektivlik, prinsipiallıq, operativlik, məsuliyyətlilik, aşkarlıq və s.) müəyyənləşdirən müəllif məktəbdaxili nəzarətin həyata keçirilməsi yolları üzərində geniş dayanır. Monoqrafiyada məktəbdaxili nəzarətin formaları təsnif edilir, nəzarət metodlarının mahiyyətinə aydınlıq gətirilir, təlim prosesində nəzarətin əsas istiqamətləri araşdırılır, dərsin dinlənilməsi, təhlili yolları, müşahidəsinin planlaşdırılması, şagirdlərin bilik, bacarıq və vərdişlərinin keyfiyyətinə, tədris proqramlarının yerinə yetirilməsinə, metodik işin təşkilinə, sinifdən və məktəbdənkənar tərbiyə işlərinə və məktəbin təsərrüfat –fəaliyyətinə nəzarət texnologiyası aydınlaşdırılır.

80-ci illərin elmi-pedaqoji qənaətləri və məktəbi idarəetmə sahəsində qazanılan qabaqcıl təcrübə əsasında ərsəyə gələn bu monoqrafya məktəbi idarəetmə mədəniyyətinin zənginləşməsində mühüm rol oynamaqla yanaşı, idarəetmə sahəsində maraqlı və ciddi elmi araşdırmaların müəllifi olan M.Q.Zaxarovun [4] və V.P.Strezikozinin [5] əsərlərindən praktikyönümlülüyü ilə seçilir.

90-cı illərin axırlarında məktəbşünaslığın nəzəriyyəsi və texnologiyası sahəsində tədqiqatlar intensivləşdi. Pedaqoji sistemləri idarəetmənin mahiyyəti, əsas prinsipləri, funksiyaları, məktəbi idarəetmənin strukturunun səviyyəsi, məktəbdaxili idarəetmədə pedaqoji təhlilin növləri (parametrik, tematik, yekun), idarəetmədə məktəbdaxili nəzarətə verilən tələblər, məktəbdə metodik işin təşkilinin əsas formaları, idarəetmə mədəniyyətinin konturları müəyyənləşdirildi, təhsil menecmentinin metodoloji problemləri tədqiq olundu (Ramiz Məmmədzadə, Ə.Paşayev, F.Rüstəmov, L.Qasımova, H.Bayramov, R.Cabbarov, A.Abdullayev, F.Kərimova, S.Rəsulov, Ş.Hüseynov və b.). Məktəbşünaslığın nəzəri məsələləri ilə bağlı Əhməd Kəlbəliyevin elmi-nəzəri

və praktik dəyərliliyi ilə seçilən "Təhsili idarəetmənin əsasları" (1998), "Məktəbşünaslıq" (İdarəetmənin əsasları)" (2005) kitabları nəşr olundu. Məktəbi idarəetmədə nəzərə alınmalı olan məsələlərdən bir də fəaliyyətin elmi əsaslar üzərində qurulması, pedaqoji əməyin elmi təşkili məsələsidir ki, tədqiqatlarda bu problemə də xüsusi diqqət yetirildi. İdarəetmə psixologiyasının tanınmış tədqiqatçılarından olan N.Y.Sasko yazırdı:"İdarəetmə fəaliyyəti mürəkkəb və çoxşaxəlidir. Rəhbər savadlı, səriştəli mütəxəssis olmalı, idarəetmənin təşkilati tərəfini bilməlidir. O, əxlaqi, etik məsələləri daim diqqət mərkəzində saxlamalı, səmərəli fəaliyyət göstərən kollektiv formalaşdırmalıdır" [6, 151]. Bu baxımdan Ə.Kəlbəliyevin "Pedaqoji əməyin elmi təşkili" (1996) monoqrafiyası diqqəti cəlb edir. Monoqrafiyada pedaqoji əməyin elmi təşkilinin spesifik xüsusiyyətlərini təhlil edən müəllif, idarəetmədə peşəkarlığı, təşkilatçılıq qabiliyyətini, mənəvi-psixoloji mühiti, idarəetmə üslubunu, qərarların düzgün qəbul olunmasını və optimallaşdırmanı vacib hesab edir. Təhsil müəssisəsində sağlam mənəvi-psixoloji iqlimin yaradılmasını, təhsilverənlərin öz əməyindən zövq almasını, kollegiallıq və kollektiv qərarların qəbul edilməsini pedaqoji prosesi idarəetmənin səmərəliliyinin mühüm şərti kimi araşdırır. Pedaqoji kollektivin səmərəli idarə olunması məktəb direktorunun elmi-pedaqoji hazırlığından, təşkilatçılıq bacarığından və peşəkarlığından asılıdır. Qərbi Avropa sosioloqu K.Zamfirin fikrincə, "insanlara rəhbərlik etmək üçün ilk növbədə onları başa düşmək, tanımaq, davranış motivlərini öyrənmək lazımdır" [7, 81]. O, idarəetmədə uğur qazanmağın şərtlərini də müəyyənləşdirmişdir. Onun fikrincə, bu şərtlər aşağıdakılardır: 1) peşəkarlıq; 2) təşkilatçılıq; 3) kollektivdə psixoloji mühit formalaşdırmaq; 4) müxtəlif növ metodlardan istifadə; 5) əməyin qiymətləndirilməsi; 6) demokratik idarəetmə: 7) qərarların qəbul olunma forması; 8) prinsipiallıq və ədalətlilik; 9) işçilərə qayğı; 10) nəzarət; 11) yuxarı təşkilatlarla münasibətlərin qurulmasının təmin olunması [7, 85-89]. Sadalanan bu keyfiyyətlər bu və ya digər dərəcədə idarəetmə ilə bağlı aparılan tədqiqatlarda öz əksini tapmışdır. Məşhur sosioloqun elmi araşdırmalarının özəlliyi ondadır ki, o müəyyənləşdirdiyi şərtlərin reallaşmasında rəhbərin şəxsi keyfiyyətlərini önə çəkir.

Azərbaycanda məktəbin idarə olunması ilə bağlı elmi fikirlərin formalaşmasında, məktəbşünaslığın nisbi müstəqilliyə malik elm sahəsi kimi inkişafında V.A.Suxomlinskinin, V.V.Davıdovun, A.N.Leontyevin, S.L.Rubenşteynin, M.Q.Zaxarovun və V.P.Strezikozinin mühüm xidmətləri olmuşdur. V.V.Davıdov idarəetmənin struktur və funksiyasını müəyyənləşdirərkən qərarların hazırlanması və qəbulunu (məqsəd, proqnozlaşdırma və onların həlli yolları), qəbul olunmuş qərarların yerinə yetirilməsi üçün təşkilati işləri, tənzimləmə və korreksiyanı, uçot və nəzarəti vacib hesab edirdi. Rusiyada idarəetmənin pedaqogikası və psixologiyası sahəsində aparılan sistemli araşdırmalar Azərbaycanda bu istiqamətli tədqiqtların aparılmasına stimul verdi. İdarət-

mənin pedaqoji və psixoloji məsələləri tədrisə gətirildi. “İdarəetmənin pedaqogika və psixologiyası” [8] dərs vəsaiti nəşr olundu. İdarəetmədə liderlik və rəhbərlik məsələlərinin psixoloji aspektlərini təhlil edən Ə.Bayramov və Ə.Əlizadənin fikrincə, rəhbərlik nisbətən yüksək səviyyəli təşkilatlar tərəfindən rəsmi surətdə təsdiq edilmiş əsasnamə çərçivəsində rəsmi səlahiyyətlərin tətbiqi yolu ilə kollektivin idarə olunması prosesidir. Liderlik dedikdə, işçilərdən birinin şəxsi nüfuzunun kollektivin bir çox və ya bütün üzvlərinin davranışına təsiri nəzərdə tutulur [9, 478]. Bu yanaşmada fərqlilik liderin şəxsi keyfiyyətlərinin – işgüzarlığının, ünsiyyətcilliyinin, insanlara təsir etmək və onları təşviq etmək bacarığının önə çəkilməsidir. “Rəsmi lider kollektivdə xidmət və peşə nüfuzuna malik olan inzibati və ictimai rəhbərdir” [9, 480] - fikri 70-80-ci illərdə idarəetmə ilə bağlı pedaqoji – psixoloji tədqiqatlarda aparıcı ideya kimi təqdir olunur. M.Həmzəyev pedaqoji kollektivdəki münasibətləri sosial-pedaqoji aspektdən təhlil edərkən belə qənaətə gəlir ki, ünsiyyət üslubunun pozulması, pedaqoji mərifətin gözlənilməməsi nəticəsində münaqişəli hallar yarana bilər. Bu da pedaqoji fəaliyyətin əsas məqsədinin reallaşmasına imkan verməz [10, 3].

90-cı illərin ikinci yarısından idarəetmə pedaqogikası və psixologiyası sahəsində tədqiqatlar yeni məzmun, yeni məna kəsb etdi. İdarəetmə ilə bağlı yeni anlayışlar (“menecment”, “menecer”) elmi dövriyyəyə daxil edildi. Məktəbi idarəetmənin (məktəbşünaslığın) nəzəri və praktik problemləri həm psixoloqlar, həm də təhsil tədqiqatçıları tərəfindən araşdırıldı. S.Seyidovun psixologiyası” (2000), Z.Rzayevin “Təşkilatlarda menecment psixologiyası aspektində şəxsiyyətlərarası münasibətlər” (2001), H.Məmmədovun “Menecment psixologiyası təşkilatlarda səmərəli fəaliyyətin əsası kimi” (2004) əsərləri meydana gəldi. A.Mehrabov yeni idarəetmə modellərindən bəhs edərkən seqment tipli modelə, üfiqi məsləhətvermə strukturlu xətti modelə, kollegial modelə matris tipli modelə, modul tipli modelə üstülük verilməsini əsaslandırdı [11, 11-12]. İdarəetmə ilə bağlı nəzəri fikirlərin inkişafına, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsinə A.Abdullayevin “Məktəbin idarə olunmasının demokratikləşdirilməsi” (1993), ”Məktəbin demokratik əsaslarla idarə edilməsinin aktual məsələləri” (1998), H.Bayramov və Ə.Kəlbəliyevin “Təhsilin idarəedilməsinin əsasları” (1998), R.Cabbarovun “Təhsilin idarəedilməsinin yeni metodları” (2008), R.Məmmədzadənin “İdarəetmə mədəniyyəti” (1999), “Təhsilin idarəedilməsinin bəzi problemləri” (2003), “Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi” (2010), “Təhsilin idarəedilməsinin əsas məsələləri” (2011) əsərləri əhəmiyyətli dərəcədə təsir göstərdi. Aparılan tədqiqatlar idarəetmə ilə bağlı yeni elmi-nəzəri fikrin formalaşmasında mühüm rol oynadı. Təhsil müəssisələrində (ümumtəhsil məktəbində) idarəetmənin səmərəliliyinin yüksəldilməsi və optimallaşdırmanın həyata keçirilməsi ilə bağlı elmi-pedaqoji və metodiki fikrin nailiyyətləri gələcək müəllimlərin peşə hazırlığında mühüm

əhəmiyyət daşıyan pedaqogika kitablarda öz əksini tapdı. Y.Talıbov, Ə.Ağayev, İ.İsayev, A.Eminov “Pedaqogika” adlı dərs vəsaitində məktəbin idarə olunması probleminə xüsusi diqqət yetirdilər. Təlim-tərbiyə prosesinin idarə olunmasında əsas məqsədin şagird şəxsiyyətinin inkişafı olduğunu önə çəkən müəlliflər idarəetmənin mövcud prinsiplərinə demokratik mərkəziyyət, planlaşdırma, elmilik və aşkarlıq prinsiplərini əlavə etdilər. İdarəetməni tam və vahid sistem kimi tədqiqata cəlb edən müəlliflərin fikrincə, demokratik mərkəziyyət mərkəzi rəhbərliklə yerli rəhbərliyin vəhdətini təmin edir. Bu prinsip vahid rəhbərlik və kollegiallığın təmin olunmasına şərait yaradır [12, 264]. Təcrübə göstərir ki, təhsil sisteminin pillələri və səviyyələri arasında varisliyin və nəzarətin olması, onların da hər birinin demoktratik idarəetmə üslubuna əsaslanması vacibdir. Məktəbin müstəqilliyinin təmin olunması eyni samanda ictimai-dövlət idarəolunmasına keçidin mühüm tərkib hissəsidir.

Ə.Paşayev və F.Rüstəmovun 2002-ci ildə nəşr etdirdikləri “Pedaqogika” dərs vəsaitində “Məktəbşünaslığın nəzəriyyəsi və texnologiyası” bölməsində ilk dəfə pedaqoji sistemləri idarəetmənin mahiyyəti və əsas prinsipləri öz əksini tapdı. Məktəbi idarəetmə sisteminin strukturunda dörd səviyyəli idarəetmə müəyyənləşdirildi [13, 427]. Məktəbi səmərəli idarə etmək üçün böyük əhəmiyyət kəsb edən bilik, ideya və konsepsiyalar pedaqoji dəyərlər kimi çıxış edir. Pedaqoji sistemlərin idarəetmə dəyərləri müxtəlifdir. Müəlliflər dərs vəsaitində həmin dəyərləri - dəyərlər-məqsədlər, dəyərlər-biliklər, dəyərlər-münasibətlər, dəyərlər-keyfiyyətlər [13, 428] kimi təsnif edir və məzmununa aydınlıq gətirilər. Dərs vəsaitində məktəbdaxili nəzarətin növləri (tematik, frontal), formaları (şəxsi nəzarət, sinif-ümumiləşdirici nəzarət, fənn-ümumiləşdirici nəzarət, tematik-ümumiləşdirici nəzarət, kompleks-ümumiləşdirici nəzarət), nəzarətin təşkilinə verilən tələblər (sistemliliyi, obyektivliyi, təsirliliyi, səriştəliliyi) ətraflı təhlil və tədqiq olunur. Məktəbin idarə edilməsi ilə bağlı nəşr olunan kitabların içərisində həcminə və mündəricəsinə ğörə M.İsmixanov və R.Bəxtiyarovanın “Məktəbin idarə edilməsi” [14] dərs vəsaiti fərqlənir. Mühazirə mətnləri kimi nəşr olunan kitabda məktəbin idarə edilməsinin nəzəri-metodoloji məsələləri, məktəbdə idarəetmə prosesi və məktəbin idarəedilməsinin təşkilati-metodiki məsələləri əhatə olunur. Kitabda idarəetmədə rəhbərlik üslubları (avtoritar, demokratik, liberal), məktəb direktorunun funksiyaları (planlaşdırma və proqnozlaşdırma, təşkilati-sərəncam vermə, nəzarət-metodiki, məktəbin maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik) əhatəli şəkildə araşdırılmışdır. M.İsmixanov özünəqədərki araşdırmalardan fərqli olaraq məktəb direktoruna verilən tələblərə perseptiv qabiliyyəti əlavə edir [14, 53]. Ə.Paşayev və F.Rüstəmovun “Pedaqogika” dərs vəsaitində müəllimin pedaqoji qabiliyyəti 7 qrupa ayrılır ki, onlardan da üçüncüsü məhz perseptiv qabiliyyətdir [13, 42]. Bu qabiliyyət şagirdlərin daxili aləmini görmək bacarığında, onların emosional vəziyyətini obyektiv qiymətləndirməkdə, psixikasının

xüsusiyyətlərini üzə çıxarmaqda özünü büruzə verir. Perseptiv qabiliyyətin məzmunundan aydın olur ki, o daha çox müəllimlərə aiddir. Digər tərəfdən isə hazırkı dövrdə Azərbaycan məktəblərində pedaqoji təhsili və ən azı üç illik pedaqoji stajı olmayan məktəb direktoru yoxdur. Deməli, perseptiv qabiliyyət müəllimin əsas qabiliyyətlərindən biridir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsas hədəflərindən biri də idarəetmədə nəticələrə görə cavabdehlik və şəffaflığın təmin edilməsidir. Strategiyada "təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi" vacib hesab olunur. Elə bu səbəbdəndir ki, son illərdə məktəbin idarə olunması problemi ilə bağlı tədqiqatlarda bu məsələyə xüsusi diqqət yetirilir, "təhsildə tənzimləmə, idarəetmə və nəzarət funksiyalarının dəqiq müəyyən edilməsi" önə çəkilir. Bu baxımdan son illərdə nəşr olunan "Menecment, marketinq və təhsilin iqtisadiyyatı" [1], "Ümumtəhsil məktəblərinin idarəedilməsi işinin planlaşdırılması" [14] kitabları, Ə.Ağayevin "Məktəbi idarəetmənin nəzəri və təcrübi məsələlərinə dair", A.Əhmədovun "Ümumtəhsil məktəblərində fəaliyyət planının hazırlanması", Q.Hüseynovun "Nəticəyönümlü və şəffaf idarəetmə modelinə dair", N.Gündüzlünün "Məktəbin idarə edilməsi məsələləri", A.Əhmədlinin "Liderlik vacib keyfiyyətdir", Y.Abbasovun "Ümumtəhsil müəssisələrində idarəetmənin modernləşdirilməsi", A.Məmmədovanın "Ümumtəhsil məktəblərində metodbirləşmələrin fəaliyyət istiqamətləri" adlı elmi məqalələri əhəmiyyətliliyi ilə seçilir.

Məktəbin idarəedilməsi ilə bağlı xeyli araşdırmalar olsa da bəzi hallarda onlar bir-birini təkrar edir, yalnız şərh üslubuna görə fərqlənir. Məsələn, bütün dərslik və dərs vəsaitlərində, monoqrafiyalarda, məqalələrdə XX əsrin görkəmli sosial psixoloqu K.Levin tərəfindən təsnif edilən idarəetmə üslubları (avtoritar, demokratik, liberal) olduğu kimi verilsə də, fikrin kimə məxsusluğu bildirilmir. Bəzi tədqiqatlar elmi-nəzəri səviyyəsi ilə fərqlənsə də orada məktəb həyatının spesifikliyi, mənəvi mühiti, ruhi aləmi duyulmur. Bəzən də milli məktəblərimizdə Avropa, Türkiyə və Rusiyada məktəbi idarəetmənin nəzəri və praktik aspektlərinə adekvatlıq axtarılır. Fikrimizcə, idarəetmə sistemlərinin tam eyniləşdirilməsi elmi cəhətdən səhv yanaşma olduğu kimi, praktik cəhətdən də zərərlidir. Pedaqoji sistemləri idarəetmədə yerli şərait, etnopsixioloji xüsusiyyətlər, sosiomədəni amillər və mental dəyərlərin nəzərə alınması nəinki vacibdir, hətta zəruridir. Digər halda pedaqoji kollektivdə, direktor-müəllim, müəllim-müəllim, müəllim-şagird, müəllim-valideyn münasibətlərində münaqişələrin yaranması qaçılmaz olar.

# ƏDƏBİYYAT

1.Məmmədzadə R. və b. Menecment, marketinq və təhsilin iqtisadiyyatı. Bakı, "Müəllim", 2015.

2.Фельдштейн Д. И. Психологические основы общественно полезной деятельности подростков. М.: Педагогика, 1982.

3.Əhmədov N. Məktəbdaxili nəzarətin forma və metodları. Bakı, Maarif, 1988.

4. Захаров М.Г.Организация труда директора школы. М., Просвещение, 1971

5. Стрезикозин В.П. Руководство учебным процессом в школе. М.: Просвещение, 1972.

6. Соцко Н. Я. Практический менеджмент. Методы и приемы деятельности руководителя. Д.: Сталкер, 1998.

7. Удовлетворенность трудом : Мнение социолога. М. : Политиздат, 1983.

8. Əhmədov H., Həsənov A., Bayramov H., Məhərrəmov Ə. İdarəetmənin pedaqogika və psixologiyası. Bakı, "Maarif", 2000.

9. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, "Maarif", 1989.

10. Həmzəyev M. Tələbə-müəllim münasibətlərinin sosial-psixoloji məsələləri. BAPQS-in Elmi Xəbərləri, II buraxılış, Bakı, Nurlan, 2003, s.3-7.

11.Mehrabov A., Əliyev A. Ümumtəhsil məktəblərində idarəetmə və təhsilvermənin inkişaf modelləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi Əsərləri.Bakı, 2003, №12, s.11-14.

12.Talıbov Y., Ağayev Ə. , İsayev İ., Eminov A. Pedaqogika. Bakı, Maarif, 1993.

13.Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, Elm və təhsil, 2012.

14. Əliyev P.Ümumtəhsil məktəblərinin idarəedilməsi işinin planlaşdırılması.Bakı, 2016.

**UOT 376**

# İNKİŞAF PROBLEMLƏRİ OLAN UŞAQLARA BƏRPAEDİCİ YARDIM SİSTEMİ

***Şəhla Əliyeva***
*Azərbaycan Dövlət*
*Pedaqoji Universiteti*
*aliyevashaxla@mail.ru*

**Açar sözlər:** *uşaq, inkişaf, yardım, bərpaedici*

**Mövzunun aktuallığı**: İnkişaf problemləri olan məktəbəqədər yaşlı uşaqlara bərpaedici dəstəyin hansı müəssisələrdə həyata keçirilməsi haqda məlumat verilir. Xüsusi məktəbəqədər təhsil müəssisələrinin qarşısında inkişaf problemləri olan uşaqların bərpaedici təlim və tərbiyəsinin həyata keçirilməsi məsələsi aydınlaşdırılır, həmin uşaqların inteqrasiya olunduğu ümumi inkişafetdirici məktəbəqədər təhsil müəssisələrinin funksiyası göstərilir.

**Elmi yeniliyi:** Müasir dövrdə inkişaf problemləri olan məktəbəqədər yaşlı uşaqlara bərpaedici dəstəyin müəssisələrdə həyata keçirilməsinin əsaslarını müəyyən etməkdir.

**Praktik əhəmiyyəti**: İnkişaf problemləri olan məktəbəqədər yaşlı uşaqlara bərpaedici dəstəyin həyata keçirilməsi və həyatda aktiv iştiraka hazırlanması məqsədi ilə

## THE RESTORATIVE AID SYSTEM TO DISABLED CHILDREN

***Shahla Aliyeva***

**Keywords:** *child, development, help, repairer*

**The actuality of the theme**: the pre-school with the disability are informed about restorative support carrying out in which institutions.The task of carrying out disabled children s education are cleared up at special pre-school education institutions, and the function of the children that integrated to general improving pre-school education institutions are shown.

**The scientific novelty**: Nowadys it should be defined carrying out the basic of the restorative support of the disabled children in institutions.

**Practical importance**: with the purpose of restorative support of the pre-school children having problems and to prepare them to active participation in life.

## СИСТЕМА КОРРЕКЦИОННОЙ ПОМОЩИ ДЕТЯМ С ОТКЛОНЯЮЩИМСЯ РАЗВИТИЕМ

***Шахла Алиева***

**Ключевые слова**: *ребенок, развитие, помощ, коррекционное*

**Актуальноть темы:** Дается информация о том в каких учреждениях оказывается реабилитационная помощь детям дошкольного возраста с проблемами развития. Перед специальными дошколными учреждениями стоит проблема выяснения реабилитационного обучения и воспитания детей с проблемами развития а также указывается для интеграции этих детей.

**Научная новизна**: Определение основ реабилитационной помощи детям дошкольного возраста с проблемами развития в учреждениях.

**Практическая значимость**: С целью подготовки детей дошкольного возраста с проблемами развития к активной жизни и предоставления им реабилитационной помощи.

İnkişaf pozulmaları olan məktəbəqədəryaşlı uşaqlara vaxtında sistemli olaraq göstərilən psixoloji-tibbi-pedaqoji yardım, valideynlərinin metodiki-məsləhət formasında dəstəklənməsi, uşağın sosial cəhətdən uyğunlaşdırılması və təhsilə həvəsin formalaşdırılması təhsil, səhiyyə və sosial müdafiə strukturları vasitəsilə həyata keçirilir.

Təhsil sistemində bu uşaqlara göstərilən pedaqoji kömək müxtəlif təşkilati formalarda həyata keçirilir. İnkişaf problemləri olan uşaqlar üç növ məktəbəqədər təhsil müəssisələrində tərbiyə olunur. Onlar aşağıdakılardır:

- inkişafında bu və ya digər kənara çıxmaları olan uşaqların təhsil almaları üçün nəzərdə tutulmuş bərpaedici məktəbəqədər təhsil müəssisələri;
- həm normal inkişaf edən uşaqlar üçün nəzərdə tutulmuş, həm də bərpaedici qrupları olan qarışıq tipli məktəbəqədər təhsil müəssisələri;
- inkişaf problemləri olan uşaqların mütləq olaraq dəstəklənməsi şərti ilə onların normal inkişaf edən uşaqlarla birlikdə təhsil ala bilmələri üçün ümumitipli məktəbəqədər təhsil müəssisələri.

İnkişaf problemləri olan və ev şəraitində tərbiyə olunan uşaqlar xüsusi (bərpaedici) təhsil müəssisələrinin məktəbəqədər qruplarında, bərpaedici və ya qarışıq tipli məktəbəqədər təhsil müəssisələrində qısa müddət qalmaq şərti ilə təhsil ala bilər.

İnkişaf problemləri olan məktəbəqədəryaşlı uşaqlara bərpaedici dəstək həmçinin aşağıda göstərilən müəssisələrdə həyata keçirilir:

- psixoloji-pedaqojivə tibbi-sosial yardıma ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulmuş təhsil müəssisələrində. Belə bərpaedici dəstək diaqnostika və məshətxana, psixoloji-tibbi-sosial müşayiət, psixoloji-pedaqoji reabilitasiya və korreksiya mərkəzlərində məktəbəqədəryaşlı uşaqlar üçün yaradılmış xüsusi qrup şəraitində həyata keçirilir;[1,56]
- uzunmüddətli müalicəyə ehtiyacı olan uşaqlar üçün sanatoriya tipli sağlamlaşdırıcı təhsil müəssisələrində məktəbəqədəryaşlı uşaqlar üçün yaradılmış xüsusi qrup şəraitində həyata keçirilir;
- əlavə təhsil müəssisələri: buraya uşaqlar üçün əlavə təhsil müəssisələri, müxtəlif profilli sağlamlaşdırıcı mərkəzlər və s. daxildir.

Bərpaedici məktəbəqədər təhsil müəssisələrinin və bərpaedici "ibtidai məktəb-uşaq bağçası" müəssisələrinin, inkişaf problemlər iolan uşaqlar üçün nəzərdə tutulan qrupların, xüsusi məktəblərin məktəbəqədər şöbələrinin, internatların, yetim uşaqlar və valideyn qayğısı görməyən uşaqlar üçün nəzərdə tutulmuş uşaq evlərinin komplektləşdirilməsi fasiləsiz olaraq fəaliyyətdə olan psixoloji-tibbi-pedaqoji komissiyalar tərəfindən həyata keçirilir. Uşağın bu və ya digər müəssisəyə keçirilməsi, onun ümumtəhsil tipli və yaxud "İbtidai məktəb-uşaq bağçası" tipli təhsil müəssisəsinə istiqamətləndirilməsi məsələləri də bu komissiyanın səlahiyyətindədir.

İnkişaf problemləri olan məktəbəqədəryaşlı uşaqlar psixoloji-tibbi-pedaqoji komissiya və təhsil, səhiyyə və sosial müdafiə sisteminin digər müəssisələri tərəfindən valideynlərin razılığı ilə psixoloji-pedaqoji və tibbi-sosial yardıma ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulmuş təhsil müəssisələrinə istiqamətləndirilir.

Sanatoriya tipli sağlamlaşdırıcı təhsil müəssisələri səhiyyə orqanları tərəfindən təşkil edilir. İnkişaf problemləri olan uşaqlar əlavə təhsil müəssisələrinə valideynlərin istəyi və mütəxəssislərin tövsiyyəsi ilə qəbul olunur.

İnkişaf problemləri olan məktəbəqədəryaşlı uşaqların təlim və tərbiyəsi xüsusi tədris planı və proqramları, o cümlədən lisenziyalı müəllif proqramlarına uyğun olaraq bərpaedici məktəbəqədər təhsil müəssisələrində, bərpaedici "İbtidai məktəb-uşaq bağçası" müəssisələrində, xüsusi müəssisələrin məktəbəqədər qruplarında həyata keçirilir. Bu müəssisələrdə inkişafında bu və ya digər kənara çıxmaları olan məktəbəqədəryaşlı uşaqların inkişaf xüsusiyyətlərinə cavab verən əşyavi-inkişafetdirici şərait yaradılır. Uşaqların təlim və

tərbiyəsi xüsusi hazırlanmış defektoloq-müəllimlər, tərbiyəçilər, fizikitərbiyə təlimçilər tərəfindən həyata keçirilir.

Beləliklə, inkişaf problemləri olan uşaqlar həm xüsusi müəssisələrdə, həmdə qarışıq tipli müəssisələrdə təhsil ala bilər. İnkişaf problemləri olan uşaqların inteqrasiyası aşağıdakı şərtlərlə mümkün ola bilər:

- kənaraçıxmaların erkən korreksiyası (həyatının ilk həftələrindən) və kompensasiyaedici mexanizmlərin formalaşdırılması.
- ümumtəhsil müəssisəsi şəraitində təlimvə tərbiyə alan hər bir uşaq üçün mütləq bərpaedici yardımın təmin edilməsi.
- bu və ya digər inteqrasiyalı tərbiyə modelinin seçimi zamanı tibbi-pedaqoji əsasın olması.

İnteqrasiya xüsusi təhsil proqramına qarşı çıxmır, sistem daxili formalardan biri kimi çıxış edir. İnteqrasiya – xüsusi pedaqogikanın bir modelidir; ümumtəhsil mühitinə inteqrasiya olunmuş inkişaf problemləri olan uşaq bu sistemin patronajı altında qalır: o, ya məktəbəqədərtəhsil müəssisəsi nəzdində olan xüsusi, qarışıq tipli qrupda təhsil alır, yaxud da, normal inkişafedən uşaqlarla eyni qrupda təhsil alaraq mütləq olaraq bərpaedici yardım alır. Deməkolarki, inteqrasiya iki təhsil sistemini – ümumi və xüsusi təhsil sistemlərini özündə birləşdirir.

Qarışıq tipli müəssisələrdə uşaqların inkişaf səviyyəsi və fərdi inkişaf xüsusiyyətləri nəzərə alınmaqla inteqrasiya müxtəlif formalarda həyata keçirilməlidir:

- qarışıq inteqrasiya: özünün yaş normasına uyğun və ya bu normaya yaxın psixofiziki və nitq inkişafına malik, sərbəst şəkildə özünə qulluq edə bilən uşaqlar bir-iki nəfərdən çox olmamaq şərti ilə ümumi qruplarda təhsil alır, sistematik olaraq defektoloq-müəllim və pedaqoq-psixoloq tərəfindən bərpaedici yardım alırlar.
- qismən inteqrasiya: normal inkişafedən yaşıdları ilə yanaşı proqramın tələblərini hələ mənimsəyə bilməyən uşaqlar (1 - 2 nəfər) günün yalnız bir hissəsini (məsələn, günün ikinci yarısını) normal inkişafedən yaşıdlarının qrupunda keçirir.
- müvəqqəti inteqrasiya: xüsusi qrupun uşaqları psixofiziki və nitqin kişafı səviyyəsindən və özünəqulluq bacarıqlarından asılı olmayaraq müxtəlif tərbiyəvi xarakter daşıyan tədbirlərin keçirilməsi məqsədi ilə ayda 1 - 2 dəfədən az olmamaq şərti ilə qrupda sağlam uşaqlarla birləşdirilir.

Bu formaların həyata keçirilməsi üçün korreksion-pedaqoq və pedaqoq-psixoloq mütləq olaraq inteqrasiya prosesinə rəhbərlik etməlidir. Onlar inkişaf problemləri olan uşağın sağlam yaşıdlarının kollektivində təlim və tərbiyəsinin təşkilinə köməklik edirlər.

- tam inteqrasiya: tam inteqrasiya psixofiziki və nitq inkişafı səviyyəsi yaş normasına uyğun olan və ya normaya yaxın olan, özünə sərbəst şəkildə qulluq

edə bilən və psixoloji cəhətdən sağlam yaşıdları ilə birgə təhsil almağa hazır olan inkişaf problemli uşaqlar üçün effektiv ola bilər. Bu cüruşaqlar 1 - 2 nəfərdən çox olmamaq şərti ilə "İbtidai məktəb-uşaq bağçası" müəssisəsinin uşaq bağçasının adi ümumi inkişafetdirici qrupuna daxil edilir. Bu zaman onlar ya təhsil aldıqları müəssisədə, ya məktəbəqədər təhsil müəssisəsinin xüsusi qruplarında, ya xüsusiməkəzlərdə, yaxud da yaşayış yeri üzrə poliklinikalarda mütləq olaraq bərpaedici yardım almalıdırlar.

İnkişaf problemləri olan uşaqların normal inkişaf edən yaşıdlarının qrupuna müxtəlif formalarda inteqrasiyasının həyatakeçirilməs ixüsusi ehtiyacları olan məktəbəqədər yaşlı uşaqların sosiallaşmasına səbəb olmalı, normal inkişaf edən uşaqlar üçün isə elə mühit yaratmalıdırki, onlar dünyanın vahid insan kütləsindən ibarət olduğunu anlasın.

Həm ümumi inkişaf etdirici və qarışıq, həmdə kompensasiyaedici tipli məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinin mütləq komponentlərindən biri inkişaf problemləri olan uşaqların inteqrasiyası üzrə məqsədyönlü işlərin görülməsidir. Xüsusi məktəbəqədər təhsil müəssisələrinin qarşısında inkişaf problemləri olan uşaqların bərpaedici təlim və tərbiyəsinin həyata keçirilməsi məsələsi durursa, həmin uşaqların inteqrasiya olunduğu ümumi inkişafetdirici məktəbəqədər təhsil müəssisələrinin və "İbtidai məktəb-uşaq bağçası" tipli müəssisələrin qarşısında təmamilə fərqli məsələlər durur:

- inkişaf problemləri olma şübhəsi yaranan məktəbəqədər yaşlı uşaqların aşkarlanmasına istiqamətlənmiş pedaqoji müşahidə və skrinninq-diaqnostika;
- övladının kompleks tibbi-psixoloji-pedaqoji müayinəsinin zərurətini anlatmaq məqsədi ilə bucür uşaqların valideynləri ilə iş;
- inkişaf problemləri olan uşağın mütləq olaraq deffektoloq-müəllim, pedaqoq-psixoloq və digər mütəxəssislərlə fərdi bərpaedici-inkişafetdirici məşğələlərlə təmin edilməsi məsələsinin qaldırılması;
- inkişaf problemləri olan uşağın konkret problemlərinin xüsusiyyətləri nəzərə alınmaqla, mütəxəssislərin tövsiyyələrinə uyğun olaraq, bu uşağın təlim və tərbiyəsinə fərdi yanaşmanın təminedilməsi;
- ümumi tipli təhsil müəssisəsi ilə inkişaf problemləri olan uşağa həmin müəssisədən kənar dabərpaedici yardım göstərən mütəxəssislər arasında əlaqənin təmin edilməsi;
- inkişaf problemləri olan uşağın təlimvə tərbiyəsinə vahid yanaşmanı təmin etmək, mütəxəssislərin tövsiyyələrinə əməl etmək, normal inkişafedən uşaq üçün nəzərdə tutulmuş proqramın tələblərinə yiyələnməkdə həmin uşağa kömək etmək məqsədi ilə onun valideynləri ilə iş, [4,33]
- inkişaf problemləri olan uşağın inkişafına məqsədyönlü nəzarət. Bunların hamısı uşağın təlim və tərbiyəsi prosesində dəyişikliklərin vaxtlı-vaxtında həlli məqsədi ilə edilir. Söhbət bunlardan gedə bilər: a) məktəbəqədər yaşlı uşağın xüsusi qrupa keçirilməsinin arzu olunan olması haqqında; b) mütəxəssislə

inkişafetdirici-bərpaedici məşğələlərin intensivliyi, normal inkişaf edən məktəbəqədər yaşlı uşaqlar üçün nəzərdə tutulmuş proqram tələblərinin mənimsənilməsində uşağaköməklik, inteqrasiyalı tərbiyənin əşyavi-texniki bazasının mükəmməlləşdirilməsi haqqında; c) inkişaf problemləri olan uşağın normal inkişafedən uşaqlarla eyni mühitdə təhsilalmasını təşkil etməkdə tərbiyəçiyə göstərilən köməklik haqqında.[1,47]

Xüsusi şəraitin yaradılması uşağın dinamik psixoloji-pedaqoji təlim və tərbiyəsi prosesində inkişafetdirici-bərpaedicivə təlim-tərbiyə kompleksinin həlli məqsədi ilə həyata keçirilir. Bu zaman aşağıdakı **şərtlərə** əməl olunmalıdır:

- təlim və tərbiyənin məzmunu körpə, erkənvə məktəbəqədər yaşlı uşaqların inkişafının zənginləşdirilməsinə istiqamətləndirilmişdir;
- uşaqlarla bərpaedici işin vəzifəsi və məzmununun inkişaf problemlərinin quruluşu, dərəcəsi və xarakterini nəzərə alır;
- böyüklərlə uşaqlar arasındakı qarşılıqlı təsirin məzmun və xarakteri uşaqlığın müxtəlif dövrlərində müxtəlifdir;
- əşyavi-texniki və tibbi-sosial şərait, əşyavi-inkişaetdirici mühit bərpaedici və təlim məsələlərinə uyğundur;
- mütəxəssislərin peşəkar hazırlığı uşağın sağlamlığının qorunması və möhkəmləndirilməsinə, onun fiziki və psixi inkişafına, inkişaf problemlərinin korreksiyasına istiqamətlənmişdir. Bundan əlavə, bu hazırlıq daim mükəmməlləşdirilməli və müasir elm və təcrübənin nailiyyətlərinə uyğun olmalıdır.

Fərdi istiqamətlənmiş yanaşma pedaqoji-bərpaedici prosesin gedişatında böyüklə uşaq arasındakı qarşılıqlı təsirin təşkilinə olan əsas tələbatdır və hər bir uşaq üçün psixoloji təhlükəsizliyin təmin edilməsinə və psixoloji rahatlığın yaradılmasına istiqamətləndirilmişdir.

Məktəbəqədər yaş dövründə böyüklə uşaq arasındakı qarşılıqlı təsir uşağın sosial təsirlərə olan xüsusi həssaslığı əsasında qurulur. Qarşılıqlı təsirin əsas forması bərabərhüquqlu əməkdaşlıq ,uşaq sərbəstliyi və təşəbbüsünün stimullaşdırılması əsasında qurulan ünsiyyətdir.

Böyüklər nailiyyətlərinin qəbul edilməsi tələbatını təmin etməklə (çəkdiyi rəsmlərdə, əl işlərində, konstruksiyalarda qüsur və çatışmazlıq axtarmır, lazımsız hərəkətlərinə diqqəti cəlb etmir və s.), uşaqda özündən əminlik və əldə etdiyi nəticələr üçün qürur hissini formalaşdırır. Situasyadankənar ünsiyyət formalarının inkişaf etdirilməsinə diqqət ayırır, uşaqda yaşıdını müsbət qəbul etmək və onunla ünsiyyət qurmaq bacarığını tərbiyələndirir. Böyüklər həm məşğələ zamanı, həm də ondan kənar uşaqların fəaliyyətinin aktiv iştirakçısı olmalıdır. Ümumilikdə, böyüyün müxtəlif inkişaf problemləri olan uşaqlarla qarşılıqlı təsiri uşaqda "Mən" obrazının, "Mən-mövqeyinin" yaranmasına, yaşıdları və böyüklər arasında, təbiətdə, müəyyən məkan və

zamanda özünü dərk etməsinə səbəb olmalı, idraki və yaradıcı bacarıqların və zəruri fərdi keyfiyyətləri formalaşdırmalıdır.

Əşyavi-inkişafetdirici mühitin yaradılması uşağın və onun inkişafının maraq və tələbatlarını, yaş xüsusiyyətlərini və bərpaedici-tərbiyəvi təsirin məsələlərini nəzərə almalıdır.

Əşyavi-inkişafetdirici mühit və sosiomədəni əhatə uşağın inkişafını zənginləşdirən güclü faktordur. Bu mühitin yaradılmasının əsasında inkişaf problemləri olan uşağın bərpaedici-inkişafetdirici təhsilinə olan sistemli yanaşma və fəaliyyətin xarakteri, onun körpə, erkən yaşlı və məktəbəqədər yaşlı uşağın psixi , fərdi inkişafı üçün rolu və mahiyyəti haqqında müasir təsəvvürlər durur. Erkən uşaqlıq dövründən başlayaraq, şəxsiyyətin tam inkişafının ən mühüm mexanizmi uşağın fəaliyyəti, bu fəaliyyətin müxtəlif növləridir: ünsiyyət, oyun, hərəkət. əmək, konstruksiya, rəsm və s. Tərbiyənin müxtəlif mərhələlərində bu və ya digər fəaliyyət növü aparıcı olur: körpəlik dövründə - böyüklərlə ünsiyyət şəraitində həyata keçirilən tədqiqat fəaliyyəti:

- erkən uşaqlıq dövründə -əşyavi fəaliyyət;
-məktəbəqədər yaş dövründə - oyun fəaliyyəti;

Uşağın dolğun inkişafını təmin etmək üçün əşyavi-inkişafetdirici mühitin və uşaqların böyüklərlə məzmunlu ünsiyyətinin vəhdət şəklində olması zəruridir.

Uşaqlığın əşyavi-inkişafetdirici mühiti - bütün uşaq fəaliyyət formalarının inkişafına, ali psixi funksiyalarda olan kənaraçıxmaların korreksiyasına və uşaqda şəxsiyyətin formalaşmasına səbəb olan şərtlər sisteminin yaradılmasıdır. Buraya uşağın tam fiziki, sosial, idraki və estetik inkişafı üçün zəruri olan bir sıra komponentlər daxildir. Onlara təbiət obyektləri və şəraiti, mədəni landşaftlar, sağlamlaşdırıcı avadanlıq, əşyavi-oyun mühiti, məşğələlərdə əşyavi-inkişafetdirici mühit və s. aiddir.

Müasir məktəbəqədər təhsil müəssisəsində inkişafetdirici əşyavi mühitin komponentlərinin məzmununu müəyyənləşdirmək üçün yalnız yaş-fəaliyyət yanaşmasına əsaslanmaq lazımdır. İnkişafetdirici əşyavi mühitin məzmunu həm aktual, hazırki, həm də perspektivdə olan inkişafın tələblərinə uyğun olmalı və uşağın fərdi bacarıqlarına cavab verməlidir.

Təhsil müəssisəsinin tipindən, tərbiyənin məzmununun bərpaedici istiqamətlənməsindən, mədəni ənənələrdən asılı olaraq inkişafetdirici əşyavi mühit xüsusi koloritə malik ola bilər. Bu zaman əşyavi inkişafetdirici mühit məzmunlu-pedaqoji və proyektiv-dizayner səviyyəsində təmin edilən variativlikdən irəli gəlir.

Əşyavi mühit sistemli olmalıdır. yəni uşaqların müəyyən yaşına və fəaliyyətinin məzmununa, həmçinin, milli mədəniyyətin əsas prinsiplərinə cavab verməlidir.

Uşaqların sağlamlığının qorunması, möhkəmləndirilməsi və təkmilləşdirilməsi, həmçinin, ətraf aləmin qavranılması, kommunikativ fəaliyyətin inkişaf etdirilməsi və inkişaf problemləri olan uşaqların sosiallaşdırılması vasitəsi qismində maddi-texniki təminatdan istifadə edilə bilər.

Bu və ya digər inkişaf problemləri olan uşaqlar tibbi göstərişlərin olması şərti ilə fərdi texniki vasitələrlə təmin edilməlidir.

İnkişaf problemləri olan uşaqların təhsil aldığı ümumtəhsil müəssisələri və xüsusi təhsil müəssisələri orada müəyyən kateqoriya uşaqların olması nəzərə alınmaqla təchiz olunur.

Bundan əlavə, xüsusi mətəbəqədər təhsil müəssisələri və qarışıq məktəbəqədər təhsil müəssisələrinənə daxil olan xüsusi qruplar xüsusi təchizatla təmin edilməlidir. Bərpaedici-pedaqoji prosesin məsələlərinin effektiv şəkildə həyata keçirilməsi inkişaf problemləri olan uşaqların təlim və tərbiyəsi prosesində iştirak edəcək pedaqoji kadrların peşəkar səviyyədə hazırlaşdırılması səviyyəsindən birbaşa asılıdır. Pedaqoji kadrlar şəxsiyyətə istiqamətlənmiş pedaqogikanın metodikasını yaxşı bilməli, korreksiyaedici-pedaqoji prosesi uşağın yaş və fərdi xüsusiyyətlərini, kənaraçıxmaların strukturunu nəzərə alaraq, sosial pedaqogika və psixologiyanın ənənəvi prinsip və metodlarına əsaslanaraq, həmçinin, müasir pedaqoji texnologiyalardan istifadə edərək qurmalıdır.

## ƏDƏBİYYAT

1.Hüseynova N. Korreksion pedaqogika. Bakı, 2015

2.Əlizadə Ə. “Yeni pedaqoji təfəkkür:psixopedaqogikaya giriş”. Bakı, ADPU, 2008

3.Hüseynov Q ., Şərəfxanova L., və b. İnklüziv təhsil. Bakı, 2010

4.Kərimova E.Azərbaycanda xüsusi təhsilin real vəziyyəti. ARTPİ Elmi əsərlər”. 2009, 3-4

**UOT 37**

# “FÜYUZAT”ÇILAR MİLLİ ÖZÜNÜDƏRK VƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ HAQQINDA

***Könül Həsənova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

**Açar sözlər:** *“füyuzat”çılar, milli özünüdərk, vətənpərvərlik tərbiyəsi, “Füyuzat” jurnalı, tərbiyə nəzəriyyəsi*

## «FIYUZAT» ISTS ABOUT NATIONAL SELF – ESTEEM AND PATRIOTISM UPBRINGING

***Konul Hasanova***

**Keywords:** *«Fiyuzat» ists, self –esteem, patriotism upbringing, «Fiyuzat» journal*

The article deals with the national self – esteem and patriotism upbringing of «Fiyuzat» (1906 – 1907) employees. It is shown that the first great ideologist of the of national self – esteem in Azerbaijan social – pedagogical thinking the publicist A. Huseynzade His friends of persuasion supported his ideas and continued them. Their self – esteem ideas merge with the patriotism line. The issues shown in this article become the analysis object on a large scale. The «Fiyuzat» lists job in this course, their role becomes clearer.

## «ФИЮЗАТИСТЫ» О НАЦИОНАЛЬНОМ САМОСОЗНАНИИ И ПАТРИОТИЧЕСКОМ ВОСПИТАНИИ .

***Кёнуль Гасанова***

**Ключевые слова:** *«Фиюзатисты», национальное самосознание, патриотическое воспитание, журнал «Фиюзат»*

В статье говорится о взглядах сотрудников «Фиюзат» (1096 – 1907) на темы национального самосознания и патриотического воспитания. Показывается, что А. Гусейнзаде является великим идеологом идеи

национального самосознания азербайджанской общественно – педагогической мысли. Его соратники тоже поддерживали и продолжали идеи Али - бека. Их идеи национального самосознания и патриотизма слились воедино. Эти вопросы, которые нашли отражение, стали объектом аналитического исследования. Проясняется и выявляется проделанная работа «Фиюзатистов» и их существенная роль в этом направлении.

XX əsrin əvvəllərində "füyuzat"çılar və "molla nəsrəddin"çilər xalqımızın öz milli varlığını dərk etməsində, etnik yaddaşın bərpasında, xalqı yalnız xarakter, səciyyə baxımından deyil, həm də milli kimlik nöqteyi-nəzərindən özünə tanıtmaqda əvəzsiz xidmətlər göstərdilər. Burada bir məsələni də xatırlatmaq yerinə düşər. "Füyuzat"çılar Ə.Hüseynzadə başda olmaqla milli özünüdərk tərbiyəsini "türkçülük", "turançılıq", "molla nəsrəddin"çilər isə C.Məmmədquluzadə başda olmaqla "azərbaycançılıq" kontekstində aparırdılar.

Əlbəttə, milli özünəqayıdış düşüncəsinin həyat səhnəsinə gəlişi, milli məfkurə və fikir arenasında təzahürü təsadüfi səciyyə daşımırdı. Bu, baş verən ictimai-siyasi, mədəni-pedaqoji hadisələrin bətnindən doğurdu. Onu yetişdirən, közərdən və nurlu bir ideya kimi ortalığa qoyan tarixi şəraitin özü idi. Azərbaycanda istiqlal mübarizəsinin tədqiqatçılarından olan türk alimi Hüseyn Baykaranın dediyi kimi: "Tarix özü buna şərait yaratmışdır, yoxsa Azərbaycan millətçilik fikrini Ə.Ağaoğlu Fransadan, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə İstanbuldan gətirdiyi düşüncəsi yanlış və əsassızdır. Şəraitin yetişmədiyi bir zamanda kənardan heç kim heç bir fikir gətirib toplum həyatına yerləşdirə bilməz" [1, 76].

XIX əsrin sonları və XX yüzilliyin ilk illərində Azərbaycan ictimai fikrində milli mənsubiyyət, milli kimlik məsələləri ilə bağlı müəyyən mülahizələr səslənsə də, həmin milli-ideoloji məfkurənin ilk təməldaşı, ən böyük ideoloqu, onu tam və yetkin bir sistem halına salan Ə.Hüseynzadədir. İlk dəfə məhz onun şərh və təhlilləri ilə qövmi özünüdərkin konturları cızılır, ictimai-siyasi və pedaqoji fəlsəfəsi, əhəmiyyəti müəyyənləşdirilir, mahiyyəti açılır. Nəhayət, o zamanın böyüməkdə olan nəsli və ümumilikdə vətəndaşları tərbiyə atributları sırasına daxil edilir. Əli bəyin "türkləşmək, islamlaşmaq, müasirləşmək" triadasından ibarət milli-ideoloji şüarının ilk atributu məhz milli özünüdərk missiyası ilə bağlıdır. Görkəmli alim Yaşar Qarayev haqlı olaraq yazır ki: "Bayrağımızdakı üç rəngin üçünün də rəssamı Əli bəydir. Milli gerbimizdəki boya simvolikası da onun "türkləşmək, islamlaşmaq, müasirləşmək" – düsturunun rəngdə ifadəsindən başqa bir şey deyildir. Şübhəsiz, söhbət yalnız boyadan və kətandan getmir, həm də təməldən, bünövrə daşından, dəmir özüldən gedir: Əli bəy Azərbaycanda yox, bütün türklük miqyasında qövmi özünüdərkin, istiqlal düşüncəsinin təkcə rəssamı deyil, həm

də memarıdır... Məhz bu mənada nəinki Məhəmməd Əmin və Nəriman Nərimanov, üstəlik, Ziya Gökalp və Kamal Atatürk də Əli bəy Hüseynzadədən başlayır.

Azərbaycanda milli bir ideologiya səviyyəsində türkçülüyün ilk dəfə hərəkətə gəldiyi qatarın sükanı arxasında hamıdan əvvəl Əli bəyi görürük və bu qatar sonralar bütün Qafqazdan, Orta Asiyadan, Anadoludan keçir. Öz hərəkətində milli-mənəvi mədəniyyətin bütün əsas qatlarını – elmi, sənəti, fəlsəfəni, sosiologiyanı... birləşdirir" [5, 4].

Xalqın milli kimliyinin dərki istər Əli bəyin, istərsə də "füyuzat"çıların amal və əməlində, "qövlündə" və "felində" (sözündə və işində) ardıcıl və əsas xətlərdən biridir. Böyük mütəfəkkir və onun məsləkdaşları baş ideoloqun "Həyat" qəzetinin ilk nömrəsində (1905, №1) bəyan etdiyi bu mətləbi bütün fəaliyyətləri boyu diqqət mərkəzində saxlamışlar: "Özünü tanıyan Allahını tanımış olur" hədisi-şərifinin müstəfadınca ancaq o taifə, o millət təriqi-fəlah və nicatda olur ki, özünü tanıya. Yəni hər qövm və millət öz qövmiyyətinə, lisanına, dininə, tarixinə, adət və əxlaqına və əlhasil özünün bütün əhvali-maziyə (keçmişinə – K.H.) və hazırisinə, hətta əhvali-atiyəsinə (gələcəyinə – K.H.) kəsbi-vüquf eyləməlidir" [5, 36].

Ə.Hüseynzadənin türkçülük, qövmi özünüdərk və milli təəssübkeşlik məsələlərinə son dərəcə həssas yanaşması səbəbsiz deyildi. O, osmanlı türklərindən başqa türk xalqlarının əksəriyyətinin əsarət altında olduğunu, zülm və cəhalət içərisində əzildiyini, geridə qaldığını söyləyir, bu fəlakətdən çıxış yolunu ümumtürk birliyinə, türk ittihadına nail olmaqda görürdü. Belə bir birliyin yaradılması üçün müxtəlif türk etnosları öz etnik mənşəyini bilməli, dərk etməli, başqa türk qövmlərinin onun qan qardaşı olduğunu anlamalı idi. Öz milli mənsubiyyətini dərk edən hər bir türkün qəlbində bir türk təəssübkeşliyi oyanacağı, etnik ittihad və təəssübkeşlik hissi baş qaldıracağı, birgə mübarizə əzmi ilə türk elləri üçün istiqlaliyyət və tərəqqi günəşinin doğacağı Əli bəyin və məsləkdaşlarının əsas qayəsi idi.

1904-cü ildə "Türk" qəzetində (№ 56) dərc olunan "Məktubi-məxsusi" məqaləsində Ə.Hüseynzadə göstərir ki, türk xalqlarından birinin oyanışı və inkişafı, birində baş verən yeniliklər istər-istəməz o birlərinə də yaxşı mənada təsir göstərir. Buna görə də geniş bir ərazidə yayılan bütün türk toplumlarının bir-biri ilə əlaqə qurmasına, bir-birini və özünü tanımasına, tərəqqisinə çalışmaq gərəkdir. Vətəndaşları da bu ruhda tərbiyələndirmək lazımdır.

Azərbaycan ictimai-siyasi və mədəni-maarif mühitində türkçülüyə və milli özünüdərk probleminə həsr olunmuş ilk fundamental əsər Ə.Hüseynzadənin "Türklər kimdir və kimlərdən ibarətdir?" risaləsidir. "Həyat" qəzetinin 8 nömrəsində (1905, № 4, 9, 16, 22, 35, 52, 81, 82) silsilə şəklində dərc olunmuş geniş həcmli bu risalədə türklərin ilk mənşəyindən, təşəkkülündən, tarix səhnəsində zühurundan, müxtəlif ərazilərə yayılmasından başlamış onların

fərqli budaqlara, xalqlara, toplumlara ayrılmasına, qəhrəmanlıqlarına, fəthlərinə, böyük tarixi şəxsiyyətlərinə, xarakter və adət-ənənələrinə, əxlaqi keyfiyyətlərinə, dünya xalqları içərisində oynadıqları rola, tutduqları mövqeyə görə rəngarəng məsələlər barədə dolğun, fakt və sübutlara əsaslanan, elmi məlumatlar verilir. Məqsəd həm türk toplumlarının, həm də onun bir qolu kimi Azərbaycan türklərinin kim olduqlarını, etnik mənsubiyyətini onlara başa salmaq, özlərini özlərinə tanıtmaqdır. Müəllif xalqda özünə inam yaratmaq məqsədilə türklərin qəhrəmanlıq və zəfər tarixlərinə, qazandıqları qələbə və fəthlərə, görkəmli şəxsiyyətlərinə də diqqət yetirir.

Onu da deyək ki, Ə.Hüseynzadə başda olmaqla "füyuzat"çıların təbliğ etdikləri "turançılıq" ideologiyasına istər rus çarizmi, istərsə də Avropa siyasi dairələri qısqanclıqla, narazılıqla yanaşırdılar. Çünki türklərin oyanışı, milli haqq və hüquqları uğrunda mübarizəsi onları təmin etmirdi. Ona görə də "pantürkizmi" zərərli bir ideologiya kimi qələmə verirdilər. Əslində isə "panturanizm", "pantürkizm" türk xalqları üçün mütərəqqi bir ideologiya idi. M.Ə.Rəsulzadə bu barədə qeyd edirdi ki: "Turançılıq türk xalqlarının öz müstəqilliyi uğrunda, milli müqəddaratının təyini və təsdiqi uğrunda mütərəqqi ideologiyadır. Bu ideologiya – Rusiya imperializminə, "Vahid bölünməz Rusiyaya" qarşı qoyulmuşdur" [2].

Milli yaddaşın bərpasında "füyuzat"çıların əsas niyyətlərindən biri də xalqda milli qürur, özünə inam duyğusu yaratmaq idi. Bunun üçün onlar türk qövmlərinin tarixi keçmişindən şanlı-şərəfli hadisələri, qələbələri, yaratdıqları imperiyaları, qüdrətli dövlətləri, böyük şəxsiyyətləri, bəşəriyyətə verdikləri töhfələri xatırladır, onların istedad və qabiliyyət sahibi olduqlarını nəzərə çatdırırdılar. Başqa sözlə, "füyuzat"çılar milli özünüdərk tərbiyəsi ilə milli qürur duyğusunun bərpasını uzlaşdırmağa təşəbbüs göstərirdilər. Çünki onlar başa düşürdülər ki, xalqda milli qürur hissi yaratmadan onu milli azadlıq, hürriyyət və istiqlaliyyət uğrunda mübarizəyə sövq etmək mümkün deyil. Ona görə də "Füyuzat"ın səhifələrində türk xalqlarının tarixinə, mədəniyyətinə, nüfuzlu şəxsiyyətlərinə, istedad və bacarığının başqa xalqlardan az olmadığına dair yazılara tez-tez yer verilirdi. Ə.Hüseynzadə xatırladırdı ki, islam dini ərəb mühitində yaransa da, onun əsas yayıcısı və qoruyucusu, xarici müdaxilələrə qarşı sipəri, hamisi ərəblər və farslar yox, məhz türklər olmuşlar: "İslam türklüklə payidar oluyor, aləmi-islamda Hinddən Misirə qədər İran da daxil olduğu halda nə qədər müstəqil və nimmüstəqil hökmdar varsa, həman cümləsi türk nəslindəndir, içlərində bir fars yoxdur. Çünki hökm və idarə edə bilmək bir müddətdən bəri türklərə vergi olmuşdur" [2].

"Füyuzat"çılar türklərin şərəfli tarixi keçmişi ilə yanaşı indiki halda düçar olduqları əsarət, cəhalət və məzlum halı da oxuculara anlatmağa səy göstərirlər. M.Hadi "Məlumati-tarixiyyə" ("Füyuzat", 1907, №11) məqaləsində Rusiya imperiyası daxilində milli müstəqilliyini qeyb etmiş müsəlman türklər –

qazanlılar, kumuklar, krımlılar, sibiryalılar, türküstanlılar (Orta Asiya türkləri) və qırğızlar barədə ayrı-ayrılıqda məlumat verir, onların ağır vəziyyətindən danışır. Bir-birindən ayrı düşmüş həmin türk xalqlarını "ixtiyari-sükunət edən əhaliyi" birliyə çağırır.

"Füyuzat"çıların milliyyət, qövmiyyət tərbiyəsində, fərd və millət münasibətlərinin meyarının müəyyənləşməsində konsepsiya, təşviqatın istiqaməti belə qoyulurdu: Millətin xoşbəxtliyi fərdin xoşbəxtliyidir. Hər bir fərd öz xalqının səadəti üçün yaşamalı, fəaliyyət göstərməlidir. Ayrılıqda fərd nə qədər bəxtiyar olsa da, ümummilli səadət yoxdursa, fərdin bəxtiyarlığı yalnız şərti anlamda qəbul edilə bilər. H.S.Ayvazov "Nədən bu hala qaldıq?" ("Füyuzat", 1907, №22) pyesinin əsas qəhrəmanlarından Əbdülislamın dili ilə öz məramını ifadə edərək bildirir ki, milliyyət müqəddəsdir və bizim səadətimiz də yalnız milliyyət ilə ola bilər: "... milliyyət pək müqəddəs olduğundan səadətimizi də milliyyət ilə birlikdə arzu ediyoruz" [2].

"Füyuzat"çıların milli özünüdərk, milli təəssübkeşlik məramı onların vətənpərvərlik, vətənə və doğma yurda məhəbbət ideyası ilə vəhdət təşkil edir. Başqa sözlə, bu məfkurə mücahidləri vətən övladının etnik yaddaşın bərpası, milli özünüdərk tərbiyəsi ilə patriotizm tərbiyəsini müvazi, bir-biri ilə əlaqəli şəkildə aparmağı lazım bilirdilər. Ona görə də milli arenada vətənpərvərlik tərbiyəsi istiqamətində ciddi təşviqat aparırdılar.

Məcmuənin tədqiqatçılarından Ş.Vəliyevin dediyi kimi: "Füyuzat ədəbi məktəbində vətəndaşlıq ideyalarına xüsusi əhəmiyyət verilirdi. Vətənin bütövlüyü, toxunulmazlığı hər şeydən uca tutulur, xalq və vətən, millət və dövlət anlayışlarının bağlılığına xüsusi diqqət yetirilirdi" [6, 20-21].

Ə.Hüseynzadənin "Siyasəti-fürusət" adlı tarixi-fəlsəfi və siyasi məzmunlu traktatında irəli sürülən başlıca məsələlərdən biri də vətənpərvərlik, "hübbül-vətən" ideyasıdır. Əsər boyu bu ideyanı və onun vətən övladına aşılanmasını, gənc nəslin bu ruhda tərbiyəsini diqqət mərkəzində saxlayan mütəfəkkir öz qənaətlərində islam peyğəmbərinin "Vətən sevgisi imandandır" hədisinə də istinad edir. İranın, Osmanlının və Türküstanın tarix boyu yaşamış hökmdarlarını göz önünə gətirdikcə onların vətənpərvərlərini qeyri-patriotlarından, yurd sevgisində naqis olanlardan ayırır. Məsələn, bu mənada Nadir şah Əfşara daha yüksək qiymət verir. Onun "hissiyyati-vətənpər-vəranə"liyini bir nümunə hesab edir. Əli bəyi fikrincə vətəndə yaşayanlar, onun neməti ilə qidalananlar, suyunu içənlər, havası ilə nəfəs alanlar, "buraya məxsus tarixin, ədəbiyyatın, etiqadatın təsiri sayəsində müruri-zamanla bir növ adət və əxlaq, əfkar və hissiyyat kəsb edənlər" eyni hissdə – "hissiyati-vətən-pərvəranə"də birləşməlidirlər. Müəllifə görə insanda milli təəssübkeşlik, milli qürur, milli iman, milli varlığa hörmət olmasa, vətənpərvərlik duyğusu da ola bilməz. Vətəni sevmək isə çobandan, əkinçidən, odunçudan tutmuş hökmdara

qədər hər bir vətən övladının işi olmalıdır. Vətəni sevmədən onu qorumaq və hürr etmək mümkün deyil.

Ə.Hüseynzadə vətənə dönüklüyü ən böyük xəyanət adlandırır. “Həcvquyi-şəhr. Əşrəfin dəliliyi və türkün bir iftirası” (“Həyat” qəz., 1906, №15) məqaləsində o, göstərir ki, bizə bir məktub gəlib. Türkiyədən göndərilən həmin məktubda deyilir ki, türk şairi Əşrəf ingilislərə teleqram vurub ki, “hürriyyət namına” gəlib İzmiri alsınlar. Sonra da Türkiyəni “Zalımın (yəni osmanlı sultanının – K.H.) əlindən qurtarmaq üçün İstanbula girsinlər. Əli bəy qəzəb və nifrətlə əlavə edir: “Əgər bu teleqraf bir təcənnün, bir divanəlik əsəri deyilsə, mütləq bir xəyanət, bir xəyanəti-üzma əsəridir. Bu həm məmləkətə, vətənə, həm millət və dövlətə, həm millət və dövlətin padşahına bir xəyanətdir” [2, 135].

“Füyuzat” əməkdaşlarından Həsən Səbri Ayvazov vətənpərvərlik tərbiyəsinə daha çox diqqət yetirən qələm sahiblərindən biri idi. Onun “Həyat”ın qürubundan “Füyuzat”ın tüluundan hasil olan təəssüratım” (1906, №2), “Bəşər və səy” (1906, №5), “Krımlılar nə üçün tənqid edilmiyor?” (1906, №6) və s. məqalələrində, xüsusilə də “Nədən bu hala qaldıq?” (1907, №12, 14, 15, 16, 18, 20, 21, 22) pyesində vətən, millət və etiqad (din) sevgisi ideyası qabarıq şəkildə özünü büruzə verir. Torpağa, övladı olduğun yurda məhəbbət hissi aşılanır. Onun məyus, kədərli, acınacaqlı vəziyyətə düşməsinin səbəbləri aydınlaşdırılır, habelə dirçəliş və yüksəlişinin yolları barədə müəllifin mülahizələri ifadə edilir.

Həsən Səbri bəyə görə insan yalnız özünə xidmət etmək üçün dünyaya gəlməmişdir. O həm də mümkün olduqca bütün “qüvayi-fikriyyə və zehniyyəsi ilə” başqa insanlara, “millətinə, vətəninə ərzi-xidmət etmək vəzifəsilə mükəlləfdir...”. Ailə, millət və vətən müqəddəsdir, onlara xidməti vicdan borcu kimi yerinə yetirmək hər kəs üçün şərəfdir.

Müəllifin “Nədən bu hala qaldıq?” pyesi bütünlüklə vətənpərvərlik, millətsevərlik və dini tərbiyə ideyası üzərində qurulmuşdur. Əsərin bütün mövzu və məzmunu oxuculara həmin mətləblərin təlqininə yönəldilmişdir. Pyesdəki ana dili müəllimi Rəşid əfəndi müasir baxışlı vətənpərvər və millətsevər gəncləri, ixtiyar həkim Əbdülvətən bütövlükdə vətəni, nurani qoca Əbdülislam isə islam dinini təmsil edən rəmzi obrazlardır. Keçmişdə güclü, qüvvətli, gümrah, xoşbəxt, şan-şərəfli olan, öz əzəmət və böyüklüyündən qürur duyan Əbdülvətən son əsrlərdə tədricən unudulmuş, qədr-qiymətdən düşmüş, övladlarının qəlbindən silinmiş, adı yalnız ağızlarda qalmış, dərd və məşəqqətə düçar olmuş, əzaları acı-acı yaralar almış, xəstə hala gəlmiş, vucudu müstəbidlər əlində, qəlbi biganələr pəncəsində qalmışdır. Doğub böyütdüyü, heç nəyi əsirgəmədiyi, şəfqət ağuşunu açdığı övladları onu “başqalarının əlinə təslim edib” tərk etmişlər [2, 218]. Əbdülvətən özünün şərəfli və azad keçmişini xatırladıb deyir: “Oğlum! Əvvəlləri bizdə hürriyyəti-kəlam, hürriyyəti-şəxsiyyə,

hürriyyəti-ictimaiyyə, hürriyyəti-diniyyə də mövcud idi. Hər adam hürr olub, istədigi sözü söylər, hər camaat arzu etdiyi vaxt bir yerdə ictima edərək icrasına təşəbbüs edəcəkləri iş haqqında müşavirələr edə bilərlər idi. Binaənəleyh hakimlərimiz millət qarşısında hər zaman məsul idi...” [67, 235]. İndi isə vətən əsarətə düşmüş, müstəqilliyini, azadlığını itirmiş, kədərli hala gəlmişdir. Bəs keçmişdəki şöhrətin, gözəlliklərin, bərabərliyin, hürriyyətin və bu günkü zəlalətin, geriliyin, istibdadın, xəstəliyin, hüquqsuzluğun səbəbi nədir? Vətən övladlarının unutqanlığı, zəifliyi, vətən qürurunu, torpaq və yurd sevgisini itirməsi, pərakəndə düşməsi, vətən qeyrətini və təəssübünü unutması. Əsər boyu müəllif deyilən məsələləri Əbdülvətənin dili ilə aydın şəkildə açıb göstərir. Çıxış yolunu onların vətən sevgisində, onun sağalması, azadlığı, tərəqqisi yolunda fədakarlıqda, birləşməkdə, mübarizədə görür.

Məcmuə vətənpərvərlik tərbiyəsində bədii əsərlərin təsir gücündən faydalanmağı da unutmurdu. Jurnalda H.S.Ayvazovun “Nədən bu hala qaldıq?” pyesindən başqa bu mövzuda bir neçə poeziya nümunəsi də oxuculara təqdim edilmişdir. Həmin şeirlərdən bunları göstərmək olar: M.Hadi – “Nidaül-vətən” (1906, №5), “Fəzaili-insaniyyə” (1907, №10), “Şirvan xatiratı” (1907, №14); N.Kamal – “Amalımız, əfakrımız ifnayi vətəndir” (1907, №11); Əhməd Raiq – “Vətəni-cüda” (1907, №14); H.R.Naxçıvani – “Hali-əsəfiştimalimi təsvirdə bir ahi-məzlumanə” (1907, №15) və s.

“Füyuzat”çıların milliyyət amalı, millət düşüncə və sevgisi, vətənə məhəbbət məfkurəsi hürriyyət idealı ilə qovuşub tamamlanaraq bütöv bir tərbiyə konsepsiyası halına gəlir.

## ƏDƏBİYYAT

1.Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992.

2.“Füyuzat” jurnalı (1906-1907). Tam mətni. (ərəb əlifbasından latın əlifbasına çevirəni, çapa hazırlayanı və ön sözün müəllifi: Bayramlı O.) Təkrarnəşr – Bakı: Çaşıoğlu, 2007.

3.Hüseynzadə Əli bəy. Türklər kimdir və kimlərdən ibarətdir?, Bakı: Mütərcim, 1997.

4. Hüseynzadə Əli bəy. Qərbin iki dastanında türk. Bakı: Ağrıdağ, 1998.

5.Hüseynzadə Əlibəy. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007.

6.Vəliyev Ş. Füyuzat ədəbi məktəbi. Bakı: Elm, 1999.

**UOT 159.9**

# CİNSİ FƏRQLƏR AMİLİ VƏ GENDER STEREOTIİPLƏRİ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN FORMALAŞMASININ PSİXOLOJİ ŞƏRTİ KİMİ

***Nuralı Çələbiyev***
*ADPU-nun Şəki filialı*
*E-mail: n_chelebiyev@mail.ru*

**Açar sözlər:** *cinsi fərqlər, gender stereotipləri, ailədaxili münasibətlər, qloballaşma, gender rolları, metabolizm, cinsi "Mən" obrazı, cinsi identiklik, ər-arvad konfliktləri*

Kişi və qadının iki fərqli təbii-bioloji cins kimi tarixən cəmiyyətin dəyərlər sisteminə fərqli münasibəti, onların düşüncə tərzində, həyata münasibətində, zövq, əyləncə, tələbatlarında, habelə, psixoloji xüsusiyyətlərində fərqlərin meydana çıxmasına səbəb olmuşdur. Həmin fərqlər əsasında tarixən kişi və qadına məxsus rol-cins davranışı etalonları və bu əsasda stereotiplər formalaşmışdır. Kişi və qadın bir-birindən yalnız bioloji və anatomik xüsusiyyətlərinə görə fərqlənən fərdlər olduğuna görə, vaxtaşırı olaraq ailədə onlar arasında fikir ayrılıqlarının yaranması təbiidir. Ailədə meydana gələn münaşiqələr rəqabət taktikası ilə deyil, yayınma, uyğunlaşma, əməkdaşlıq və qarşılıqlı güzəşt (kompromis) metodu ilə aradan qaldırılmalıdır.

## ФАКТОРЫ ПОЛОВЫХ РАЗЛИЧИЙ И ГЕНДЕРНЫЕ СТЕРЕОТИПЫ КАК ПСИХОЛОГИЧЕСКОЕ УСЛОВИЕ ФОРМИРОВАНИЯ ВНУТРИСЕМЕЙНЫХ ОТНОШЕНИЙ

***Нурали Чалабиев***

**Ключевые слова:** *половые различия, гендерные стереотипы, внутрисемейные отношения, глобализация, гендерные роли, метаболизм, половой образ «Я», половая идентичность, супружеские конфликты*

Исторически различое отношение на систему ценностей общества мужчины и женщины, как двух натурально-биологических пород, способствовало к появлению различий в их стиле мышления, в отношении к жизни, в наслаждении, в веселье, в требовании, а также к появлению различий психологических особенностей. Эти различия формирует

исторически обоснованные ролевые сексуальные эталоны поведения и на этой основе стереотипы, принадлежащие мужчинам и женщинам. Конфликты, происходящие в семье, должны быть устранены не тактикой конкуренции, а методом уклонения, адаптации, сотрудничества и взаимного компромисса.

## FACTOR OF SEXUAL DIFFERENCES AND GENDER STERETYPES AS A PSYCHOLIGICAL STIPULATION OF FORMATION OF INTRA-FAMILY RELATIONS

***Nurali Chalabiev***

**Key words:** *sexual differences, gender stereotypes, intra-family relations, globalization, gender roles, metabolism, sexual image of "me", sexual affection, conficts between husband and wife*

As two natural and different biological species, the distinctive attitude of man and woman to values system of the society, historically, has been caused for arising of differences in their thinking style, attitude to life, delight, enjoyment, requirement, also in their psyological characters. On the basis of those disparities, historically, there have been formed man's and woman's role-sex behaviour standards, and stereotypes. The periodical formation of thought distinctions between husband and wife in the family is natural, because man and woman are different from each other with not only their biological and anatomical, but also with their psychological features. The conflict in the family should be eliminated by not competitive tactics, but by the methods of digression, coincidence, cooperation and mutual compromises.

Sürətlə qloballaşan müasir dünyanın reallıqları – informasiyanın həcminin və mənbələrinin çoxalması, nano, bio və info texnologiyaların nailiyyətləri, beynəlxalq əlaqələrin genişlənməsi, dəyərlər sisteminin yeniləşməsi və qlobal transformasiyalar insanların psixikasına, onların qarşılıqlı münasibətlərinin xarakterinə ciddi təsir göstərir.

"Bu gün dünyada gedən proseslər, qloballaşma, xalqların inteqrasiyası, televiziya və internetin həyatımıza nüfuz etməsi, sosial şəbəkələrin genişlənməsi, müxtəlif texnologiyaların inkişafı kimi mühüm amillərin zərbələri Azərbaycan ailəsindən də yan keçməyib. Bu inkişaf bir tərəfdən müsbət yeniliklər gətiribsə, digər tərəfdən milli-mənəvi dəyərlərin aşınmasına, ailə institunun deformasiyaya uğramasına səbəb olmaqdadı." [7, s.303]

Demoqraflar, sosioloqlar, psixoloqlar və etnoqraflar XX əsrin 90-cı illərindən başlayaraq dünyada baş verən siyasi, iqtisadi, sosial və mənəvi proseslərin təsiri nəticəsində ənənəvi ailənin böhran dövrünə daxil olması barədə əsaslandırılmış fikirlər irəli sürürlər. **Ənənəvi ailə** kişinin ailə başçısı olması faktına əsaslanan ailə tipidir. Cəmiyyətdə tarixən qadının tabe vəziyyətdə olması ailədə də onun qeyri-bərabərliyinə səbəb olmuşdur.

Məlumdur ki, **gender rolları** cinslərin hər birinə xas olan keyfiyyət və xüsusiyyətlər haqqında ümumi məlumatları əks etdirən sosial normalardır. Bu normaların bir çoxu lap kiçik yaşlarından uşaqların şüuruna ailədə valideynlərin və yaşlı ailə üzvlərinin təsiri altında, daha sonralar kütləvi informasiya vasitələri, filmlər, populyar bədii ədəbiyyatlar və ictimai rəy vasitəsi ilə təlqin olunur. Cəmiyyətdə mövcud olan hüquqi, əxlaqi və dini normalar fərqli cinsləri daim təzyiq altında saxlayaraq, rol-cins davranışı standartlarına uyğun hərəkət etməyə yönəldir.

Kişilər və qadınlar arasındakı psixoloji fərqlərə həsr olunmuş çoxsaylı müqayisəli elmi tədqiqatlar bu iki cins arasındakı fərqlərin qavrayış, məntiq və intuisiyasında, ətrafdakı adamlarla qarşılıqlı münasibətlərində, maraq, qiymətləndirici mühakimələrində, fiziki parametrlərində, təfəkkür və təxəyyülündə, fəallıq və ünsiyyət tələbatında, xarakter, qabiliyyət, temperament xüsusiyyətlərində və bir çox digər sahələrində də mövcudluğunu təsdiq edir.

Kişi və qadın yer üzərində bəşəri həyatın ilkin başlanğıcıdır. Onların vəhdəti, birliyi həyatı yaradır. Bu iki fərqli başlanğıc bir çox cəhətdən bir-biri ilə ziddiyyət təşkil edir: istənilən eyni bir hadisəyə kişilər və qadınlar tamamilə fərqli baxır və fərqli qiymətləndirirlər. Onların genlərinə qoyulmuş psixoloji fərqləri heç nə məhv edə bilməz. Psixoloqların qənaətinə görə, bu iki cins arasında 1000-ə qədər müxtəlif fərq mövcuddur. Bu fərqlər hər iki cinsin eyni adlı daxili orqanlarında, maddələr mübadiləsinin intensivliyində, tənəffüsün və ürək döyüntülərinin tezliyində, qanın tərkibində və s. özünü göstərir. Kişi və qadın cinsləri arasındakı daha dərin fərqlər onların qavrayışında, məntiq və intuisiyasında, temperament xüsusiyyətlərində, sinir sistemində, müşahidəçilik və uyğunlaşma qabiliyyətində, ətraf adamlarla qarşılıqlı münasibətlərində, ailəyə münasibətdə, maraq və meyllərində, qiymətləndirmə meyarlarında, fiziki parametrlərində, ünsiyyət təlabatında, təfəkkürün xüsusiyyətlərində, fəallıq və iradi keyfiyyətlərində, davranış tərzində, yerişində, emosional reyaksiyalarında, işgüzarlıq və təşəbbüskarlığında, cəmiyyətdəki statusunda və bir çox digər sahələrdə də mövcuddur. Müasir cəmiyyətdə ictimai əmək bölgüsü dərinləşdiyinə görə, ictimai həyatda gender fərqləri də get-gedə azalmağa doğru istiqamətlənmişdir. Lakin gender rollarındakı fərqlərin təbii kökləri vardır və bunu aradan qaldırmaq mümkünsüzdür. Tarixən cəmiyyətdə kişilərin və qadınların funksiyaları fərqli olmuş, onların ailə öhdəlikləri bir-birindən

fərqlənmişdir. Bunu xalqın etnopsixoloji fikri, inanclar sistemi, bu əsasda formalaşmış və bu gündə yaşayan stereotiplər də təsdiq edir.

Kişi və qadınların təbiətcə fərqli xüsusiyyətləri haqqında elmi əhəmiyyətli məlumatlara A.Fulyenin əsərlərində də rast gəlmək mümkündür. O, kişi və qadınlar arasındakı prinsipial fərqləri **metabolizmdə** -mübadilə proseslərində görürdü. Metabolizm **anabolizm** və **katabolizm** adlanan proseslərin qarşılıqlı təsiri əsasında qurulur. A.Fulyeyə görə, qida, inteqrasiya, enerjinin saxlanılması kimi üstün anabolik proseslər qadın orqanizmində daha çox inkişaf etmişdir. Qadınların fərdi həyatını təmin edən sadalanan yüksək anabolik meyllər həm də onların davranışında özünü əks etdirir. Çoxalma, enerji sərfi, dezinteqrasiya kimi katabolik proseslər isə daha çox kişi orqanizmi üçün səciyyəvidir və onların davranış mənzərəsini müəyyənləşdirir.

“Kişi ilə qadın arasındakı fərq min illər ərzində mövcud olan şərtlər əsasında yaranıb. Bu fərqlər təbiətdə xüsusi bir məna ifadə etmir. Ancaq bəzi detallar var: **birincisi,** kişidən fərqli olaraq qadın dünyaya insan gətirir. Bu məsələdə kişi donordu və donorluğu da onun qadın üzərində dominantlıq eləməsinə şərait yaradıb; **ikincisi,** qadının kişiyə nisbətən daha dərin hisslər yaşamaq bacarığıdı. Kişi sevgisi qadınla müqayisədə daha çox fiziki tələbata yaxındır. Qadın sevgisi daha yüksək, daha dərindir. Qadın sevgisi ruhsaldı, zəngindir.” [10, s.10]

Qadın və kişi xarakterlərində fərqli cəhətlər ailəyə olan münasibətlərdə də özünü göstərir. Ailədə qadınlar öz həyat yoldaşlarına daha çox emosional dəstək göstərsələr də, bunun müqabilində onlardan heç vaxt dərin emosional yaxınlıq görmədiklərindən (kişilərdə belə hiss ümumiyyətlə yoxdur) gileygüzar edir, məyus olur, bu isə onlarda xəyal qırıqlığı yaradır. Belə hallarda kişiləri diqqətsizlikdə günahlandıran qadınlar mənəvi yaxınlıq tələbatlarını təmin etmək üçün öz rəfiqə və ya qohumlarına üz tutur və ya öz aləmlərinə qapanırlar. Kişilər öz həmsöhbətləri ilə adətən iş, siyasət, idman, ictimai problemlər və s. haqqında müzakirələr etməyə üstünlük verdikləri halda, qadınlar öz şəxsi problemləri, həyatları və s.barədə intim söhbətlərə daha çox önəm verirlər.

Müasir dövrdə **gender siyasətində** əldə edilən uğurlara, qadınların real həyatda artan roluna baxmayaraq, dünyanı hələ də kişilər idarə edirlər. Bu, yəqin ki, belə də davam edəcək. Çünki qadınların zəif və zərif təbiəti onların mütləq hökmranlığını mümkünsüz edir. Hətta xarakter etibarilə güclü sayılan qadınlar belə, öz fərdiyyətçiliklərindən gec-tez imtina etməli olurlar. Çox zaman hər hansı qərar qəbul edərkən məhz, qadına xas olan tipik qorxu hissi və nigaranlıq keçirirlər. Odur ki, beləbləri “öz başının ağası” olmağa qərar versələr də, tam sərbəst hərəkət etməkdən qorxurlar. Bu səbəbdən qadınlar kişilərin davranış tərzi və kişilərə xas olan streotiplər qarşısında gec-tez geri çəkilməli

olurlar. Müəyyən edilmişdir ki, söhbət zamanı kişilər qadınların sözünü dörd dəfə çox kəsir, müxtəlif jestlərlə onları susmağa məcbur edirlər.

Vaxtaşırı olaraq ailə cütlükləri arasında müxtəlif fikir ayrılıqları yaranır. Bəzi cütlüklər belə hallarda heç də çətinlik çəkmədən münasibətləri öz qaydasına sala bildikləri halda, əksər hallarda çoxları istəyib-istəməməsindən asılı olmayaraq, öz prinsipləri əsasında hərəkət edərək, qarşı tərəfi özlərinin haqlı olduqlarına inandırmağa çalışırlar. Ər-arvad arasındakı mehriban və səmimi münasibətlər yalnız onların qarşılıqlı səylərindən deyil, həm də asudə vaxtdan asılıdır. Bunların hər ikisi vacib amildir və qadınlar intuitiv olaraq hiss edir ki, yaxşı qarşılıqlı münasibətlər öz-özünə yaranmır.

Müasir dövrdə təhsilli gənc qadınların bəziləri ailəsinin olub-olmamasına əhəmiyyət vermədən karyera pillələnlərində irəliləmək motivinə üstünlük verirlər ki, bu da ailədə heç də birmənalı qarşılanmır, konfliktlərə səbəb olur. “Müasir dövrdə kişilərlə müqayisədə qadınlar rol ziddiyyətindən də əziyyət çəkirlər. Xüsusilə qadınların “ana-arvad” kimi liberal rollarla karyera, yaxud digər məqsədlərə nail olmaq arasında seçim problemlərinə daha çox təsadüf olunur. Onlar mütəmadi olaraq “Ya karyera, ya ailə” tələbi ilə üzləşirlər”. [4, s.87] Həyati reallıqlara əsaslanaraq deyə bilərik ki, müasir dövrdə qadın və kişi münasibətlərində əsas problem heç də bizim çox vaxt düşündüyümüz kimi pulla deyil, ünsiyyətlə bağlıdır. Müasir ailələrdə qarşılıqlı münasibətlərin xarakterini müəyyənləşdirən əsas amil bir-birinin emosional tələbatlarına qayğıkeş münasibətlərdir. Səmimi söhbətlər qadınlar üçün əhvalı yaxşılaşdırmağın təsirli vasitəsidir. Kişilər bir qayda olaraq öz problemləri və bununla bağlı hisslərini ailədə çox vaxt açıb-ağartmağı, çox danışmağı xoşlamadıqları halda, qadınlar səmimi sözləri, sevgiyə layiq olduqları barədə sözləri məmnunluqla qarşılayır və buna daim ehtiyac hiss edirlər. Ailədə mehribanlıq və məhəbbətə əsaslanan qarşılıqlı münasibətlər yaratmağın əsas amili qayğı, diqqət, ruhi istilikdir. Lakin belə bir həqiqəti anlamaq zəruridir ki, bütün insanlar fərqli xüsusiyyətlərə malikdirlər, hər bir insanın fəaliyyəti onun təkrarolunmaz cəhətlərini əks etdirir.

Bəs görəsən, rol-cins davranışı, bunlara əsaslanan gender stereotipləri necə formalaşır? Ailədə adətən, uşaqların həyatının ilk dövrlərindən onlara təlqin edilən cinsi mənsubluq obrazları tez-tez qabardılır, oğlanların qızlarla birgə fəaliyyətini qadağan edən normalar əsasında onların cinsi tərbiyəsi həyata keçirilir. Bunun təsiri altında hələ uşaq yaşlarında oğlanlarda qızların, qızlarda isə oğlanların cinsi fərqlilikdən qaynaqlanan fərqli və əks obrazları yaradılır. Burada “oğlanla qızın nə dostluğu?” “odla pambığın dostluğu ola bilərmi?” və s. kimi cinsi stereotiplərin təsiri heç də az deyil. Ailədə cinsi mənsubiyyətinə görə uşaqlara göstərilən seçici münasibət, xüsusən qızlara qarşı ayrıseçkilik onlarda “əskiklik kompleksi”nin formalaşmasına səbəb olur.

Qadın və kişi cinsini sosial-psixoloji konteksdə "psixi cins" kimi araşdıran Ə.Ə.Əlizadə qeyd edir ki, ..."psixi cins" uşaq şəxsiyyətinin ümumi inkişafı kontekstində, şəxsiyyətin inkişafı prosesinin tərkib hissəsi kimi formalaşır. Bu baxımdan şəxsiyyətin doğulmasının ilk mərhələsi həm də psixi cinsin formalaşmasının birinci mərhələsi kimi qiymətləndirilməlidir.[3, s. 352]

Psixoloji tədqiqatlar sübut edir ki, artıq 3 yaşında uşaqlarda cinsi mənlik obrazı əsasında cinsi identiklik formalaşır və onlar kişilərin və qadınların fərqli davranışlarını, fərqli fəaliyyətlərini müşahidə və təqlid etməklə cinsi identikliyə yiyələnirlər. Böyüklərin bir qismi müntəzəm olaraq uşağın hansı cinsə aid olduğunu vurğulamaqla, özləri də bilmədən cinsi identikliyi stimulaşdırırlar. Məsələn, "sən oğlansan, qız kimi ağlama", "sən qızsan, oğlan kimi hara gəldi dırmaşma" və s. Yeddi yaşına çatdıqdan sonra, uşaqlarda "gender konstantlığı" (sabitliyi) yaranır – onlar dərk edirlər ki, cins daimdir və onu dəyişmək mümkün deyil.

Gender stereotipləri də uşaqlıq yaş dövrlərindən formalaşmağa başlayır. Onun təməlində isə əks cinsə maraq, cinsi "Mən" obrazı, bu zəmində formalaşan cinsi identiklik və cinsi mənlik şüuru durur. Cinsin qavranılması uşağın özünün və əhatəsindəki insanların onu necə qiymətləndirməsinə təsir edir ki, bu da uşaq yaşlarından cinsi idendikliyin və cinsi mənlik şüurunun formalaşmasına təsir göstərən amillərdən birinə çevrilir. Cinsi identikliyin, cinsi "mən" obrazının və cinsi yetkinliyin formalaşmasının ilkin zəmini uşağın gərçək sosial inkişaf mühiti olan ailədir. Qeyd olunan keyfiyyətlərin təşəkkülündə yeniyetməlik yaş dövrünün əhəmiyyətini xüsusi qeyd edən Ə.Ə.Əlizadə yazırdı: "Cinsi identiklik, mənlik şüuru, həya hissi və əks cinsə maraq ünsiyyət prosesində formalaşır, şəxsi qarşılıqlı münasibətlərin inkişaf amili, daxili əsası kimi meydana çıxır və yeniyetməlik dövründə xüsusi əhəmiyyət kəsb edir."[2, s.95] Ailənin sosializasiya funksiyasını yerinə yetirməsi gedişində uşaq və yeniyetmələr gender xüsusiyyətlərinə məxsus rol-cins davranışı etolonlarını mənimsəyir, davranışın mədəni normaları çərçivəsində, şəxsi təcrübə əsasında yaşıdlarının və yaşlıların qiymətləndirici münasibətləri zəminində həm də gender stereotipləri haqqında ilkin təsəvvürlərə yiyələnirlər.

Gender stereotipləri uşaq və yeniyetmələrin əxlaq və davranışına da özünəməxsus şəkildə təsir göstərir. Gender stereotiplərinin yaranması nəticəsində onlarda yaş, intellektual, emosional və iradi səviyyələrdə davranışın fərqli xüsusiyyətləri formalaşır. Gender rolları haqqında təsəvvürlər uşaq və yeniyetmələrdə davranışın motivasiya sferasını əhatə etməklə yanaşı, onun şəxsiyyətinin istiqamətini, sosial, əxlaqi və hüquq normalarına münasibətini də müəyyənləşdirir və onun fərdi həyat üslubunun təşəkkülündə təsirli amil rolunda çıxış edir. Cəmiyyətin yaşaması və inkişafı üçün vacib olan maddi və mənəvi amillər uşaq, yeniyetmə və gənclərdə rol-cins stereotiplərinin, gender rollarının və bu əsasda davranış tərzinin və mədəniyyətinin formalaşmasına

təkan verir. Cinsi identiklik isə öz növbəsində gender mədəniyyətinin, gender fərqlərinə görə insanların dəyərləndirilməsinə seçici münasibətin əsasıdır. “Bu mədəniyyət öz növbəsində onlardakı etiqadlara, qaydalara və dəyərlərə də təsir göstərir. Beləliklə, nə qədər müxtəlif xarici mühit şəraitində mədəni fərqlər mövcuddur, tamamilə təbiidir ki, gender fərqləri də mədəniyyətin xüsusiyyətləri ilə birlikdə dəyişir. Bir mədəniyyət kişi və qadın, eləcə də oğlan və qız bərabərliyinə və onların arasındakı həyat tərzi xarakteristikasına aid fərqləri aradan qaldırmaq meylinə malik olur. Eyni zamanda da, digər mədəniyyətdə nəsli davam etdirmə və gənc nəsli tərbiyələndirmə rolu ilə bağlı cinslər və onların davranış formaları arasında əsaslı fərqlər müdafiə edilir.” [ 8, s.41]

Məlumdur ki, bütün cəmiyyətlərdə cinsi rollar əsasən təbii rollar kimi qəbul edilsə də, hər bir konkret cəmiyyətdə və bu cəmiyyətdə formalaşmış mədəniyyətdə oğlan və qızların, kişi və qadınların cinsi rol funksiyalarında fərqliliklər özünü göstərir. Amerika psixoloqları Allan və Barbara Piz uzun illər ərzində kişi və qadın psixologiyası sahəsində apardıqları tədqiqatları əsasında belə qənaətə gəlmişlər ki, kişilər və qadınlar psixoloji anlamda bir-birlərindən fərqlənirlər. Onlar biri digərindən ya yaxşı, ya da pis deyillər – onlar fərqlidirlər. Onlar fərqli dünyada yaşayırlar, onlar üçün müxtəlif dəyərlər, fərqli həyat qaydaları prioritetdir. “Biz heç də sosial stereotiplərin deyil, ilk növbədə fərdin bioloji proqramlaşmasının qurbanıyıq. Biz özümüzü ona görə fərqli aparırıq ki, beynimizin hüceyrələrinin fəaliyyəti başqa cür qurulmuşdur. Bu, bizi dünyanı fərqli qavramağa, fərqli dəyərlər şkalası qurmağa məcbur edir.” [ 12, s.21]

Kişi və qadın arasındakı çoxsaylı fərqlər çoxsaylı səbəblərə bağlı olsa da, onların hamısının ilkin səbəbi qadın və kişi kimi fərqli bioloji başlanğıca malik olmalarına bağlıdır. Kişi dəyişkənliyin, qadın isə irsiyyətin, nəslin davam etdirilməsinin daşıyıcısıdır. Məhz bu fərqliliklərin yaranmasında uşaqların əhatə olunduğu sosial və mədəni mühitdə bərqərar olmuş etnik, dini cinsi stereotip və yönümlərin, o cümlədən gender stereotiplərinin təsiri danılmazdır.“Kişilərə və qadınlara öz potensiallarını tam reallaşdırmaq üçün bərabər hüquqlar verilməlidir. Lakin şübhəsiz, onlar anadangəlmə fərqli qabiliyyətlərə malikdirlər. Qadınlar bərabərdir, ya yox, bu siyasət və əxlaqın məsələsidir. Onların eyni olması isə elm sahəsinə aid olan məsələdir.” [12, s.16]

Sosial rol nəzəriyyəsinə istinadən qeyd etmək olar ki, rollar cəmiyyətdə, o cümlədən ailədə əsas stereotipik atribusiyalardır. Zaman-zaman bu və ya digər sosial qruplarda rolların dəyişməsi həmin qrupların qavranılmasında modifikasiyalara gətirib çıxarır. Tədqiqatlar sübut edir ki, son 50 ildə cəmiyyətdə ənənəvi kişi və qadın rollarında əhəmiyyətli dəyişmələr baş vermişdir və gələcək 50 ildə də belə dəyişmələrin baş verməsi qaçılmaz olacaqdır. Qadınların və kişilərin ənənəvi rollardan uzaqlaşmaları, öz üzərlərinə qeyri-ənənəvi rolları götürmələri get-gedə artmaqdadır. Bunun ən başlıca səbəbi kişi

və qadınlar arasında tarixən baş vermiş təbii əmək bölgüsünün get-gedə daha dərin ictimai əmək bölgüsünə doğru dərinləşməsidir. Buna baxmayaraq, cəmiyyətdə liderlik, rəhbərlik və digər yüksək vəzifələr ənənəvi olaraq tarixən kişilərə məxsus olduğuna görə, kişilər dominant, özünəinamlı və iradəli cins kimi, əsasən rəhbər, idarəedici vəzifələrdə qadınlar isə əsasən tabe vəzifələrdə çalışmışlar.

Gender stereotipləri qadınlar və kişilərin davranış xüsusiyyətləri, şəxsiyyət keyfiyyətləri, həmçinin cinsi fərqliliklərə uyğun sosial rolları haqqında təsəvvürlərdən ibarətdir. Kişi və qadın cinslərinə fərqli münasibət təbii əsaslara söykənir və cəmiyyətdə gender fərqlilikləri şəklində üzə çıxır. Digər Şərq xalqlarında olduğu kimi, Azərbaycanda da ailə məişəti XX əsrin ortalarınadək bir sıra adətlər və şəriət qanunları ilə nizama salınır, keçmiş nəsillərə məxsus patriarxal ənənələr qorunub saxlanılırdı. Şərq və Qərb sivilizasiyalarının qovuşduğu məkanda yerləşən Azərbaycanda kişi ənənəvi olaraq ailə başçısı funksiyasını yerinə yetirsə də, qadınların da kökü adət-ənənələrdən, mental dəyərlərdən qaynaqlanan öz hüquq və öhdəlikləri var idi.

Hər bir xalqı digər xalqlardan fərqləndirən ümdə cəhətlərdən biri olan milli xüsusiyyətlər milli psixologiyada, etnik dildə, adət-ənənələrdə, milli-mənəvi dəyərlərdə, milli mənlik şüurunda, habelə milli mentalitetə əsaslanan yaşam tərzində öz əksini tapır. Xalqın kişilərə və qadınlara, qocalara və uşaqlara, şikəstlərə və yetimlərə verdiyi dəyərləndirmələr onun etalon keyfiyyəti qazanmış bir sıra stereotiplərdə ifadə olunur. “Stereotiplər açıq-aydın olmasa da, dolayısı ilə dəyərlərə çevrildiyinə görə, kişilər və qadınlar özlərində stereotipik xüsusiyyətləri inkişaf etdirməyə çalışırlar. Arzuolunan davranışa sürükləyən bu təzyiqlər kişilərin və qadınların qeyri-bərabər vəziyyətinin və ətrafdakıların gözləntilərinin təzyiqi ilə daha da güclənir.”[9, s.341] Stereotiplərə əsasən kişilər güclü, bacarıqlı, iradəli, hakimiyyət və idarəetmə üçün zəruri olan bütün lazimi keyfiyyətlərə malikdir. Qadınlar isə, həssas və qayğıkeş, zərif və nəzakətli, ünsiyyətcil və xeyirxahdırlar. Hər hansı bir cinsdə olmayan keyfiyyətlər əks cinsdə mövcuddur və onların psixoloji bütövlüyünü yaradır. Odur ki, cəmiyyətdə bütün insanlar əks cinsə qarşı münasibətlərdə onların stereotipik obrazını nəzərə almaqla yanaşır və münasibət qururlar. Məhz buna görə də, tarixən dünyanın əksər xalqlarında ailədə doğulan oğlan və qız uşaqlarına fərqli münasibət yaranmış, oğlanlara qızlardan iki pay artıq yemək verilmişdir.

“Gender stereotipləri insana ömrü boyu təsir edir. Ailə, uşaq bağçası, məktəb – bütün bu sosiallaşma institutları ənənəvi gender stereotiplərini tətbiq edir. Bu səbəbdən, ailədə mövcud olan problemlərdən biri də qadınlar və kişilər arasında gender bölgüsüdür ki, bu da fəaliyyətin və sosial rolların növlərinin effektiv bölgüsünü təşkil edir.” [ 11, s.371]

Müasir Azərbaycan reallığında qadınlar karyera pilləkəni üzrə irəliləməkdə maneələrlə üzləşirlər. Ali təhsilin magistratura pilləsində qiyabi təhsilalma forması ləğv edildiyinə görə, gənc qızlar ailə qurmaq, yoxsa, təhsili davam etdirmək seçimi ilə qarşılaşırlar. Əksər özəl şirkətlərdə vakant iş yerlərinə yaşla bağlı tələblər qoyulur, 18-25 yaşlarında qızlara işə qəbul imkanları yaradılır, 30-35 yaşdan yuxarı işsiz qadınlar isə iş tapmaqda aciz vəziyyətə salınırlar ki, bu da onlara qarşı diskriminasiya və ya ayrı-seçkiliyin bir forması kimi dəyərləndirilə bilər.

Yaşadığımız dövrün texnoloji nailiyyətləri bir tərəfdən insanların həyat şəraitinin, ailədə və iş yerində fiziki yükünün azalmasına səbəb olursa, digər tərəfdən milli-mənəvi dəyərlərinin deformasiyasına, ailədaxili münaqişələrin artmasına gətirib çıxarır. Nəticədə ailə-məişət zorakılıqları, kəskin münaqişələr, sosial şəbəkələrdən xəlvəti istifadə nəticəsində xəyanət və xəyanət şübhəsi zəmində boşanmaların sayı sürətlə artır. Məhz bunun nəticəsidir ki, 2017-ci ildə Azərbaycanda 62923 nikah bağlanmış, 14514 boşanma hadisəsi qeydə alınmışdır. Bu, 2016-cı illə müqayisədə 10.8% çoxdur. [5] Müqayisə üçün qeyd edək ki, son 10 ildə ölkəmizdə nikahların sayı xeyli azalmışdır. Belə ki, 2007-ci ildə respublikamızda 81758 nikah bağlanmışdırsa, bu göstərici 2017-ci ildə 6293-ə enmişdir. Boşanma faktları isə xeyli artaraq 2007-ci ildəki 8340-dan 2017-ci ildə 14514-ə çatmışdır. Qeyd olunan rəqəmlər Azərbaycanda ailə institunun ciddi böhran dövrünü keçirdiyinə sübutdur.

"Azərbaycanda boşanan ailələrin sayı rəsmi statistikadan bir neçə dəfə artıqdır. Çünki rəsmi statistikada söhbət rəsmi qeydə alınmış nikahların pozulmasından gedir. Azərbaycanda isə rəsmi nikahlarla yanaşı, qeyri-rəsmi nikahlarda, bir çox hallarda dini nikahlarda yaşayan çoxsaylı ailələrin olduğu yeni məsələ deyil." [7, s.304] Gender bərabərliyinin təmin edilməsini həyati zərurətə çevrildiyi və bu sahədə fəaliyyətlərin genişləndiyi müasir dövrdə patriarxal ənənələrə əsaslanan bir çox ailə dəyərləri, kişi və qadın vəzifələrinin cinsi fərqlərə görə ayrılması gənc nəslin gender tərbiyəsinə mane olan əsas baryerlərdir. Mürtəce ehkamlara əsaslanan bir çoxlarının baxışlarında hələ də ailədə qız uşaqlarının doğulmasına qarşı arzuolunmazlıq qalmaqdadır, selektiv abortların kökü hələ də kəsilməmişdir.

Tarixən gender fərqləri haqqında fikirlər və bunlara əsaslanan stereotiplər əski inanc və miflərin, dini ehkamların təsiri altında formalaşmışdır. Müqəddəs səmavi kitablarda qeyd olunan ehkamlar çox vaxt konteksdən çıxarılaraq, birtərəfli qaydada, kişilərin xeyrinə yozulmuşdur. Avstriya psixoloqu və psixiatrı Z.Freydə görə, qadın kişi ilə uşaq arasında aralıq məxluq, daha doğrusu, "inkişafdan qalmış kişi"dir. Freyd bərabərliyə, hətta ər-arvad bərabərliyinə inanmırdı. O, açıq elan edirdi ki, ər-arvad bərabərliyi "praktiki olaraq imkansızlıqdır. Qeyri-bərabərlik mövcud olmalıdır, kişinin üstünlüyü mövcud olan iki bəladan daha az olandır."

[ 6, s.15]

Zaman-zaman qadınlar haqqında formalaşmış mənfi stereotiplər qabardılmış, müsbət stereotiplər isə kölgədə buraxılmışdır ki, bu da gender fərqlərinin hədsiz şişirdilməsinə, kəskin mübahisələrə, obrazlı deyilsə, "cinslərin müharibəsinə" gətirib çıxarmışdır.

"Oğul kişini adam, qız cüdam edər", "Oğul öydürər, qız söydürər", "Hər arvadın qucağında bir şeytan oturub", "Arvad ar gətirər, kişi var", "Qızı olan ana ər yanında quzu olar", "Qız ağlı, qaz ağlı", "İş ki qaldı arvada, ölən günün sal yada", "Arvad nədir, urvat nədir", "Adəmi şeytan yox, Həvva aldadıb", "Əli xəmirli – xəmirli kişi işinə qoşulma", "Kişilərin hamısı bir bezin qırağıdır", "Kişilər şorgözdür, gözləri alça, qaysı dərir", "Arsız kişidənsə, ərsiz arvad yaxşıdır" və s. kimi atalar sözü, zərb-məsəllərdə, deyimlərdə və ifadələrdə cinslərin, xüsusilə qadının imici aşağı səviyyədə tutulur. Belə stereotipik düşüncəli bir çox kişilər ailələrdə yenə də qadınlara qarşı patriarxal münasibətlə yanaşır, hər addımda onların ikinci cins olduğunu qabartmaqla aşağılayır və daimi təzyiq altında saxlayırlar. Kişilər tərəfindən ailədə yerli-yersiz işlədilən bu ifadələr qadınlara təhqiramiz münasibətin təzahürü olmaqla yanaşı, ailə konfliktlərinə, qarşılıqlı münasibətlərdə diskomforta yol açan əsas səbəblərdəndir.

Ənənəvi gender stereotipləri qadına münasibətdə "qadın-övrət" və ya "qadın-arvad" diadası baxımından dəyərləndirilir. Sürətlə qloballaşan zamanın çağırışları bu patriarxal yönümlərin "qadın-xanım ana" triadası mövqeyindən qəbul edilməsi və qiymətləndirilməsini tələb edir.

Müasir dövrdə insanların cinsi mənsubluğu onların geyim estetikasına və modaya münasibətinin qarşısında sədləri xeyli aşmışdır ki, bu da bir çox hallarda ailədaxili konfliktlərə səbəb olur.

Ailədə ər-arvad münasibətlərinin möhkəm təməl üzərində qurulması ailə xoşbəxtliyinin vacib şərtidir. Nikahda olanların hər biri öz vəzifələrini düzgün başa düşmədikdə, qarşılıqlı münasibətlərin qorunub saxlanılması naminə güzəştdə getmədikdə, səbirli və dözümlü olmadıqda, bir-birlərinə qarşı hörmət və qayğıkeşliklə yanaşmadıqda konfliktlərin meydana çıxması qaçılmaz olur. Ər-arvadın şəxsiyyət xüsusiyyətləri, onların temperament tipi və bu əsasda formalaşan xarakterləri, yeniliyi qəbul etməyən mühafizəkar baxışlar, köhnə davranış standartları, zərərli vərdişlərdən asılılıq, əqidə barışmazlığı, zövq, əyləncə və tələbatlarda uyğunsuzluq ailədaxili ziddiyyətlərin kəskinləşməsinə səbəb olan əsas konfliktogen amillər hesab oluna bilər.

Ər-arvad konfliktlərinin meydana gəlməsində xarici amillərin təsir ehtimalı da az rol oynamır. Buraya bir çox ailələrin get-gedə müflisləşmə nəticəsində maddi vəziyyətinin pisləşməsini, cütlüklərdən hər ikisinin və ya birinin işdə hədsiz yüklənməsini, qohumların ailəyə müdaxiləsini tərəflərdən birinin iş tapa bilməməsi və ya işsizliyini, ailənin uzun müddət ayrıca mənzilə

sahib ola bilməməsini, uşaqların bağçaya yerləşdirilməsi ilə bağlı çətinlikləri, ailədə şikəst ailə üzvünün olmasını, yataq xəstəsi və ya həbsdə olan ailə üzvünün problemlərini və s. aid etmək olar.

## ƏDƏBİYYAT

**1.** Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı: Mütərcim, 2015.

**2**. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986.

**3.** Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004.

**4.** Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Psixoloji etüdlər. Bakı: MBM, 2007.

**5.** https: // az.trend.az. Azərbaycanda boşanmaların sayı artır.

**6.** İsmayılov F.Q.Klassik psixoanalizin əsasları. Bakı: Azərbaycan Milli Ensiklopediyası. 2003.

**7.** Məmmədov F., Abdullayev B. Ailədaxili münaqişələrdə gender problemi. //"Gender problemi və müasir Azərbaycan" adlı respublika elmi konfransının materialları. Bakı: Azərbaycan Universiteti. 25 noyabr 2017-ci il. səh. 303-306

**8.** Məmmədzadə İ.R. Cins, etika və siyasət problemləri. //Genderşünaslıq. Beynəlxalq, elmi-kütləvi jurnal. (Azərbaycan və İngilis dillərində) Bakı: Səda, 2000, №1

**9.** Nəcəfova Z. Gender stereotipləri. // "Gender problemi və müasir Azərbaycan" adlı respublika elmi konfransının materialları. Bakı: Azərbaycan Universiteti. 25 noyabr 2017-ci il. səh. 339-341

**10.** Osho. Qadınların kitabı. Qadınlar kişilərdən daha dərin hissi gücə malikdir. Bakı: Qanun Nəşriyyatı, 2014.

**11.** Sadıqova İ. Ailədə gender identifikasiyası. //"Gender problemi və müasir Azərbaycan" adlı respublika elmi konfransının materialları. Bakı: Azərbaycan Universiteti. 25 noyabr 2017-ci il. səh. 371-376

**12.** Пиз А. Пиз В. Язык взаимоотношений мужчина↔женщина. М:, Эксмо, 2013.

UOT 373

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ROL DAVRANIŞININ TƏDQİQİ METODLARI

***Ofeliya Əlizadə***
*Bakı Dövlət Universiteti*
*ofeliya.alizadeh@gmail.com*

**Açar sözlər:** *tədqiqat metodu, rol davranışı, işarə-simvol sistemi, real davranış, aqressiv davranış, davranış modeli, verbal təlimat, tədqiqat mərhələləri, eksperiment, proqram, qrup terapiyası, terapevtik şərait*

# RESEARCH METHODS FOR ROLE BEHAVIOUR IN CHILDREN OF PRESCHOOL AGE

***Ofeliya Alizade***

**Keywords:** *Methods of research, role-playing guide, systems symbols, real-life behavior, aggressive behavior, behavior model, language teaching, research stages, program, group therapy, therapeutic procedure.*

The article deals with ways to explore the behavior of preschool children. It is reported that the proposed methodology has allowed the author to test the assumptions we have put forward. Tasks of the research have been fulfilled and the goal has been achieved. In this methodology, recommendations are made to the child group. These guidelines give the instruction to execute any behavioral role within the behavior patterns. In this case, the role played by the child is "diminished by reason", "localization", "self-discipline", "self-organization" and so on. it is called such an explanation. These experiments have been tested by the author in the form of staging, installation and descriptive activities based on role-playing, artistic examples and social events.

The article also outlines the results of the application of the methodology. It is noted that, with the help of games and other recreational tools, the role of children in the role of the child in all three groups was well-known. Changes in the normal group corresponded to age. In a separate group, conscious behavior in children has not been fully formulated, but in some situations. At the same time, behavioral habits have emerged in all three directions.

# МЕТОДЫ ИССЛЕДОВАНИЯ РОЛЕВОГО ПОВЕДЕНИЯ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Офелия Ализаде***

**Ключевые слова:** *метод исследования, ролевое поведение, система знак-символы, реальное поведение, агрессивное поведение, поведенческая модель, словесное обучение, фазы исследований, эксперимент, программа, групповая терапия, терапевтические условия*

В статье рассматриваются способы изучения поведения детей дошкольного возраста. Сообщается, что предлагаемая методология позволила автору проверить предположения, которые мы выдвинули. Цели исследования были выполнены, и цель была достигнута. В этой методологии рекомендации для детских группы. Согласно этим правилам, поведенческие шаблоны назначаются для выполнения любого поведения роли. В этом случае роль, который играет ребенок называются понятиями: «создании образца», «управлении пространством», «самодисциплине», «самоорганизации» и т.д. Эксперименты были протестированы автором в виде постановки, установки и описательной деятельности на основе ролевых, художественных образцов и социальных событий.

В статье также изложены результаты применения методологии. Отмечается, что с помощью игр и других терапевтических инструментов происходит развитие роли детей во всех трех группах. Изменения в нормальной группе соответствовали возрасту. В сплоченной группе сознательное поведение у детей не было полностью сформулировано, но в некоторых ситуациях это произошло. В то же время поведенческие привычки появились во всех трех направлениях.

Məktəbəqədər yaşlı uşaqlarda rol davranışın formalaşmasının tədqiqi hər bir yaş dövrü üzrə xüsusi metodikaların qurulmasını tələb edən mürəkkəb prosesdir. Rol davranışın formalaşması prosesində yalnız yaş xüsusiyyətləri deyil fərdi fərqlər, o cümlədən psixikanın sağlamlıq vəziyyəti də fərqli vəziyyətlər yaratdığından tədqiqatda bu amilləri də nəzərə almaq lazım gəlir. Bu məsələlərin qoyuluşunu düzgün müəyyənləşdirməkdən ötrü metodikanın qurulmasında istinad edilən metodoloji mənbələr dəqiqləşdirilməlidir.

Rol davranışı, əslində uşaqlar tərəfindən işarə-simvol sisteminin köməyi ilə (səs, forma, hərəkət), hissələrlə, hərəkət koordinasiyalarının düzgün qurulması əsasında formalaşır. L.İ.Bojoviç məktəbəqədər yaş dövründə uşaqlarda işarə-

simvol sisteminin formalaşmasını onlarda əxlaqi (rol) davranışın inkişafı ilə əlaqələndirir. Onun qənaətinə görə, hər şey aydın və dəqiq baş verir. Davranışın yeni motivəri yaranır. Təəssüratlar mürəkkəbləşir. Emosional sahə rəngarəng və zəngin olur. Bir tərəfdən o yaşayır və hərəkət edir, digər tərəfdən, həyatın və davranışın yeni, işarə-simvol planına daxil olur. Bu plan nitq, nitq təfəkkürü, fantaziya, təsviri fəaliyyət, oyunlardır. İndi o yalnız yaşamır, eyni zamanda həyat haqqında mühakimə yürüdür, şəkil və ya oyun haqqında düşünür. Real həyatın bu yeni işarə-simvol planında uşaq çox şey, daha böyük olanları yerinə yetirə bilər [1, s. 77].

E.V.Subbotski işarə-simvol səviyyəsində uşağın ilk dəfə əxlaqi sahədə üzləşdiyini bildirir. Bu yolla o yaxşı və pis, lazımlı və lazımsız, icazəli və qadağa haqqında məlumat alır. Bu yolla uşaq “əxlaqi  şkalaya” sahib olur. Onun köməyi ilə üzləşdiklərini “ölçür” və qiymətləndirir. Bu işarə-simvol sisteminin köməyi ilə ilk dəfə olaraq əxlaqi normaları mənimsəyir: yaxşı, razılıqlı olması üçün nə etmək olar.  E.V.Subbotski bu yaş dövrünü uşaqlarda “Mən-təsəvvür”ün formalaşdığı 3 yaşla əlaqələndirir. “Real hərəkətlər səviyyəsində uşaq hələ sosial normaları mənimsəmək imkanında deyil. O hələ sözündə obyektivdir, müstəqildir, əxlaqlıdır, alicənabdır, əslində isə eqoist və qərəzlidir. Onun davranışı sanki bunları deyir: sözün “oxu”, verbal davranış cənuba, real davranışın “oxu” isə şimala baxır. Nə üçün sözlə mənimsənilənlər uşağın davranışını dəyişmir? Cavab bəllidir: uşaqda hələ onu normalara tabe edəcək motivlər yoxdur” [2, s. 77].

Q.Ollport bu dövrdə uşağın artıq öz real davranışını dəyişərək onu normalara tabe etdirmək məcburiyyətində qaldığını bildirir. Yaşlıların pozitiv diqqətini ödəməyə cəhd edərək onların dedikləri ilə “oturub-durur”.  Onları razı salmağa çalışır [3, s. 279]. J.Piaje uşaqların canlı və cansız təbiətlə davranışında baş verən dəyişmələrin, yəni inkişafın fəlsəfəsini maraqlı fikirlərlə aydınlaşdırır. Onun qənaətinə görə, uşaq mühitdə hərəkət edərək, şeylərlə əlaqəyə girərək yaşlıların izahlarını dinləyir. Özünün düşüncələri ilə yaşlıların izahları arasında müqayisələr aparır. Tədricən şeylərin təbiətindəki subyektiv və psixoloji xassələri müəyyənləşdirir. Obyektin “anlaması” və “dinləməsi” onları qətiyyən maraqlandırmır. Təfəkkürün animizmi dumanlı olub təcrübədə dirçəlir. Uşaq kiçik “eksperimentlər, tədqiqatlar” yolu ilə xarici obyektlərin ziddiyyətlərini və mexaniki prosesləri öyrənir. Əşyanın adını öyrənmək üçün ona baxmaq yetərlidir. Əşyanı dəyişmək onun özünü dəyişmək deməkdir. Sonralar şeylərin adları, sanki onların özlərindən doğaraq havada, sözdə, fikirdə yerləşir. “4-6 yaşda uşaq təfəkkürünün mənzərəsi belədir ki, uşaq nəinki yalnız təbiəti ruhlandırır, həm də psixikanı işıqlandırır” [4, s. 85].

E.V.Subbotski və onun həmkarları maraqlı bir təcrübə keçirirlər. Onlar uşağa stolun sehrli olduğunu deyərək onun üstünə oyuncaqlar qoyurlar. Uşaq oynayarkən oyuncaqlar o tərəf-bu tərəfə sürüşür, yerə düşür və digər bu kimi

mexaniki hadisələr baş verir. Uşaqların davranışını gizli müşahidə edən ekspertlər müəyyən edirlər ki, yalnız 4 yaşlı uşaqların bir qismi stolun sehrli olmasına, bu səbəbdən də canlanmasına inanırlar. 4-7 yaşındakı qalan uşaqlar buna inanmırlar. Beləliklə, aydın olmuşdur ki, uşaq üçün real həyatda sehr yoxdur və ola da bilməz. Əgər uşaq bu barədə düşünürsə, deməli onun belə düşünməyə vadar edən səbəblər yalnız real həyatda yaşlılardan aldıqları məlumatlarla deyil, genetik hafizə ilə də bağlıdır [2, s. 100].

A.Bandura və R.Uolters müəyyən etmişlər ki, vizual öyrənmə proseduru (yalnız bir model üçün gərək olan möhkəmləndirmə və ya əsaslı möhkəməndirmə məşqi) yeni sosial təcrübə üçün xüsusilə səmərəlidir. Belə prosedur sayəsində sınanılanda əvvəl onun reaksiyası üçün az ehtimal olunan “bihevioral yerləşmə” formalaşır. A.Banduraya görə, müşahidə yolu ilə öyrənmə vacibdir. Müşahidə yolu ilə möhkəmləndirməni A.Bandura ona görə əhəmiyyətli hesab edir ki, onun köməyi ilə avtoritet nümunəni təqlid etmək imkanı yaradaraq uşağın davranışını nizamlamaq və istiqamətləndirmək mümkündür.

Bununla bağlı A.Bandura uşaq və gənclərlə çoxsaylı laborator eksperimentlər keçirmişdir. Eksperimentlərdə uşaqlara yaşlıların davranış (aqressiv və qeyri-aqressiv) nümunələri olan, müxtəlif nəticələrlə yekunlaşan (rəğbətləndirmə və cəzalandrma) filmlər göstərilir. Filmdə yaşlı oyuncaqla aqressiv davranır. Filmə baxdıqdan sonra uşağı filmdəki oyuncaqlara oxşar olan oyuncaqlar qoyulan otaqda tək qoyurlar. Filmə baxan uşaqlar baxmayan uşaqlarla müqayisədə daha çox aqressiya göstərirlər. Əgər filmdə yaşlılar aqressiya nəticəsində mükafatlandırılırdısa, o halda uşaqlarda aqressiya daha çox olurdu. Yaşlıların aqressiv davranışının cəzalandırıldığı filmə baxan digər qrupda aqressiya azalır.

Bir sıra Amerika tədqiqatçıları A.Banduranın sosial öyrənmə nəzəriyyəsinə “sosiallaşma prosesi haqqında ağıllı fərziyyələr” konsepsiyası kimi baxırlar. Digər tədqiqatçılar qeyd edirlər ki, təqlidetmə mexanizmi bir çox davranış aktlarının yaranmasını izah etmək üçün kifayət etmir. Yalnız velosiped sürəni müşahidə edərək onu sürməyi öyrənmək olmaz, bunun üçün praktika lazımdır. Bu iradı nəzərə alan A.Bandura modelin təqlidinin yeni davranış aktı formalaşmasına aparıb çıxarmasını izah etmək üçün “stimul-reaksiya” sxeminə 4 aralıq proses daxil edir [10]:

· Uşağın modelin təsirinə diqqəti. Modelə tələbat: aydınlıq, fərqlilik, affektiv dolğunluq, funksional mahiyyət. Bu halda müşahidəçidə müvafiq sensor imkanlar olmalıdır.

· Modelin təsir etməsi haqqında informasiyanın saxlanıldığı hafizə.

· Müşahidəçinin qəbul etdiklərini yerinə yetirmək üçün vərdişlər.

· Uşağa gördüklərinin icrasını arzu edən motivasiya.

Xarici aləmin belə daxili modelləri əsasında müvafiq şəraitdə real davranış qurulur. Bu davranışda əvvəl müşahidə edilmiş davranış modelinin xassələri

ifadə olunur. Bununla belə, davranışın koqnitiv nizamlanması stimula nəzarətin və möhkəmləndirmənin başlıca biheviorist öyrənmə nəzəriyyəsinə tabedir. Sosial öyrənmə nəzəriyyəsi modelini təsirinin onun özündə daşıdığı informasiya ilə bağlılığını təsdiq edir. İnformasiyanın məhsuldarlığı müşahidəçinin koqnitiv inkişafından asılıdır. Sosial öyrənmə nəzəriyyəsinə koqnitiv dəyişmələrin gətirilməsi aşağıdakı faktorları izah etməyə imkan verir:

· Verbal təlimatın görmənin qəbul etdiyi nümayişlə qarışdırılması (burada əsas olan modelin xarici xasəsi deyil, hər şeydən əvvəl informasiyadır).

· Bir çox vərdişlərin imitasiya vasitəsi ilə formalaşdrılmasının mümkünsüzlüyü (əgər uşaqda davranış üçün zəruri olan komponentlər yoxdursa).

· 3 yaşda 6 yaşla müqayisədə imitasiya imkanlarının məhdud olması (səbəb daha zəif hafizə, vərdişlərin azlığı, diqqətin davamsızlığı və s.).

Uşaqların rol davranışını öyrənmək məqsədilə digər tədqiqatçılar tərəfindən də araşdırmalar aparılmış, bir sıra texnologiyalar işlənib hazırlanmışdır. N.E.Veraksa və O.M.Dyaçenko məktəbəqədər yaşlı uşaqların davranışının nizamlanması vasitələri [11],T.P. Smirnova aqressiv davranışın korreksiyasında oyunlardan istifadə [5], İ.V.Maksimova böyük məktəbəqədər yaşlı uşaqların mədəni davranışının formalaşmasının pedaqoji şərtləri [6], O.N.İvanişina uşaqların qarşılıqlı münasibətlərində süjetli-rollu oyunların rolu [12] mövzularında davranışın korreksiyası üzrə müxtəlif texnologiyalar təklif edirlər.

Bunlarla yanaşı, T.B.Sadıqova uşaqların məktəb təliminə hazırlanmaları prosesində didaktik oyunlardan istifadənin imkan və yollarını göstərir [7]. S.R.Bədiyev təlim tərbiyə prosesində tətbiq edilən müasir texnologiyaların məzmununu aydınlaşdırır, onların təsnifatını verir [8], S.E.Xəlilova təlim materiallarinin mənimsənilməsi rolunu aydınlaşdırır [9].

Bu metodoloji bazaya əsaslanaraq tədqiqatın metodikasını işləyib hazırladıq. Tədqiqat 2015-2017-ci illər üçün nəzərdə tutulmuşdur. Əvəlcə müşahidə, söhbət və müsahibələr, sorğular və test tapşırqları vasitəsi ilə uşaqların rol davranış imkanları haqqında məlumatlar topladıq. Bu illər ərsində həm normal, həm ləngimiş, həm də problemli inkişafı olan uşaqlarda rol davranışın formalaşmasına təsir göstərən sosial mühit faktorlarını nəzərdən keçirdik.

Tədqiqatda bizim əsas vəzifələrimizdən biri məktəbəqədər yaş dövründə uşaqlarda rol davranışın formalaşmasının psixopedaqoji şərtlərini müəyyən etməkdir. Ona görə əvvəlcə 3-6 yaşlı uşaqlarda rol davranışa uyğunlaşmanın psixoloji və pedaqoji aspektlərini müəyyənləşdirdik. İşlədiyimiz metodikada uşaq qrupuna təklif etdiyimiz qaydalar, bu qaydalara görə, təklif edilən davranış nümunələri içərisindən hər hansı rol davranışı yerinə yetirmək tapşırıldı. Bu halda uşağın icra etdiyi rol davranış "nümunəyə görə qurulan", "məkanda bələdləşmə", "özününizamlama", "özünütəşkiletmə" və d. bu kimi anlayışlarla adlandırıla bilər. Bu təcrübələri 3 fəaliyyət formasında sınaqdan keşirdik: rol oyunları;

bədii nümunələr və sosial həyat hadisələri əsasında səhnələşdirmə; quraşdırma və təsviri fəaliyyət.

Obyekt və hadisələrin xassələrini təmsil edən sensor etalonlara isə bunlar daxildir:

a) əyani model, obyektin təmsiledici quruluşu (simvol-xassə: rəng, forma və s.);

b) sözlərin mahiyyəti (simvol - kompozisiya: görünüş, arxitektura);

c) uşağın gerçəkliyə münasibətini ifadə etmək üçün yararlana biləcəyi simvolik vasitələr: (simvol-metafora: obyektin gizli quruluşu, bu xassələrin anlayışlarda ifadəsi).

I mərhələ: 3-4 yaş - qavrayışın inkişafı (simvol-xassə).

II mərhələ: 4-5 yaş - əyani quruluşların ayırd edilməsi (simvol - kompozisiya).

III mərhələ: 6-7 yaş-gizli, müşahidə edilməyən xarakteristikalardan gerçəkliyə keçid (simvol-metafora).

Bunun üçün problemin tədqiqi metodikası əsasında müxtəlif yaş dövrlərində rol davranışın formalaşmasında üstünlüyü olan vasitələrdən istifadə edərək prosesə təsir göstərməkdir. Belə təsirlər sırasına 3 əsas amili daxil etdik:

1) yaşlıların səs siqnallarının köməyi ilə uşaqlarda hərəkət koordinasiyasının nizamlanması - 3 yaş;

2) uşaqların əsas fəaliyyət növü olan oyun prosesində müxtəlif davranış modellərinin transformasiyası - 4 yaş;

3) uşaqlarda rol davranışın formalaşmasına qrup terapiyasının təsiri - 5 yaş.

Bütün bu məsələlər sonda emosiya və dərketmə (intellekt) arasındakı əlaqələrin qurulmasını tələb edir. Yəni, məktəbəqədər yaşlı uşağın rol davranışı emosional sahənin nizamlanması sayəsində onun sosial mühitin tələb və normalarına uyğunlaşdırılması yolu ilə formalaşır. Şübhəsiz ki, belə formalaşmada uşağın yaxınları, o cümlədən valideyn və tərbiyəçilərin, uşaq psixoloqlarının rolu xüsusilə qeyd edilməlidir.

I mərhələdə sınanılanların əqli imkanlarını müəyyənləşdirdik. Bu məqsədlə aşağıdakı metodikalardan yararlandıq: “Segen lövhəsi”. “Süjetli əlavələr”. “Koos metodu”. “Qarışıq nümunələr” metodu. “Xalça” metodu.

İdrak proseslərinin psixodiaqnostikası materilları.

Refleksiv bacarıqların diaqnostikası.

Əyani modelləşdirmə bacarığının diaqnostikası.

Texniki hazırlığın diaqnostikası. Bu metodikadan uşaqlarda rol davranışın kiçik və böyüük motor imkanlarını aşkara çıxarmaq üçün ustufadə etmişik.

Tapşırıqlar:

I tapşırıq- incə motorikanın inkişafının müəyyənləşdirilməsidir.

II tapşırıq-müvazinətin saxlanması, hərəki-əqli əlaqənin qurulması bacarığı öyrənilir.

III tapşırıq -bədən sxeminni harmonik nizamlanması.

IV tapşırıq-iradi iş bacarığının diaqnostikası.

V Tapşırıq-fonematik eşitmə qabiliyyətinin diaqnostikası.

VI Tapşırıq-emosiya, hiss, halət haqqında təsəvvürlərin diaqnostikası.

Nəticələrə görə uşaqları 3 qrupa böldük. Davranışın qiymətləndirilməsi və hansı qrupa daxil edilməsi müəyyənləşdirildi. Biz tədqiqatımızda bunu 3 istiqamətdə təşkil etdik:

1) ailə tərbiyəsində yol verilmiş nöqsanlar səbəbindən rol davranışın inkişafdan qalması: I - normal inkişaf qrupu (NİQ);

2) müxtəlif xarakterli psixi ləngimələr səbəbəbindən rol davranışın formalaşmaması: II - ləngimiş inkişaf qrupu (LİQ);

3) autizm simptomları səbəbindən rol davranışın formalaşmaması: III – problemli inkişaf autizm qrupu (PİQ).

Uşaqlarla aparılan bu işlərlə yanaşı, valideynlərlə anket sorğu keçirildi. Məlumatlar toplandırdan sonra psixoterapevtik nəzəriyyələrin metodologiyasına əsaslanmaqla bir neçə istiqamətdə təhlillər aparıldı. Təhlillərdə rol davranışın inkişafına təsir göstərən əsas amillər nəzərə alınaraq inkişafın xarakteri göstərildi.

Kliniki-psixoloji təhlil: uşağın sağlamlıq vəziyyəti, inkişafda bu və digər xarakterli problemlərin, xəstəlik və sindromların olub-olmaması.

Psixoloji diaqnostika: uşağın psixi yaş səviyyəsi müəyyənləşdirildi, real nəticələr və psixoloji yaşın xronoloji yaşa uyğunluq dərəcəsi üzrə korrelyasiya aparıldı, rol davranışın xüsusiyyətləri, forması təyin edildi. Burada, həmçinin uşağın dərketmə imkanları da aydınlaşdırlaraq rol davranışa yiyələnmə gösətəriciləri proqnozlaşdırıldı.

II mərhələdə eksperiment başlandı. Eksperimentdə bu fərziyələri irəli sürdük:

1) üçyaşlı uşaqlar yaşlıların səs siqnallarına qarşı o zaman istiqamətlənirlər ki, təklif edilən hərəkətlə əvvəlcədən tanışdırlar və bu hərəkət onlara zövq verir;

2) uşaqlara təklif edilən davranış nümunəsinə istiqamətlənmə ya yaşlıları, ya da həmyaşıdları təqlid etmək üçün baş verir;

3) davranış nümunəsi uşaqlara oyun elementi və hərəkəti kimi təklif edilir;

4) davranış nümunəsi təklif edilməzdən əvvəl uşaq bir neçə dəfə, ardı ardına yaşlının səs siqnalları ilə müşayiət olunan, izah edilən davranış nümunələrinin cizgi filmi, videoçarx, uşaq filmlərindən götürülmüş bir neçə saniyəlik hərəkətli bədii ekran nümunələrini seyr etdirilir.

Bu fərziyələri təcrübədən keçirdik.

III mərhələdə uşaqlarda beş yaşın imkanları nəzərə alınaraq qrup terapiyaları həyata keçirilmişdir. Onlarla fərdi və yarımqruplarla deyil, qrupla birgə terapiya işləri arapılmışdır. Uşaqların qrup terapiyasında istifadə edilən vasitələri əsasən 3

istiqamətə yönəltdik. Əvvəlcə qrup terapiyası üçün "Məktəbəqədər yaşlı uşaqlarda rol davranışın qrup terapiyası Proqramı" hazırladıq. Proqramda psixoanalitik, psixodramatik, geştalt-terapevtik, nağıl terapiyası, art-terapiya, qum terapiyası, oyun terapiyası konsepsiyalarına müraciət olundu.

"Məktəbəqədər yaşlı uşaqlarda rol davranışın qrup terapiyası Proqramı"

Proqramın məqsədi: uşaqların davranışında dəyişmələr yaratmaq, onları sosial rollara, yaşlılar və həmyaşıdlarla empatik münasibətlərə, səmərəli ünsiyyətə alışdırmaq.

Proqramın vəzifələri: proqram iştirakçılarını (psixoloq, pedaqoq, defektoloq, loqoped, art-terapevt, manual terapevt) eksperimentin, eləcə də həyata keçirəcəkləri işlərin tematik proqramların məqsəd və vəzifələri ilə tanış etmək.

I və II mərhələdə nəzərdə tutulmuş işləri həyata keçirdikdən sonra III mərhələ üzərində daha geniş dayandıq. Buna səbəb qrup terapiyası üçün əlverişli terapevtik şəraitin yaradılması idi. "Terapevtik şərait"ə aşağdakı amilləri daxil etdik:

1. Uşaq qrupunun tərkibinin düzgün müəyyənləşdirilməsi.
2. Tədqiqat qruplarınında oyun terapiyasının məqsədlərinin müəyyənləşdirilməsi.

Tətbiq etdiyimiz bu işlər nəticəsində NİQ və LİQ qruplarında rol davranışın korreksiyasında müsbət nəticələr əldə edildi. LİQ üzrə nəticələr proqnozlaşdırıldığı qədər səmərəli olmasa da uşaqların rol davranışında qrup terapiyasının üstünülüklərini bir daha sübut edildi. PİQ-nun nəticələri uşaqların emosional vəziyyətinin yaxşılaşmasına və hərəkətlərdə aqressiyanın, inkaretmənin azalmasına, birgəfəaliyyətdə iştirak edərək yaşlının nəzarəti altında işi sona çatdıra biıməsinə müsbət təsir göstərmişdir.

## ƏDƏBİYYAT


1. Божович Л.И. Личность и её формирование в детском возрасте. М.: Просвещение, 1968. 464 с.
2. Субботский Е.В. Ребенок открывает мир. М., Просвещение, 1991, 235 с.
3. Оллпорт Г. Кеттел Р., Айзенк Г. Диспозициональное направление в теории личности // Теории личности. М.- СПб: Питер, 1997, с. 270-331
4. Пиаже Ж. Речь и мышление ребенка. М., Гос.Уч.Пед.Изд.1932, 407 с.
5. Смирнова Т.П. Психологическая коррекция агрессивного поведения детей. Ростов на/Дону: Феникс, 2004, 160 с.
6. Максимова И.В. Педагогические условия воспитания культуры поведения у детей старшего дошкольного возраста//Теория и практика

образования в современном мире: материалы III междунар. науч. гонф. СПб.: Реноме, 2013, с. 64-67

7. Sadıqova T.B. Uşaqların məktəb təliminə hazırlanmaları proesində didaktik oyunlardan istifadənin imkan və yolları // Ped.üzrə f. dok. dis. Bakı, 2006, 159 s.

8. Bədiyev S. R. Şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsində yeni təlim texnologiyalarından istifadə // ped. elm. nam. dissertasiya. Bakı: TPİ-nin kitabxanası, 2008, 139 s.

9. Xəlilova S.E. İbtidai siniflərdə təlim materiallarinin mənimsənilməsində mümarisələrin rolu // psixol. üzrə fəl. dok. diss.. Bakı: 2011, 142 c.

10. http://www.doshkolnuk.com // Бандура А. Роль подражания в формировании нового поведения // Теория социального научения

11. Ошибка! Недопустимый объект гиперссылки. //Веракса Н.Е., Дьяченко О.М. Способы регуляции поведения у детей дошкольного возраста

12. http://www.portal-slovo.ru//Иванищина О.Н. Формирование взаимоотношений детей в сюжетно-ролевой игре // Дошкольное образование

**Mündəricat**

***Anar İsgəndərli.*** 1915-1918-Cİ İLLƏRDƏ TÜRK-MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI SOYQIRIMLARI .......................................................3
***Abbas Seyidov.*** 1914-1921-Cİ İLLƏRDƏ ŞƏRQİ ANADOLUDA VƏ NAXÇIVANDA ERMƏNİ MİLLƏTÇİLƏRİNİN TÖRƏDİYİ QƏTLİAMLAR .......................................................................................20
***Elçin Cabbarov.*** BİR DAHA «ADOLF HİTLER və ERMƏNİ GENOSİDİ» MƏSƏLƏSİ HAQQINDA ..................................................................30
***Rahib Əkbərov***. AZƏRBAYCAN MİLLİ ŞURASININ 29 MAY 1918-Cİ İL TARİXLİ 3 SAYLI İCLAS PROTOKOLUNUN SİYASİ-HÜQUQU MAHİYYƏTİNƏ DAİR ......................................................................43
***Xəyyam Orucov.*** XX ƏSRİN 70-80-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN SSR-İN YUXARI (DAĞLIQ) QARABAĞ REGİONUNDA İQTİSADİ VƏZİYYƏTƏ DAİR ...........................................................................54
***Малахат Фараджева.*** СВЯТИЛИЩА ГОБУСТАНА ............................61
***Vedat Evren Belli.*** VAN GÖLÜNÜN CƏNUBU VƏ HAKKARİ BÖLGƏSİNİN ERKƏN DƏMİR DÖVRÜ YAŞAYIŞ YERİ VƏ NEKROPOLLARI .............................................................................72
***Зухра Калаханова, Марина Янова.*** ЛИКВИДАЦИЯ И ВОССТАНОВЛЕНИЕ НАЦИОНАЛЬНОЙ ГОСУДАРСТВЕННОСТИ КАРАЧАЕВЦЕВ: ПОЛИТИКО-ПРАВОВОЙ АСПЕКТ ..........................81
***Leyli Həmidova.*** AĞQOYUNLU BƏYLİYİNİN YARANMASI VƏ FORMALAŞMASI ..............................................................................89
***Gülşən Orucova***. MƏKTƏBDAXİLİ İDARƏETMƏ PROBLEMİNİN ELMİ-PEDAQOJİ ƏDƏBİYYATDA QOYULUŞU ....................................97
***Şəhla Əliyeva.*** İNKİŞAF PROBLEMLƏRİ OLAN UŞAQLARA BƏRPAEDİCİ YARDIM SİSTEMİ ..........................................................107
***Könül Həsənova***. FÜYUZAT"ÇILAR MİLLİ ÖZÜNÜDƏRK VƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ HAQQINDA ...................................115
***Nuralı Çələbiyev.*** CİNSİ FƏRQLƏR AMİLİ VƏ GENDER STEREOTIİPLƏRİ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN FORMALAŞMASININ PSİXOLOJİ ŞƏRTİ KİMİ ...................................122
***Ofeliya Əlizadə***. MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ROL DAVRANIŞININ TƏDQİQİ METODLARI ............................................133

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – **sevinc0610@mail.ru** göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal*

*2018, 1(20)*

***Çapa imzalanmış*** *27.*03.2018-ci ***il***
***Kağız formatı*** *60x84 1/16,* ***çap vərəqi 18***
***Sifariş*** 101, ***sayı*** *100*

***Bakı, Ü.Hacıbəyli küçəsi****, 68*
Telefon: (+994 12)493 05 85
E-mail: sevinc0610@mail.ru
www.adpu.edu.az